**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "Azərbaycanda kənd təsərrüffatının inkişafı və mövcud problemlərin həlli yolları" mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Məmmədova Leyla Elçin**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d. dos Əhmədov Fariz Saleh**
**"__" _______ 2019-cu il**

**"Azərbaycanda kənd təsərrüffatının inkişafı və mövcud problemlərin həlli yolları" mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060404 / İqtisadiyyat**

**İxtisaslaşma: İqtisadi nəzəriyyə**

**Qrup: 10**

**Magistrant**
**Məmmədova Leyla Elçin**

**________________imza**

**Elmi rəhbər**
**i.ü.f.d.Babayev Tural Söhbət**

**_____________________imza**

**Proqram rəhbəri**
**i.ü.f.d., b.m. Hümbətova Suqra İnqilab**

**_____________________imza**

**Kafedra müdiri**
**i.e.d.,prof.Kəlbiyev Yaşar Atakişi**

**_____________________imza**

**BAKI – 2019**

**Development of agriculture in Azerbaijan and ways to solve existing problems.**

**Summary**

**The actuality of the subject. Innovative entrepreneurship in the development of agriculture means the achievement of more efficiency by using less financial and less labor resources. At the moment, after the backdrop of the oil sector, this area has become one of the state's focus areas. The agrarian sector plays a significant role in meeting the population's needs in this area. However, in the conditions of the market economy, certain problems have arisen in the regulation of the agricultural sector.**

**Purpose and Objectives of the Research. The purpose of the research is to develop innovation entrepreneurship in agriculture, to set principles for productive forces placement, to support employment growth and development of education services, to build market relations in this sector and to build a production structure meeting modern requirements.**

**Theoretical and methodological bases of research. Theoretical and methodological basis of the research is the developed methodological recommendations on the development of the agrarian sector, regulations, decrees signed by the President of the Republic of Azerbaijan on the development of agriculture, official information of the State Statistical Committee, decisions of the Cabinet of Ministers. One of the main issues to be considered when preparing a dissertation work is the methods used. These methods differ according to the content and structure of the topic. The phenomena highlighted by the use of scientific abstraction have been identified and theoretical summaries have been implemented (other conditions that affect this event or process are also expended.Dissertation restrictions are low in economic indicators last year and this makes it difficult for the research.**

**The database of the dissertation work is composed of scientific researches, articles, various types of internet information, normative legal acts defined by the legislation of the economist scientists**

**The practical significance of the results is the current situation in the agricultural sector, making appropriate steps in the direction of innovative solutions to existing problems or problems.**

**Key words:Agriculture, entrepreneurship, innovation**

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **AB** | Avropa Birliyi |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **Aİ** | Avropa İttifaqı |
| **AŞ** | Avropa Şurası |
| **ARDNF** | Azərbaycan Respublikası Dövlət Neft Fondu |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **ETT** | Elmi Texniki Tərəqqi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ÜMG** | Ümumi Milli Gəlir |
| **ÜTT** | Ümumdünya Ticarət Təşkilatı |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **İƏT** | İqtisadi Əməkdaşlıq Təşkilatı |
| **İKT** | İnformasiya Kommunikasiya Texnologiyalar |
| **İSSF** | İqtisadi Sosial Stabilləşdirmə Fondu |
| **İEÖ** | İnkişaf Etmiş Ölkələr |
| **İEOÖ** | İnkişaf Etməkdə Olan Ölkələr |
| **GUAM** | Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanı birləşdirən təşkilat |
| **DSK** | Dövlət Statistika Komitəsi |

## MÜNDƏRİCAT

**GİRİŞ.........................................................................................................8**

**I Fəsil KƏND TƏSƏRRÜFATI MÜHİTİNİN FORMALAŞDIRILMASININ ELMİ-NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI............................................12**

1.1.Aqrar sahənin inkişafının başlıca istiqamətlərinin nəzəri təhlili.......................12

1.2.Kənd təsərrüfatının dayanıqlı inkişafında dövlət tənzimlənməsinin rolu..........25

1.3.Regionlarda kənd təsərrüfatının inkişafında innovasiyalı sahibkarlığın mövcud vəziyyəti..........................................................................................................34

**II Fəsil KƏND TƏSƏRRÜFATININ İNKİŞAFININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ ........................39**

2.1. Azərbaycanda kənd təsərrüfatında dövlətin rolunun təhlili.............................39

2.2.Ölkədə ixrac potensialının mövcud vəziyyətinin qiymətləndirilməsi...............55

2.3.Kənd təsərrüfatında məşğulluq səviyyəsinin təhlili və qiymətləndirilməsi......62

**III Fəsil AZƏRBAYCAN KƏND TƏSƏRRÜFATINDA İNKİŞAFA MANE OLAN AMİLLƏR VƏ HƏLLİ YOLLARI .....................................................68**

3.1.Kənd yerlərində məşğulluğun artırılması və bu sahədə elm, təhsil xidmətlərinin inkişafı.............................................................................................................68

3.2.Azərbaycanda regionlar üzrə əhalinin sosial-iqtisadi inkişaf siyasəti və rifah səviyyəsinin artırılması.......................................................................................73

3.3. Aqrar sahədə İKT-nin inkişafı və mövcud vəziyyətə cavab verən “Elektron kənd təsərüffatı sistemi”nin qurulması,sahibkarlara güzəştli kreditlərin tətbiqi.....79

**NƏTİCƏ VƏ TƏKLİFLƏR.........................................................................91**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT..............................................................94**

Cədvəllərin siyahısı...............................................................................................97

Qrafiklərin siyahısı................................................................................................97

Şəkillərin siyahısı..................................................................................................97

# GİRİŞ

**Mövzunun aktuallığı**. Kənd təsərrüfatının inkişafında innovasiyalı sahibkarlıq dedikdə, daha az maliyyə və daha az əmək resursları sərf etməklə daha çox səmərəliliyə nail olmaq başa düşülür. Hal-hazırda neft sektorunda əmələ gələn geriləmələrdən sonra bu sahə dövlətin diqqət mərkəzində olan stateji sahələrdən birinə çevrilib. Aqrar sektor ölkə əhalisinin bu sahəyə olan tələbatının ödənilməsində əhəmiyyətli dərəcədə rol oynayır. Bununla belə, bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatı sektorunun tənzimlənməsində müəyyən problemlər yaranmışdır. Əhalinin artmaqda olan təlabatı və ehtiyacların beynəlxalq standartlar səviyyəsində ödənilməsini təmin etmək baxımından da tənzimləmə mexanizminin təkmilləşdirilməsi zərurəti yaranmışdır. Büdcə, sığorta, qiymət və sairə kimi iqtisadi rıçaqlardan birinin digərinə təsiri nəzərə alınmamaqla tətbiq edilməsi bir sıra əlavə problemlərə yol açmaqla gözlənilən nəticələrin əldə olunmasına imkan verməmişdir. Təsərrüfatların kreditə olan tələbatı, əhalinin alıcılıq qabiliyyəti,minimum istehlak xərcləri,büdcə və sairə kimi göstəricilər və bu göstəricilər arasında uyğunluğun təmin olunması bu gün kənd təsərrüfatı sektorunda sosial-iqtisadi inkişafa nail olunması baxımından aktual məsələ kimi diqqəti cəlb edir.

Kənd təsərrüfatı sahəsinin inkişafı baxımdan aktual məsələlərdən biri də,investisiya cəlbediciliyinin artırılmasıdır. Çünki böyük investisiyalar istehsalın həcminin artırılmasına, müasir texnologiyaların tətbiqinə, ixracyönlü fəaliyyətin genişlənməsinə kömək edir. İnvestisiya cəlb edərkən sahibkalıq sektorlarının quruluş və həcmindən aslı olmayaraq onlara eyni şəraitin yaradılması,xüsusən də kiçik sahibkarlıq sahələrinə dəstəyin artırılması çox vacibdir. Bu, iri investorların rəqabətqabiliyyətinin artırılmasında da əhəmiyyətlidir.

Dissertasiya işində toxunulan vacib və aktual məsələlərdən biri də məhsuldar qüvvələrin inkişafı və səmərəli yerləşdirilməsi problemidir.Bu problemin həll edilməsinin sosial-strateji və siyasi əhəmiyyəti də vardır. Ümumiyyətlə, aqrar sahibkarlıq digər sahibkarlıq növlərinə nəzərən daha çox həyati önəm daşıyır.Belə ki, aqrar sahibkarlıq milli iqtisadi təhlükəsizliyin,o cümlədən ərzaq

təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Aqrar sektor, həm də sənaye müəssisələrinin xammal mənbəyi kimi diqqəti cəlb edir. Kənd təsərrüfatı istehsalı daha çox əməktutumlu olduğundan ölkədə məşğulluğun təmin olunmasında rolu böyükdür. Bu sahədəki problemlərin düzgün həll olunması bir yandan daxili tələbatın ödənməsinə səbəb olursa, digər yandan xarici ölkələrə ixrac imkanlarını genişləndirir və bu hesaba da ölkəyə xarici valyuta axınına şərait yaradır.

**Problemin qoyuluşu və öyrənilmə vəziyyəti.**Tarixi və iqlim cəhətdən aqrar sahənin inkişafı üçün ölkəmizdə əlverişli şəraitin olması haqqında iqtisadçı,habelə digər tədqiqatçı alimlərçoxsaylı əsərlər yazmışlar. Aqrar sahənin problemlərini və həlli yollarını özündə əks etdirən bu əsərlərdə innovasiyalı sahibkarlıq, dayanıqlı inkişafın resurs təminatı, resurslardan səməli istifadə səviyyəsinin yüksəldilməsi və sairə kimi məsələlərə xüsusi diqqət yönəldilir. Bu yöndə yazılmış əsərlərin müəlliflərindən Z.Səmədzadənin,Ş.Axundovun, İ.Qarayevin, T.Quliyevin, Q.Səfərovun, S.Salahovun, M.Hüseynovun, A.Orucovun, N.Eminovun, B.Ataşovun, R.İsgəndərovun, Z.Nəcəfovun, Q.Ovçarenkonun, Derya Şerbetçinin, Ə.Qasımovun və digər alimlərin adlarını qeyd etmək olar.

**Tədqiqatın məqsəd və vəzifələri.**Tədqiqat işinin məqsədi ölkəmizdə kənd təsərrüfatında innovasiyalı sahibkarlığın inkişafına yer vermək,məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi prinsiplərini tədqiq etmək,məşğulluğun artırılmasında təhsil xidmətlərinin inkişafına dəstək olmaq,bu sahədə bazar münasibətlərinin formalaşdırılmasına və müasir tələblərə cavab verən istehsal strukturunun yaradılmasına dair tövsiyyələr işləyib hazırlamaqdan ibarətdir. Qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələr irəli sürülmüşdür:

-kənd təsərrüfatında həyata keçirilən aqrar islahatların istiqamət və vəzifələrinin müəyyən edilməsi;

-aqrar sektorun hüquqi təminatının mövcud vəziyyətini davamlı inkişafın tənzimlənməsi nöqteyi-nəzərdən tədqiq edilməsi və qiymətləndirilməsi;

-aqrar sahədə innovasiyalı fəaliyyət imkanlarının dəyərləndirilməsi;

-aqrar sektorun dayanıqlı inkişaf edən sahələri üzrə səmərəliyin artırılması istiqamətində bir sıra təkliflərin hazırlanması;

-kənd təsərrüfatı iqtisadiyyatının davamlı və səmərəli inkişafı üçün ənənəvi modeldən innovasiyalı inkişaf modelinə keçidi təmin edən amilərin araşdırılıb üzə çıxarılması.

Qeyd edək ki, "2020-ci il gələcəyə baxış" İnkişaf Konsepsiyasının qarşısında duran əsas məqsədlərdən biri də kənd təsərrüfatı sahəsində inkişafa nail olmaqdır. Yuxarıda qeyd olunan məqsəd və vəzifələrin yerinə yetirilməsinin bu Konsepsiyanın həyata keçirilməsinə də xüsusi tövhəsi olacaq.

**Dissertasiya işinin predmetini** ölkədə aqrar sektorun inkişafı baxımından Azərbaycanda bu sahəni prioritet sahələrdən birinə çevrilməsi üçün əsas problemlərin təyin edilməsi və kənd təsərrüfatı sahəsinin mövcud olan potensialı istiqamətində biliklərin artırılması, xüsusilə də dövlətin tənzimləməsi yolu əsas iqtisadi göstəricilərin rolunun yaxşılaşdırılması vasitələrinin öyrənilməsidir. **Tədqiqatın obyektini** bütövlükdə Respublikanın Kənd təsərrüfatı sahəsi təşkil edir. **Tədqiqatın nəzəri-metodoloji əsasları**. Tədqiqatın nəzəri-metodoloji əsasını aqrar sahənin inkişafia dair işlənib hazırlanmış metodik tövsiyyələr, əsasnamələr, kənd təsərrüfatının inkişafı üzrə Azərbaycan Respublikası Prezidentinin imzaladığı fərmanlar, Dövlət Statistika Komitəsinin rəsmi məlumatları, Nazirlər Kabinetinin qərarları vəsairə təşkil edir.

Dissertasiya işini hazırlayarkən əsas diqqət yetirilməli məsələlərdən biri də, tətbiq olunan metodlardır.Bu metodlar mövzunun məzmunu və quruluşuna görə fərqlənirlər. Elmi abstraksiya metodundan istifadə etməklə müşahidə edilən hadisələrdə mühüm olan istiqamətlər aşkara çıxarılmış və nəzəri ümumiləşdirmələr həyata keçirilmişdir (bu zaman həmin hadisə və ya prosesə təsir edən digər şərtlər sərf-nəzər edilir). Analiz və sintez metodundan istifadə etməklə araşdırma mövzusu (iqtisadi hadisələr) sadələşdirilmiş, xəyalən müəyyən hissələrə ayrılmış, və bu yolla da onun mahiyyəti aydınlaşdırılmışdır. Daha sonra həmin tərkib hissələr vahid sistem, tam halında sintez edilmişdir. Araşdırma zamanı istifadə etdiyimiz digər bir metod induksiya-deduksiya metodudur. İnduksiya metodu

faktlardan nəzəriyyəyə, deduksiya metodu isə nəzəriyyədən faktlara keçidə əsaslanır. Belə ki, məsələn, qarşıya qoyulan hər hansı bir məqsəd nəzəriyyə kimi nəzərdən keçirilir, əgər gözlədiyimiz nəticə alınarsa bu, nəzəriyyə kimi tətbiq olunur.Bu, deduksiya metodudur. Dissertasiya tərtib olunarkən apardığımız təhlillərdə müxtəlif statistik faktlardan, qrafiklərdən istifadə olunmuşdur. Normativ metoddan daha çox sosial-iqtisadi inkişaf proqnozlarını işləyib hazırlayarkən istifadə olunmuşdur. Təcrübə göstərir ki,yalnız elmi cəhətdən əsaslandırılmış normativlər üzərində işlənib hazırlanmış proqnozlar etibarlıdır və yalnız belə proqnozlar əhalinin ərzaq və ekoloji təhlükəsizliyini uğurla təmin edə bilər. Odur ki, normativlər işlənib hazırlanarkən istehsal və əməк resurslarından tam və səmərəli istifadə olunması, elmi-texniki tərəqqinin gələcək nailiyyətləri, səmərəli intensiv texnologiyanın yarada biləcəyi imkanlar aşkarlanıb nəzərə alınmalıdır. Mnoqrafiya metodu. Bu metod vasitəsi ilə ayrı-ayrı mütərəqqi iş üsulları ümumiləşdirilir. Misal üçün hər hansı bir təsərrüfatda tədbiq olunan mütərəqqi texnologiyanın məhsuldarlığa təsirini öyrənib, üstünlüklərini aşkara çıxartdıqdan sonra, həmin texnologiyanı başqa təsərrüfatlarda da həyata keçirmək üçün elmi tövsiyyələr hazırlanır.

Dissertasiyanın başlıca məqsədi, istər ərazi baxımından, istərsə də, iqlim baxımdan əlverişli mövqedə yerləşən Respublikamızın kənd təsərrüfatının inkişafına nail olmaq,ölkəni iqtisadi cəhətdən gücləndirilmək üçün yolların araşdırılmasıdır. **Dissertasiya işinin informasiya bazasını** iqtisadçı alimlərin elmi araşdırmaları, məqalələri, müxtəlif növ internet məlumatları, qanunvericilkdə müəyyənləşmiş normativ hüquqi aktlar təşkil edir. **Dissertasiya işinin elmi və praktiki əhəmiyyəti** kənd təsərrüfatı sektorunda hal-hazırkı vəziyyəti qiymətləndirib,mövcud problemlərin və ya problemə çevriləcək məsələlərin innovativ həlli yolları istiqamətində məqsədəuyğun addımlar atmaqdır. **Dissertasiya işinin strukturu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil,nəticə və təkliflərdən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Ümumilikdə dissertasiya 96 səhifə təşkil edir.

# I Fəsil KƏND TƏSƏRRÜFATİ MÜHİTİNİN FORMALAŞDIRILMASININ ELMİ-NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI

## 1.1. Aqrar sahənin inkişafının başlıca istiqamətlərinin nəzəri təhlili

Kənd təsərrüfatı ölkə əhalisinin yaşayış səviyyəsini təmin edən mühüm sahələrdən biridir.Bu sahə ölkədə get-gedə artan tələbatın ödənilməsində,yüngül və yeyinti sənayesinin xammal ilə təchizatında böyük rol oynayır. Ərzaq və digər aqrar məhsullar əhalinin istehlak şeylərinə olan tələbatının 4-dən 3 hissəsini təşkil edir.

Sovetlər Birliyinin dağıldığı ilk illərdə iqtisadi–təsərrüfat əlaqələrinin zəifləməsi səbəbindən başqa ittifaq respublikalarında olduğu kimi bizim ölkəmizdə də ÜDM kəskin şəkildə azalmış, kənd təsərrüfatı, demək olar ki, iflic vəziyyətinə düşümüşdür. Buna görə də, 1995-ci ildə əhalinin ərzaq məhsullarına olan tələbatının ət məhsulları üzrə 30%-ni, süd məhsulları üzrə 34%-ni, kartof məhsulları üzrə 33%-ni, taxıl məhsulları üzrə isə 51%-ni ödəmək mümkün olmuşdu. Bu vəziyyət aqrar sektorda islahatların başlanmasına qədər davam etdi. İslahatlardan sonra 1995-ci illə müqayisədə kartof istehsalı 3 dəfəyə qədər, taxıl istehsalı 1.7 dəfə, süd və ətin istehsalı isə 1.3 dəfəyə qədər artmışdır.Lakin ötən əsrin 90-cı illərindən başlanan böhran Azərbaycanda XXI əsrə kimi davam etmişdir. XXI əsrdən etibarən kənd təsərrüfatı canlanma fazasına daxil olmuşdur.

Hazırda ölkə əhalisinin artan təlabatının ödənilməsi fonunda əlaqəli sahələrin-məhsulların saxlanması, emalı, daşınması üzrə fəaliyyət göstərən müəssisələrin sayı da artmaqdadır. Mövcud vəziyyəti müqayisə etsək, aydın olur ki,2017-ci ildə kənd təsərrüafatının ÜDM-də payı 2000-ci illə müqayisədə azalaraq 5.6 %-ə düşmüşdür. (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi) Lakin müstəqilliyin ilk illəri ilə müqayisədə kənd təsərrüfatı məsullarının istehsalı artmışdır.

İndiki dövrdə intensiv heyvandarlıqda əmələ gəlmiş əsas problemlərdən biri yem bazasının zəif təşkil olunmasıdır. Bilindiyi kimi xaricdən idxal olunan yem hesabına heyvandarlığın inkişafı sahə rentabelliyinə mənfi təsir göstərməkdədir. Digər bir aspektdən baxıldıqda isə beynəlxalq səviyyədə yemə tələbatın artması, ölkəmizdə bu sahənin inkişaf etdirilməsini zərurətə çevirir.

Ölkə iqtisadiyyatına tövhə vermək baxımından həlli vacib problemlərdən biri də kənd təsərrüfatının ixrac səviyyəsinin artırılmasıdır. Təqdirə layiq haldır ki, 2018-ci ilin yanvar-iyul aylarında, əvvəlki ilin eyni dövrü ilə müqayisədə, önəmli məhsul növlərindən sayılan təzə meyvənin ixracında 48 faiz artım müşahidə olunmuşdur. Eləcə də, kartof ixracı 15,5 faiz, bitki yağlarının ixracı 23,5 faiz, təbii üzüm şərabları və üzüm suslosunun ixracı 2 dəfə, meyvə və tərəvəz konservlərinin ixracı 23,5 faiz, polietilen ixracı 10,9 faiz, emal olunmamış alüminiumun ixracı 18,3 faiz, pambıq lifinin ixracı 66,8 faiz, qara metallardan boru ixracı 10,1 faiz, pambıq ipliyinin ixracı 23,2 faiz artmışdır. Buna baxmayaraq yeni tərəvəz ixracında 1,5 faiz, şəkər ixracında 44,8 faiz, meyvə və tərəvəz şirələrinin ixracında 15,2 faiz, tütün ixracında 20,1 faiz, çay ixracında 17,6 faiz, marqarin, qida üçün yararlı digər qarışıqların ixracınzda 7,8 faiz, qara metallardan yarımfabrikatların ixracında 70,9 faiz, bentonit gilinin ixracında isə 3,2 faiz azalma əmələ gəlmişdir. (Dövlət Statistika Komitəsi)

İdxal göstəricilərinin dinamikası göstərir ki, 2017-ci ilin yanvar-iyul ayları ilə müqayisə 2018-ci ilin yanvar-iyul aylarında buğda idxalında 17,2 faiz, bitki yağlarının idxalında 41,7 faiz, təzə meyvə idxalında 47,5 faiz, çay idxalında 6,3 faiz, quş əti və ondan hazırlanmış əlavələrin idxalında 3,7 faiz, qara metallardan boru idxalında 2 dəfə, minik avtomobillərinin idxalında2,7 dəfə, qara metallardan çubuqların idxalında 27,3 faiz, mineral gübrələrin idxalında77,0 faiz, mebellərin idxalında 32,1 faiz, hesablama maşınları, blok və qurğuların idxalında 4,1 faiz, rezin şinlərin idxalında 2,0 faiz, polietilen idxalında 60,0 faiz, məişət kondisionerlərinin idxalında 20,2 faiz, yük avtomobillərinin idxalında 2,2 dəfə, paltaryuyan maşınların idxalında 29,2 faiz, sement və sement klinkerlərin idxalında 59,4 faiz, məişət soyuducularının idxalında 2,3 dəfə artım, siqaret idxalında 3,7 faiz, xam şəkər və şəkərin idxalında 45,2 faiz, kərə yağı, digər süd yağları və pastaların idxalında 20,7 faiz, kartof idxalında 23,2 faiz, mal əti idxalında 21,0 faiz, təzə tərəvəz idxalında 46,3 faiz, polad prokatın idxalında 2,2 faiz, qara metallardan künclüklərin idxalında 7,3 faiz, avtobusların idxalında isə 37,8 faiz azalma baş verib. (Azərbaycan Dövlət Statistika Komitəsi)

Real sektorun əsas sahələrindən olan kənd təsərrüfatı, bildiyimiz kimi,dünyada, o cümlədən ölkəmizdə ən qədim sahələrdən biri kimi kimi xarakterizə olunur. Elə bir ölkə tapmaq çətindir ki, ona yaxın ərazilərdə kənd təsərrüfatı ilə sıx bağlı olan meşə, su və ya hər hansı digər əlaqəli sahə mövcud olmasın. Aparılan mütəxəssis hesablamaları ilə müəyyən edilmişdir ki, dünya üzrə əhalinin təxminən yarısından çoxu kənd təsərrüfatı sahəsi ilə məşğuldur. Odur ki, kənd təsərrüfat sahələrinin inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə inkişaf etməkdə olan bir çox ölkələrdə dövlət tərəfindən subsidiyalaşdırılan gübrələrdən geniş istifadə olunur. Habelə, kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsində və ərzaq təhlükəsizliyinin gücləndirilməsində kiçik fermerlərin rolunu artırmaq üçün stimullaşdırıcı qiymətlər də tətbiq edilir. Bununla belə, son nəticələrin təhlili göstərir ki, dövlət proqramlarının genişlənməsi səbəbindən özəl sektorda gübrə satışları əhəmiyyətli dərəcədə azala bilər ki, bu da xüsusi sektorda sahibkarlıq fəaliyyətinə marağı zəiflədə bilər. Odur ki, hökumət proqramlarının uzunmüddətli perspektivdə kommersiya tələbatının artırılmasına gətirib çıxara biləcəyi ehtimalını istisna etməsək də, özəl sektorun hələ fəal olmadığı sahələrin bu tendensiyanın təsirinə daha həssas olmalarını diqqətdən qaçırmaq olmaz.

Kapital axını, bir qayda olaraq kənd təsərrüfatından digər fəaliyyət növlərinə keçidlə müşayiət olunur. Çünki iqtisadiyyatın genişləndiyi bir şəraitdə kənd təsərrüfatı sektoru emal sənayesi və xidmət sahələrindən daha yavaş sürətlə böyüyür. Bu səbəbdən də iqtisadi artımın yüksək olduğu sahələrdə məşğulluğun azalan payı kənd təsərrüfatına keçid edir. Təsərrüfatı gəlirli sahəyə çevirmək (qeyri-kənd təsərrüfatı sahəsi olsa belə) regionlara, ölkələrə və bütövlükdə dünyaya aid bir məqsəddir. Bu, dünya iqtisadiyyatına və insanların həyatına müsbət təsir edən ən etibarlı əlaqələrdən biridir. Əmək məhsuldarlığı və digər amillərin rolu artdıqca dörd əsas amil fermerlərin öz fəaliyyətlərini qeyri-kənd təsərrüfatı sahələrinə yönəltməyə təsir göstərir.

**Birinci amil**, əmək məhsuldarlığının artırılması hesabına gəlirlərin çoxalmasıdır. Gəlirlərin davamlı şəkildə çoxalması ərzaq məhsullarına olan tələbatın tədricən azalmasına, eyni templə də qeyri-ərzaq mallarına tələbatın

artmasına yön verir. İstehlakın strukturunda baş verən bu dəyişmə tendensiyası ilk növbədə gəlir elastikliyi səbəbindən baş verir. Gəlirlərin artması ilə ərzağa tələb elastikliyi vahiddən kiçik olur (< 1,0). Yəni, gəlirlərin artması ilə ərzaq mallarına tələb üzrə elastiklik göstəricisi azalma istiqamətində meyl edir. Gəlirlərin elastikliyi göstəricisinin azalması ilə hər faiz üçün gəlirlər getdikcə daha aşağı nisbətlərdə qida məhsullarına sərf olunur. Kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı məhsullarına münasibətdə müşahidə olunan bu dəyişiklikiqtisadi artım göstəricisi böyüdükcə əmək və digər resursları daha çox qeyri-kənd təsərrüfatı məqsədlərinə yönəldir.

İstehlak edilən ərzağın miqdarı nisbətən az dəyişdiyi hallarda da,onun qiyməti dəyişir. Bu meyl tələbin qiymət elastikliyi formasında transformasiyanı şərtdləndirən **ikinci amil** kimi diqqəti cəlb edir. Gəlirlilik səviyyəsi yüksək olduqda qida məhsulları üzrə mütləq ifadədə bu göstərici aşağı (<1), daha yüksək gəlir səviyyəsində isə daha az ola bilər. Bu o deməkdir ki, kənd təsərrüfatının məhsuldarlığının yüksəlməsi şəraitində fermer qiymətləri daha yüksək faizlə azala bilər.

Transformasiyanı müəyyənləşdirən **üçüncü amil** ixtisaslaşmadır.İxtisaslaşmış məhsul nəinki daxili tələbatı ödəmək üçün, eləcə də digər ölkələrin ehtiyaclarını təmin etmək üçün istehsal olunur. Ölkə və ya regionlarda konkret məhsul istehsalı üçün daha yaxşı şəraitin olması həmin ölkənin və ya regionun üstünlük göstəricisi hesab olunur. Hətta iqtisadiyyatdakı fəaliyyət sahələrinin inteqrasiya səviyyəsi eyni qalsa belə, insanlar iqtisadi artım hesabına əldə etdikləri kapital və bazar imkanlarını iqtisadi cəhətdən əlverişliməhsulların istehsalına və öz qabiliyyət və bacarıqlarını daha yaxşı realizə edə bildikləri fəaliyyət sahələrinin genişləndirilməsinə yönəldirlər. Belə olan halda, istehlak ehtiyaclarını qarşılamaq üçün lazım olan digər məhsullar digər istehsalçıların hesabına ticarət yolu ilə əldə edilir.

Transformasiyaya səbəb ola biləcək **dördüncü amil** torpaq təklifinin sabit olması ilə bağlıdır. Bu, torpaq sahələrinin məhdud olmasından irəli gəlir (kapitalın digər formaları genişləndirilə bilir). Odur ki, illərlə qənaət edilmiş, toplanmış

yığım vəsaitləri hesabınainsanların torpaq resurslarını artırmaq imkanları da məhdud olur. Buna görə də təsərrüfatlar, insanlar öz əmanətlərini qeyri-kənd təsərrüfatı müəssisələrinə (sahələrinə) qoymağa üstünlük verirlər. Məsələn, gözəgəlimli binaları, çəpərləri, mal-qarası və avadanlıqları olan fermerlər, əlavə maliyyə resurslarını (əmanətlərini) başqa bir şeyə, məsələn, pərakəndə ticarətə, xidmət sektoruna investisiya etməyə meyllənir.

Gəlirlərin artması, nəticə etibarı ilə kənd təsərrüfatında istehsal və məşğulluq payının azalmasına gətirib çıxarır. Bunun səbəbi artan gəlirlər hesabına əkinçiliyə, heyvandarlığa yeni texnika və texnologiyaların tətbiq olunmasıdır. Lakin istehsal və məşğulluq payının azalması bir sektor kimi kənd təsərrüfatının yerinin, rolunun azalması anlamına gəlmir. Həqiqətən, ölkələr zənginləşdikcə, kənd təsərrüfatı istehsalı, kənd təsərrüfatı mallarına yönələn istehlak xərcləri böyüməkdə, məhsuldarlıq göstəricisi isə artmaqda davam edir. Ən müasir texnologiyaların tətbiq olunması fonunda bu dəyişmə diqqəti daha çox cəlb edir. Bununla belə, kənd təsərrüfatı sektorunda qeyri-kənd təsərrüfatı təyinatlı məhsul istehsalı da genişlənə bilər. Kənd təsərrüfatı məhsuldarlığı və gəlirləri artdıqca, burada sərbəstləşmiş əmək və əmək ehtiyyatları digər müəssisələrin işinə cəlb oluna, təyinatı dəyişdirilə bilər.Bu işlərin bəziləri elə təsərrüfatların öz daxilində, digərləri isə eyni kənd ərazilərində yerləşir. Kənd ərazilərində kiçik istehsalat yerləri, kənd təsərrüfatı məhsullarının emal sexləri, nəqliyyatvə xidmət sahələri yaratmaq, yaxud da bu istiqamətdəki fəaliyyət genişləndimək mümkündür. Çünki sərbəstləşmiş işçi qüvvəsi şəhərlərə köç edirlər və formal və qeyri-rəsmi sektorlarda iş tapmağa çalışırlar.

Əksər ölkələrdə təsərrüfatların istifadəsində olan torpaq sahələri, uzun zaman keçsə də, təxminən sabit qalır. Ona görə də kənd təsərrüfatı işçilərinin sayında baş verən hər hansı dəyişiklik işçi gəlirlərinin birbaşa dəyişməsi ilə müşayiət olunur. İqtisadi inkişafın hər bir təsərrüfatda çalışan insanların sayına gözlənilməz şəkildə təsir edəcəyini düşünmək də olardı. Lakin müxtəlif ölkələrdə zaman keçdikcə hər bir ferma işçilərinin sayı ilə ailə işçilərinin sayı arasında elə də ciddi fərqin olmaması gerçəkliyi var ortada. Ailə təsərrüfatı kənd təsərrüfatı sektorunda

üstünlük təşkil edir və buna görə də iqtisadiyyatın böyüməsi ilə azalmağa meyl edən təsərrüfat işçilərinin sayı ailənin ölçüsündən asılı olaraq dəyişir. Əgər kasıb ölkələrin fermalarında 5-8 nəfər işçisi çalışırsa, zəngin ölkələrin fermalarında işçi sayı 1-2 nəfər ola bilər. İşçilərin sayında müşahidə olunan bu dəyişiklik, tendensiyaya mütənasib olaraq ailə üzvlərinin sayının azalması ilə izah olunur. (https://osmanemin.wordpress.com)

Bunu da nəzərə almaq lazımdır ki, bütün gəlir səviyyələrində bir çox ailə üzvləri yalnız bir "part-time" təsərrüfatda işləyirlər və təsərrüfatdan kənar işə cəlb olunmurlar. Amma muzdlu işçilər başqa sektorlara nəzərən kənd təsərrüfatında daha az işləyirlər. Bir çox səbəblərə görə ailə təsərrüfat formalarının payı, digər sahələrdən fərqli olaraq, kənd təsərrüfatında üstünlük təşkil edir, Bunun əsas səbəblərindən biri də bir çox sahə əməliyyatlarının,monitor arxası işlərin, nəzarət prosesinin çətin olmasıdır. Buna görə də onlar, sadə dillə desək, özlərinin idarə etdiyi işlərdə daha yaxşı fəaliyyət göstərə bilirlər.

Tarixən əhali artımı dünyada istehsal artımının əsas mənbəyi olmuşdur. Hələ qədim zamanlardan insanlar ibtidai alətlərlə işləyirdilər. Odur ki, daha çox insana daha çox məhsul istehsal etmək, daha çox məhsul istehsal etmək üçün daha çox əmək sərf etmək lazım gəlirdi. Maraqlıdır ki, kənd rayonlarında əkin sahələri və otlaqlar əsasən işçi qüvvəsi hesabına genişlənib. Bu genişlənməyə baxmayaraq adambaşına düşən istehsalın həcmi, təxminən, dəyişməz qalıb (dəyişmə baş versə də, çox azdır). Torpaq və onunla bağlı olan alətlər, su, meşə ehtiyyatları, faydalı qazıntılar və digər təbii ehtiyatlar iqtisadi inkişafda mühüm rol oynayır. Hazırda ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları istehsal etmək, bu sahədə gəlirliliyi təmin etmək qarşıda duran əsas vəzifədir. Bu vəzifənin həyata keçirilməsində, başqa sözlə, aqrar sektorda irəliləyişin təmin olunmasında mövcud resurslardan istifadə etməklə məhsul istehsalçılarına kömək göstərilməsi çox mühümdür. Bu məqsədlə kənd təsərrüfatının inkişafına stimul verə biləcək aşağıdakı addımların atılmasını məqsədəuyğun sayırıq:

-resurslarla əlaqədar araşdırma aparılması, paydaşlar (ortaqlar) və fermerlər üçün məlumatların işlənib hazırlanması, məlumat bazasının yaradılması;

-məhsul istehsalı, məhsul satışı, məhsul marketinqi və sairə tərəflər arasında daimi əlaqəni təmin etməyin mümkün imkanları araşdırılmalı və formal təşkilati strukturun yaradılması;

-kənd təsərrüfatı məhsulları üzrə məhsuldarlıq göstəricisinin ilkin qiymətləndirilməsi üçün proqnozların hazırlanması, yeni texnologiyaların tətbiq edilməsi və ötürülməsi istiqamətində konkret təkliflərin təqdim olunması;

-zərərvericilərin idarə edilməsi, sertifikatlaşdırma, torpaqlardan xüsusi qaydada istifadə edilməsi, maliyyə yardımı göstərilməsi və s. ( Alıyev İ.H. 2003)

Kənd təsərrüfatının inkişafı resursların planlaşdırılmasından, torpaqların çirkləndirilməsinin qarşısının alınmasından da asılıdır. Bu zaman kənd təsərrüfatının məqsədləri üçün istifadə olunan ən yeni texnologiyaların qiymətləndirilməsi nəzərdən qaçırılmamalıdır. Resurs planlaşdırması mərkəzi və yerli proqramlar səviyyəsində olmalıdır.Torpaqlardan istifadə məqsədləri üçün texniki yardım da həlli vacib məsələlərdən sayılır. Kənd təsərrüfatı təyinatlı torpaqlar üzrə aşağıdakı həlli vacib məsələlərə xüsusi diqqət yetirilməlidir:

-kənd təsərrüfatı təyinatlı torpaqlar hesabına ehtiyat torpaq sahələrinin ayrılması və mühafizəsi;

-kənd təsərrüfatı icmaları ilə kənd ərazisindəki sakinlər arasındakı mübahisələrin azaldılması;

-qruntlaşma əleyhinə təsirli tədbirlərin görülməsi;

-təbii ehtiyyatların, o cümlədən otlaqaların, biçənəklərin qorunması, yem mövsümündə əsasən yem bitkilərindən istifadə edilməsi.

Jörgenson (1965) və Huffmanın (1977) əsərlərində göstərilir ki, kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı sektorları arasında əlaqələrin iki sektor modeli kənd təsərrüfatında texniki dəyişikliklərin iqtisadi inkişafa necə kömək edə biləcəyi barədə faydalı məlumat verə bilər. Bu alimlər öz əsərlərində, həmçinin işçi qüvvəsi və ya miqrasiyanın mobilliyi haqqında faydalı məlumatlar da vermişlər. Alimlərin fikrincə, yoxsul ölkələrdə ticarət maneələri çox vaxt daimi xarakter daşıyır və belə ölkələr xaricdən külli miqdarda ərzaq almaq üçün kifayət qədər xarici valyutaya malik deyillər. Qapalı iqtisadiyyat modelləri bir çox inkişaf

etməkdə olan ölkələrin qarşılaşdığı bu ciddi problemə daha çox həssasdır. Növbəti model isə müxtəlif iqtisadi əlaqələrdə, kənd təsərrüfatıvə qeyri-kənd təsərrüfatı sektorları üzrə nisbi qiymətlərdə, gəlirlərdə və əhalidə baş verən dəyişmələri, habelə bütün iqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında texnoloji dəyişmələrin necə ötürülməsini təsvir etməyə imkan verir.

İnkişaf strategiyası baxımından informasiya və təbliğat xidmətlərinə yönələn investisiyalar və ya qeyri-hökumət təşkilatlarının fəaliyyətinin genişləndirilməsinə istiqamətlənən yardımlar kənd təsərrüfatında məhsuldarlığın yüksəlməsinə və fermerlərin gəlirlərinin artımına təsir edən vacib potensial vasitə hesab olunur. Maraqlı statistikadır ki, bilik və bacarıqları ilə dünyada tanınan mütəxəssis kadrların 90%-dən çoxu inkişaf etməkdə olan ölkələrin payına düşür. İnvestisiyadan genişlənmə gəlirlərinin çox yüksək olması, habelə dövlət resurslarından səmərəsiz istifadədən tutmuş əhəmiyyətsiz nailiyyətlərə qədər çoxsaylı təhlillər haqqında iqtisadi ədəbiyyatlarda çoxsaylı məlumatlar da var. Bütün bu fikirlərə baxmayaraq genişlənmə istiqamətində maliyyə vəsaitlərinin xərclənməsinin müsbət nəticələrini istisna eləmək mümkün deyil. Burada genişlənmə məqsədi ilə göstərilən xidmətlərin formatının, eləcə də genişlənmə xidmətindən faydalanan alıcılarının iş metodu və iş şəraitinin də son nəticəyə təsir etməsi nəzərə alınmalıdır.

Kənd təsərrüfatının inkişafı, həm də müxtəlif kənd təsərrüfatı resurslarının köməyi ilə məhsul istehsalçılarına kömək göstərmək deməkdir. İstehsalçılara kömək müxtəlif istiqamətlərdə: mühafizənin təşkil və təmin olunması, elmi-tədqiqat işlərinin aparılması, texnika və texnologiyaların son yeniliklərinin tətbiq edilməsi, zərərvericilərə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi istiqamətlərində də ola bilər. İnkişaf etmiş ölkələrdə rəqəmsal texnologiyalardan və analitiklərin təhlillərindən istifadə etmək daha səmərəli, daha effektli sayılır. Kənd təsərrüfatında rəqəmsal çevrilmənin rolunu kataliz edən beş qlobal trend vardır:

-Əhali sayının çoxalması və ərzağa tələbatın artması. BM FAO təşkilatının hesablamalarına görə dünya əhalisi 2050-ci ilə qədər 10 milyard nəfərə qədər artacaq. Bu tendensiya meyvə və tərəvəzə tələbatınartması fonunda əhalinin

qidalanması üçün tələb olunan ərzaq istehsalının hazırkı dövrlə müqayisədə 2050-ci ilə qədər 70 faiz artırılmasına ehtiyac yaranacaq; (https://az.wikipedia.org)

-Kənd təsərrüfatında gəlirlərin azalması. Qlobal miqyasda kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatın artım tempi azalma meylinə malikdir. FAO-nun hesablamalarına görə, ötən 40 il ərzində bu tələbatın orta illik artım tempi 2,2 faiz olduğu halda, növbəti 40 il ərzində bu göstəricinin 1,1 faizə enəcəyi proqnozlaşdırılır. O cümlədən, inkişaf etməkdə olan ölkələr üzrə bu göstəricilər, müvafiq olaraq, 3,6 faiz və 1,3 faiz səviyyəsində qiymətləndirilir. Yaxud da, ABŞ Kənd Təsərrüfatı Departamenti son 12 ildə ilk dəfədir ki, kənd təsərrüfatından gözlənilən mənfəətin həcmini 2018-ci il üçün 6,7 faiz azalma ilə, 59,5 milyard dollar məbləğində proqnozlaşdıb. Bu göstərici 2006-cı ildən sonra ən aşağı göstərici hesab olunur;

-Rəqəmsal yerli istehlakçılar.Minillikdə rəqəmsal marketinqin genişləndiyi bir şəraitdə istehlakçı zövqlərinin zənginləşməsi və istehlakçı davranışlarının intensivləşməsi hesabına müştərilərin üzvi məhsullara olan tələbatı artır,pərakəndə satış zəncirləri genişlənir və "sıfır ağartma öhdəlikləri" sürətlənir;

-Qida, zərər və tullantılar. BMT-nin FAO təşkilatının məlumatına görə, hər il dünya üzrə istehsal edilən bütün qida məhsullarının üçdə biri, təxminən 1,3 milyard ton güdaza gedən məhsul israfı tullantıya çevrilir və bu hesaba 795 milyon insan ac qalır. Bundan əlavə, inkişaf etməkdə olan ölkələr soyuq zəncir infrastrukturunun olmaması səbəbindən meyvə, tərəvəz, ət və sair kimi məhsulları uzaq məsafələrdən nəql etmək məcburiyyətində qalırlar.

**Şəkil 1. Kənd təsərrüfatının dəyər zənciri, o cümlədən bir il ərzində milyardlarla satışın ümumi satışı**




**Mənbə**: https://ourworldindata.org/

İstehlakçıları kənd təsərrüfatı məhsulları ilə təchiz edən zəncirdə (bax: şəkil 1) “əkinçilik” və “texnoloji inkişaf” mərhələsi inqilabi dəyişiklik yoluyla qlobal ərzaq tələbatının artımını təmin etmək baxımından həssas mərhələ hesab olunur. Dördüncü kənd təsərrüfatı inqilabını qlobal səviyyədə formalaşdıran dörd əsas texnoloji tendensiya müşahidə olunmaqdadır:

-Kənd təsərrüfatı robotları (Farm Robotics). Bu istiqamət robotların iş icra funksiyalarının təkmilləşdirilməsinə və onların istehsalının genişləndirilməsinə yol açır. Bu zaman robotların kənd təsərrüfatı dəyər zəncirindəki işlərindən tutmuş ət, süd emalına qədər bütün funksiyaları icra edə bilmə imkanları araşdırılır. Con Dir ötən il “Blue River”(Mavi Çay)texnologiyasını əldə etmək üçün 305 milyon dollar xərcləyərək ilkin xərclərini azaltmaq hesabına məhsuldarlığın artımına nail olmuşdur. Con Dirin satın aldığı bu robotlar arzuolunmayan bitkiləri (misal üçün, alaq otları) müəyyənləşdirməyə və həssaslığı yüksək olan herbisidləri çiləməyə qadir idi.Mütəxəssislərin apardığı ilkin hesablamalara görə yaxın gələcəkdə meyvə yığımını həyata keçirən robotların xidmətinə tələbat daha da artacaq. Başqa bir ilkin hesablamalara görə robotlar 2016-cı ilə nəzərən 2024-cü ildə beş dəfə çox fermanı gəzməli olacaq. (www.postscapes.com)

-Uzaqdan görmə. Dəniz sahələrindəki sensorlardan dronlara uydu görüntülərinə qədər uzaqdan zənginləşdirmə üsullarından olan çox sayda fermerlər əkinçiləri bir çox perspektivlərdən keçirmək imkanına malikdirlər. Hesablama və sensor texnologiyasında irəliləyişlə fermerlər indi yüksək səviyyəli, sahə səviyyəsində detallı geniş ərazilərə çıxış əldə edə bilərlər. Bütün bunlar fermerlərə real vaxtda müasir məlumatları təqdim edir, buna görə də onların məhsullarında dəyişikliklər edilə bilər.

-Blockchain (zəncirblok). 2018-ci ilin əvvəlindən dünyanın ən böyük əmtəə ticarətçilərindən olan “Louis Dreyfus Company (LDC)” şirkəti“ING, Societe Generale” və“ABN Amro” şirkətləri ilə birləşərək “Blockchain” platforması üzərindən kənd təsərrüfatı məhsullarının satışı üzrə ilk böyük ticarət sövdələşməsini tam və uğurlu şəkildə başa vurdular. Bu ticarət sövdələşməsi ABŞ-dan Çinə soya göndərilməsini nəzərdə tuturdu. İlk dəfə olaraq kənd

təsərrüfatı malları sektorunda ticarətin reallaşmasını nəzərdə tutan sənədlər tam şəkildə rəqəmsallaşmış, məlumatları avtomatik şəkildə müqayisə etmək imkanları yaranmış və ikili məsələlərdən, əl yoxlamalarından imtina etmək mümkün olmuşdur. Platforma mühasibat-sənədləşmə prosesindəki sui-istifadə hallarını əhəmiyyətli dərəcədə azaltmaqla pulun dövriyyəsini də xeyli dərəcədə qısaltmağa imkan vermişdir.

İqtisadi fəaliyyətin əhəmiyyətli sahələrindən biri olan kənd təsərrüfat su və torpaq kimi təbii sərvətlərdən istifadə etməklə həm də bitki və heyvan mənşəli liflərin, yanacaq növlərinin istehsalını nəzərdə tutur. Bununla belə, kənd təsərrüfatı istehsalının əhatə dairəsi meşə təsərrüfatı, balıqçılıq və ovçuluq sahələri ilə bu və ya digər dərəcədə əlqədə olması hesabına daha genişdir. İnsan sivilizasiyasının inkişafındakı və ölkə iqtisadiyyatının böyüməsindəki roluna baxmayaraq, kənd təsərrüfatının həm də bu sektorda iştirak edən insanlara, bütövlükdə isə ətraf mühitə mənfi təsirini istisna etmək mümkün deyil. Ətraf mühitə göstərdiyi əks təsirlər aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- Kənd Təsərrüfatı ərazisində meşələrin qırılmasına gətirib çıxardır. Bir çox meşə sahələri bitkiçilik məqsədləri üçün kəsilərək sıradan çıxarılır;
- Əkin sahələrini suvarmaq məqsədi ilə çaylardan suyun tarlalara axıdılması quru təbii mühitlərin yaranmasına səbəb olmaqla qrunt sularının səviyyəsinin də artmasına gətirib çıxarır;
- Sahələrdə həddindən artıq istifadə edilmiş qida və insektisidləri canına höpdurmuş suların yenidən çaylara və digər su anabarlarına axıdılması suyun zəhərlənmə riskini artırır;
-Kənd təsərrüfatında istifadə olunan kimyəvi maddələrin torpağa hopması, yeraltı suların çirklənməsi və sairə kənd təsərrüfatı fəaliyyətinin ətraf mühitdə yaratdığı digər mənfi təsirlərdir və sairə. (Quliyev E, 2012).

Bu və digər istiqamətlər üzrə kənd təsərrüfatında istehsal prosesi torpaq və su ehtiyatlarına, meşə zolağına, heyvanat aləminə mənfi təsir etməklə ətraf mühitdə bir çox problemlərə yol açır. Kənd təsərrüfatında çalışanların müxtəlif kimyəvi təsirli gübrələrlə və pestisidlərlə təmasda olması insan sağlamlığı üçün

ciddi problemlər də yarada bilir. Kimyəvi maddələrlə davamlı təmas müxtəlif dəri xəstəlikləri, ağciyər infeksiyası və digər bu kimi ciddi xəstəliklərə yol açmaqla sağlamlıq risklərinə səbəb olur. İstehsal fəaliyyətinin ətraf mühitdə yaratdığı mənfi təsirlərin nəticələrini aradan qaldırmaq üçün davamlı və daha geniş şəkildə tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır.

Azərbaycanda aqrar sektorda islahatlar 1990-cı illərdə başlamış olsa da, əslində, bu gün də davam etməkdədir. Çünki islahatlar başlayarkən qarşıya qoyulan məqsədə tam nail olunmamışdır, inkişafda qeyri-bərabərlik hələ də qalmaqdadır, kənd təsərrüfatının müəyyən sahələrində dayanma halları əmələ gəlib.(Quliyev E., 2015) Əsrlər boyu formalaşmış əmək vərdişlərinin olmasına baxmayaraq tütün, ipək qurdu, qoz-fındıq və sair kimi sahələrin inkişafdan qalması itirilmiş imkan kimi qiymətləndirilməlidir. Halbuki, torpaq və iqlim şəraiti, mövcud əmək ehtiyatları bu sahələrin canlandırılması baxımından əlverişlidir. Sovet İttifaqının dağılmasından sonra ölkənin aqrar sektorunda müəyyən irəliləyişlər qeydə alınsa da, qeyri-ərzaq məhsullarının istehsalına elə də ciddi diqqət yetirilməyib. İnvestisiyalar əsasən ərzaq təhlükəsizliyini təmin edən infrastruktur sahələrinə yönəldilib.

BMT-nin FAO təşkilatı son 22 il ərzində Azərbaycan Hökuməti ilə səmərəli əməkdaşlıq quraraq və ona texniki yardım göstərərək, Azərbaycanda kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, kənd ərazilərinin inkişafı, o cümlədən heyvandarlıq, meşəçilik və balıqçılıq kimi sahələrdə milli inkişaf prioritetlərinin yerinə yetirilməsinə töhfə verib. Bu məqsədlə, FAO kənd təsərrüfatında məhsuldarlığın artırılmasına yönələn, aqrar islahatlara töhfə verən və ölkənin ərzaq təhlükəsizliyi ilə əlaqəli olan çağırışlara müsbət həllərin tapılmasına xidmət edən bir çox layihələr və təcili dəstək tədbirləri həyata keçirmişdir. Bundan əlavə, FAO Azərbaycan Hökumətinin balıqçılıq və akvakultura, kiçik fermerlərin yüksək-keyfiyyətli toxum materialları ilə təchiz edilməsi, südçülük sektorunda heyvanların verimliliyinin artırılması və suvarılan ərazilərdə resursqoruyucu kənd təsərrüfatı üsullarının tətbiq edilməsi ilə bağlı müraciətləri əsasında ünvanlı fəaliyyətlər həyata keçirib. Bununla yanaşı, FAO-nun yardım göstərdiyi transsərhəd heyvan

xəstəliklərinə nəzarət və çəyirtkələrlə mübarizə potensialının gücləndirilməsi fəaliyyətləri fövqəladə hallara hazırlıq və onlara müvafiq cavab verilməsi tədbirlərinə aid edilə bilər. FAO-nun Azərbaycanla tərəfdaşlıq fəaliyyəti ictimai təşkilatlarda qadınların rolu, biznes-inkubatorların, habelə kənd yerlərində heyvan sağlamlığı və sığınacaqların qorunması istiqamətlərində təşkil olunan işlərə qadınların cəlb olunması kimi mövzulara da prioritet verib. Azərbaycan 20 oktyabr 1995-ci ildən BMT-nin FAO təşkilatını üzvüdür.FAO Azərbaycanda milli, regional və qlobal layihələr həyata keçirir. Ümumiyyətlə, hər il FAO çərçivəsində Azərbaycanda iki və ya üç yeni layihə həyata keçirilir. Azərbaycanda FAO-nun layihələri Azərbaycan Hökumətinin prioritet ehtiyaclarına dair müraciətləri əsasında Texniki Əməkdaşlıq Proqramlarına əsaslanır. Azərbaycan hökuməti və FAO kənd təsərrüfatının inkişafı sahəsində Azərbaycana mümkün texniki yardım proqramlarının hazırlanması prosesinə 2009-cu ildən başlayıb. Bu məqsədlə, FAO-nun milli orta müddətli prioritetlərinə dair Azərbaycan üçün Çərçivə Sənədi hazırlanmış və bu sənəd Azərbaycanın prioritetlərinə uyğun şəkildə mütəmadi olaraq yeniləşdirilir.FAO ilə Azərbaycan arasında qarşılıqlı əlaqələri gücləndirmək üçün 2002-ci ilin dekabr ayında Azərbaycanda FAO-nun milli əlaqələndiricisi vəzifəsi təsis olunmuş, lakin FAO-nun Bakı ofisinin yaradılmasından sonra bu vəzifə ləğv edilmişdir. Azərbaycan FAO-nun üzvü olduğu tarixdən Təşkilatın Azərbaycandakı fəaliyyəti Macarıstanın paytaxtı Budapeşt şəhərində yerləşən FAO-nun Avropa Regional Ofisi tərəfindən idarə olunur. Təşkilatın qeyri-mərkəzləşdirmə prosesi çərçivəsində 2007-ci ilin avqust ayında Azərbaycanda FAO-nun ölkə nümayəndəliyi açıldı. FAO-nun ölkə ofisinin fəaliyyəti kənd təsərrüfatı və kənd ərazilərinin inkişafı sahələrində Azərbaycan Hökumətinin və xalqının ehtiyaclarını qarşılamağa xidmət edir. (http://www.fao.org)

## 1.2. Kənd təsərrüfatının dayanıqlı inkişafında dövlət tənzimlənməsinin rolu

Aqrar sahənin ixrac potensialının artırılması yoluyla üstün dinamik inkişafa nail olunması Azərbaycan kənd təsərrüfatının qarşısında duran əsas vəzifələrdən biridir. Ölkəmiz dünya ölkələri sırasında yalnız xam neft, təbii qaz, neft məhsullarıilə deyil, həm də qeyri-neft məhsullarının istehsalçısı və ixracatçısı kimi tanınmalıdır. Dövlət Statistika Komitəsininrəsmi məlumatlarına görə ölkəmiz 2018-ci ilin 10 ayı ərzində 178 ölkə ilə ticarət əməliyyatları həyata keçirmişdir. Qeyd olunan dövrdə 104 ölkəyə məhsul göndərilmiş, 171 ölkədən isə məsul gətirilmişdir. İlk baxışdan ixrac əməliyyatları həyata keçirdiyimiz ölkələrin sayının idxal əməliyyatları həyata keçirdiyimiz ölkələrin sayından az olması diqqəti çəkir. Deməli, iqtisadi əlaqədə olduğumuz daha 67 (171-104=67) potensial ölkəyə mal ixrac etmək imkanı var. Bu potensial imkanların, ən azı bir hissəsini kənd təsərrüfatı mallarının ixrac potensialının artırılması hesabına gerçəyə çevirmək mümkündür. Bunun üçün kənd təsərrüfatında mövcud olan problemlərin həlli çox vacibdir. Bitkiçilikdə məhsuldarlıq səviyyəsinin artırılması, ən müasir becərmə texnologiyalarının və aqrotexniki qaydaların tətbiqi, çoxillik bitkilərin və məhv edilmiş bağların bərpası, əkin sahələrinin genişləndirilməsi məqsədləri üçün dağ və dağətəyi torpaqların dövriyyəyə cəlb olunması, məhsul istehsalı ilə emal arasında mövcud zəif əlaqənin gücləndirilməsi, emal sənayesinə investisiya axınınınsürətləndirilməsi, təsərrüfatların yüksək reproduksiyalı toxum ehtiyyatları ilə təmin edilməsi, aqrokimyəvi tədbirlərin standartlar səviyyəsində həyat keçirilməsi,kənd təsərrüfatı məhsullarının keyfiyyətli şəkildə saxlanmasını təmin etməli olan anbarların müvafiq avadanlıqlarla və digər mexanikləşdirmə vasitələri ilə təchiz olunması və sairə kimi problemlər öz həllini tapmalıdır. Heyvandarlıqda həll olunmalı problemləri isə aşağıdakı kimi qruplaşdırmaq olar: süni mayalanma maddələrindən istifadə səviyyəsinin aşağı olması, avadanlıqla, toxumla, maye azotla, xüsusi nəqliyyat vasitələri ilə təchizatın zəif olması, yemləmə səviyyəsinin, yem rasionunun standartlara cavab verməməsi, quşçuluq təsərrüfatlarının və fermer təsərrüfatlarının fəaliyyətinin təkmilləşdirilməsinə yönəlik vahid tədbirlərin

kifayət etməməsi, heyvandarlıq məhsullarının istehsalına, emalına, tədarükünə və ixracına baytarlıq nəzarətinin qaydasında olmaması,  cins sortların yetişdirilməsi və ya cəlb olunması istiqamətindəki fəaliyyətin yetərli olmaması və sairə. (Qasımov Ə, 2007)

Bu problemlərin həllində dövlət tənzimlənməsinin rolu və əhəmiyyəti çox böyükdür. Humanitar problemlərin həlli və bazar institutlarının inkişaf etdirilməsi iqtisadiyyatın, o cümlədən kənd təsərrüfatının tənzimlənməsinin ən vacib hədəflərindən biridir.

Bazar iqtisadiyyatı şəraitində dövlət tənzimlənməsi məsələsi müasir iqtisadiyyatın ən mübahisəli mövzularından biridir və milli strateji prioritet kimi kənd təsərrüfatının inkişaf etdirilməsi məsələsinə münasibətdə vahid bir yanaşmanın olmaması bu mübahisələri daha da stimullaşdırır. Lakin bazar reallığı şəraitində  özəl biznesin iqtisadiyyatda azad müəssisə sistemi kimi fəaliyyət göstərərək əldə etdiyi uğurların üzərindən sükutla keçmək olmaz. Hazırda ölkəmizdə istehsal olunan kənd təsərrüfatı məhsullarının 90%-i, o cümlədən heyvandarlıqda 89%-i, bitkiçilikdə isə 92%-i  fərdi sahibkarlar, ailə, kəndli və ev təsərrüfatları tərəfindən istehsal olunur. Faktiki olaraq istehsalın əsas kütləsi özəl sektorun hesabınadır. Lakin iqtisadiyyatın digər sahələri ilə müqayisədə kənd təsərrüfatında gəlirlərin nisbətən az olması və yalnız bu gəlirlər hesabına torpağın münbitliyinin əlverişli səviyyədə saxlanılması və ya artırılması, istehsalın həcminin artan tələbat səviyyəsinə uzlaşdırılması, kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi  kimi iri problemlərin həlli çox çətindir və bu problemləri özəl sektorun təkbaşına həll edə biləcəyini düşünmək doğru olmazdı. Dünya praktikası da göstərir ki, kənd təsərrüfatının ayaqda saxlanmasında dövlət tənzimləməsinin xüsusi rolu vardır. Odur ki, özəl sektorun dəstəklənməsi yönündə hər çür fəaliyyət stimullaşdırılmalıdır. Ümumi inkişafa tövhə verə biləcək layihələrin hazırlanması, qiymətləndirilməsi istiqamətindəki fəaliyyətə xüsusi diqqət edilməlidir. Dünya Bankı tərəfindən maliyyələşdirilən layihələr, bu baxımdan inkişaf strategiyasının bir hissəsi kimi nəzərdən keçirilməlidir. Əslində, inkişaf layihələri müəyyən zaman kəsiklərində işçi qrupları tərəfindən adekvat

dəyişikliklərə uğrayaraq mövcud vəziyyətin daha da yaxşılaşdırılmasını hədəfləyir. Məhz bu səbəbdən dövlətin maliyyə vəsaitlərinin, xüsusi fondların konkret inkişaf layihələrinin maliyyələşdirilməsinə səfərbər olunması çox əhəmiyyətlidir. Müasir dövrün inkişaf layihələrinin mərkəzində insan amili dayanır və dayanmalıdır.

Kənd təsərrüfatının inkişaf etdirilməsinə hədəflənən layihələr, əsasənhökumət, inkişaf agentlikləri, yaxud da özəl şirkətlər tərəfindən maliyyələşdirilir. Layihələrin məzmunundan, istiqamətindən asılı olaraq maliyyələşmədə ilkin yardımlar, subsidiyalar, 'maliyyə güzəşt dövrləri' kimi razılaşmalara tez-tez təsadüf olunur. Bu tip kənd təsərrüfatı layihələrinin məqsədi resurs və texnologiyaların istifadəsində optimal kordinasiyanı təmin etmək və bu hesaba iqtisadi artıma və yeni iş yerlərinin yaradılmasına nail olmaqdır.

Kənd təsərrüfatı siyasətində “müdaxilə etmək”bir çox ölkələrin aqrar sektorunda çox vacib bir hadisə kimi qiymətləndirilir. Çox vaxt “müdaxilə” bazarın daxilində həyata keçirilir ki, burada da məqsəd iqtisadi şərtləri yaxşılaşdırmaq və ya şəraiti sabitləşdirməkdir. Lakin “Müdaxilə etmək” özlüyündə obyektiv zərurət şəklində deyil, cəmiyyətdə ümumi məqsədlərə nail olunması baxımından bir vasitə kimi tətbiq edilir. Müxtəlif müdaxilə alətlərini tətbiq etməmişdən əvvəl həmin alətlərin, o cümlədən dəstək və qiymət siyasətinin ümumi kənd təsərrüfatı siyasətinin məqsədləri ilə uzlaşdırılması çox vacibdir. Çünki kənd təsərrüfatı siyasətində məqsədlər və alətlər arasında sıx əlaqə vardır. Ölkələrin çoxu üçün oxşar olan bu məqsədlər, əksər hallarda, kənd təsərrüfatı siyasətində tətbiq olunmalı alətlərin əsaslarını izah və müəyyən edir. Ümumiyyətlə, inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı siyasətində qarşıya qoyulan məqsədlərin ümumi xüsusiyyətləri çox oxşardır. Kənd təsərrüfatında dövlət siyasəti, əsasən aşağıdakı məqsədləri hədəfləyir:

-kənd təsərrüfatının rentabelli olması;

-fermerlər arasında gəlirlərin paylanması;

-kənd təsərrüfatında məhsuldarlığın artması;

-emal və marketinqin bütün zənciri üzər səmərəliliyin təmin olunması;

-təchizat və qiymətdə sabitlik;

-kəndin inkişafı və demoqrafik vəziyyətin yaxşılaşması;
-ətraf mühiti hər cür zərərli fəaliyyətin təsirlərindən maksimum dərəcədə qorumaq;
-ixrac, məşğulluq, istehsal, əlavə dəyər kimi göstəricilərdə müsbət dinamikaya nail olmaq və sairə. (Nuriyev Ə,2011 s. 228)

Qarşıya qoyulan məqsədlərə hədəflənmək üçün müxtəlif növ alətlərdən istifadə edilə bilər. Məqsədləri təmin edən alətlərin və ya alətlər qrupunun düzgün seçilməsi mürəkkəb olsa da, çox vacib məsələdir. Bəzi alətlər bir neçə fərqli məqsədlərə nail olmaq üçün istifadə oluna bilər, yaxud da, alətlər qrupu konkret bir məqsədin reallaşmasını təmin etmək üçün seçilə bilər. Hər hansı bir alət məqsədlərdən birini təmin edirsə, digərinə mane ola bilər. Odur ki, alətlərin məqsədə uyğun şəkildə düzgün seçilməsinə xüsusi diqqət yetirilməlidir. Maliyyə alətlərindən istifadə edərkən onun istehsal və ticarət sferasına təsirini, ölü çəki itkilərini, şəffaflıq və sair kimi məsələlər diqqət mərkəzində saxlanılmalıdır.

Mahiyyət etibarı ilə müxtəlif resursların köməyi ilə məhsul istehsalçılarına kömək göstərməyin özü də kənd təsərrüfatının inkişafına bu və ya digər dərəcədə təsir eləmək anlamına gəlir. Kənd təsərrüfatını mühafizə etmək (qoruma), yaxud datədqiqat işlərinə köməklik göstərilməsi, son texnika və texnologiya tətbiq edilməsinə yardım etmək, zərərvericiləri idarə etmək və müxtəlifliyə nail olma istiqamətlərində təklif olunan hər bir tövsiyyə və məsləhət kənd təsərrüfatına təsiretmə vasitəsi kimi nəzərdə tutula bilər. Yaxud da, heyvandarlığın inkişafında böyük yemlik əhəmiyyəti olduğuna görə yay və qış otlaqlarının düzgün idarə olunması otlaqların tərkibinin qiymətli yem bitkiləri ilə zənginləşməsinə səbəb olur. Qeyd edək ki, hazırda otlaq sahələri sistemsiz otarılır və yaxşılaşdırma işlərinə zəif fikir verilir, otlaqlarda həddindən artıq mal-qara və qoyun sürüləri saxlanılır. Belə münasibət isə otlaqların tapdanmasına, yamaclarda eroziya proseslərininsürətdlənməsinə səbəb olur. Buna görə də otlaqların bitki qruplaşmaları getdicə dəyişir və qiymətli yem bitkiləri əvəzinə yemlik əhəmiyyəti az olan bitkilər inkişaf etməyə başlayır. Odur ki, səthi yaxşılaşdırma tədbirləri sırasında gübrələmə, torpaq səthinin malalanması, zəhərli, zərərli bitkilərlə mübarizə, otlaq sahələrinin daşlardan təmizlənməsi, sahənin hamarlanması və ot

örtüyü səthinə qiymətli ot toxumlarının səpilməsi kimi tədbirlərin həyata keçirilməsini stimullaşdıran addımlar heyvandarlığın və deməli, kənd təsərrüfatının inkişafına müsbət təsir göstərir.

Müsbət dəyişikliyə nail olmaq üçün fermerlərin Birləşmiş Ştatların Kənd Təsərrüfatı bölməsinin təklif etdiyi Ətraf Mühitin Təkmilləşdirilməsi Proqramlarından (EQIP) faydalanmağa, istifadə etməyə yönləndirilməsi də stimullaşdırıcı tədbir kimi diqqəti cəlb edir.

Dünya hər an dəyişir və ani zaman içərisində böyük dəyişmələr baş verir. Odur ki, kənd təsərrüfatı istehsalçıları, treyderlər, istehlakçılar və bütün maraqlı tərəflər bu dəyişiklikləri nəzərə almalı, yeni şoklar və meyllər qarşısında duruş gətirməyə, möhkəmlənməyə və inkişaf etməyə hazır olmalıdır. Yuxarıda adı keçən subyektlərin yeni iqtisadi şəraitə hazır olmaları sahəsində əsas məsuliyyət beynəlxalq və yerli inkişaf agentliklərinin və dövlətin üzərinə düşür.

Perspektivdə kənd ərazilərinin genişləndirilməsi məsələsinə gənc nəslin artmaqda olan ümumi ehtiyaclarının qarşılanması kontekstindən yanaşılmalıdır. Odur ki, gənclərin ümumi, həm də perspektiv ehtiyaclarını əhatə edən xüsusi proqramların hazırlanmasıçox vacibdir. Kənd ərazilərinin genişlənməsi məsələsinə təcrid olunmuş vəziyyətdə deyil, ümumi inkişaf prizmasından baxılmalıdır. Bunun üçün əhatəli məlumat bazasına malik olmaq gərəkdir. Perspektiv inkişaf proqram və layihələri kənd ərazilərinin, kənd ictimaiyyətinin, kənd təsərrüfatının ümumi inkişaf tendensiyalarını özündə düzün əks etdirməlidir.

Zaman etibarı ilə evalyusiyaya məruz qalan cəmiyyətlərdə, şəhər və kəndlərdə ictimai normalar, dəyərlər, üst qurumlar, istehsal üsulları, xalqın davranışları, resursların yayılma imkan və yolları da bu və ya digər dərəcədə dəyişikliyə uğrayır. Kəndlərdə yaşayan insanlar, onların adət-ənənələri və təcrübələri statik vəziyyətdə qalmayaraq yeni və fərqli formalara çevrilir. Dünyada bu cür dəyişmələri, yenilənmələri izah etməyə çalışan müxtəlif nəzəriyyələr (evolyusiya kimi mədəni uyğunlaşma nəzəriyyəsi və ya toqquşan maraqların həlli nəzəriyyəsi və sairə) və bu məsələlərin müxtəlif cür izahını verən bir çox

nümunələr mövcuddur.İnkişaf prosesinə dair aşağıdakı izahlar, təriflər diqqət çəkir:

- İnkişaf müasir istehsal üsulları və təkmilləşdirilmiş ictimai təşəbbüslər vasitəsi ilə gəlirlərin artmasını və yaşayış səviyyəsinin yüksəldilməsini, habelə sosial sistemə yeni ideyaların tətbiq edilməsini nəzərdə tutur;

- İnkişaf dedikdə, ənənəvi və ya pre-modern cəmiyyətlərin qərb dünyasının inkişaf etmiş millətlərinin yiyələndiyi yüksək texnika və texnologiyalara sahib olmaq vəsosiallaşmaq başa düşülür;

- İnkişaf insanlarıın özləri üçün arzuladıqları həyatı qura biməlrinə imkan verən çoxaspektli bir prosesdir. Bu mənada, inkişaf etmək insanın azadlığına qovuşması səadəti kimi də dəyərləndirilə bilər.

İnkişaf etmək irəli çıxmaq, potensial təşəbbüsləriin gerçəkləşdirilməsi ilə başlanır. Tarix göstərir ki, inkişaf etmək istəyən ölkələrin həmişə uyğun konkret yanaşmaları olub. İnkişaf prosesində üç əsas element vacibdir:

1) İqtisadi. Hər bir cəmiyyətin yaşayış üçün lazım olan mal və materialları istehsal edən iqtisadi və ya məhsuldar bazası olmalıdır;

2) Sosial.Hər bir cəmiyyətin qeyri-məhsuldar ehtiyaclarını ödəyənsosial şəraiti və bir sıra xidmətləri (sağlamlıq, təhsil, rifah və sair) olmalıdır;

3) İnsan. Hər kəs özünü həm fərdi, həm də ictimai varlıq kimi inkişaf etdirməli, öz potensialını, bacarıq və istedadını istifadə etməklə yaşadığı cəmiyyətin formalaşdırılmasında konstruktiv rol oynamalıdır.

Yuxarıda sadalanan hər üç element bir-biri ilə sıx və ayrılmaz şəkildə mövcuddur. Odur ki, tənzimləmə həyata keçirərkən hər üç element vəhdət şəklində diqqət mərkəzində tutulmalıdır. Bunlardan hər-hansı birini istisna etmək yolverilməzdir. İqtisadi əsaslar vacib, sosial həyat daha vacib, insan amili isə zəruridir. Biri nəzərə alınmazsa, digərində, yaxud da hər ikisində geriləmələrin baş verməsi mütləqdir. Dövlətin tənzimləmə siyasətini işləyib hazırlayarkən, tənzimləmənin konkret metod və alətlərini seçərkən bu yanaşmaya təlimat səviyyəsində əməl edilməlidir.

Bu ümumi yanaşma kənd təsərrüfatına münasibətdə də mütləq nəzərə alınmalıdır. Kənd əraziərinin genişləndirilməsi, fermer təsərrüfatlarının inkişaf etdirilməsi, fermer və ya kəndli ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılmasını əhatə edən bu üç məsələ bir-biri ilə əlaqəli şəkildə öyrənilməlidir. Ümumi inkişaf konsepsiyası kənd təsərrüfatına spesifik yanaşmanı nəzərə almağı da vacib edir. Bilmək lazımdır ki, region kəndlərində əksəriyyətin yaşayışının əsasını kənd təsərrüfatı təşkil edir və kənd yaşayış ərazilərinin zaman amilindən asılı olaraq genişləndiyi bir şəraitdə təsərrüfatların dövriyyəyə əlavə torpaq sahələri cəlb etmək istəklərini təmin etmək, demək olar ki, hər zaman mümkün olmur.

Müasir dövrdə resursların kənd təsərrüfatı inkişafına yönəldilməsi üçün çox ciddi səbəblər mövcuddur. Dünya əhalisinin yarıdan çoxu Asiya, Afrika və Latın Amerikası ölkələrində, əsasən də kənd yerlərində yaşayır. Bu ölkələrin müasir texnologiyalardan istifadə səviyyəsi aşağı olduğuna görə burada yaşayan əhalinin dolanışığının təmin olunmasında kənd təsərrüfatının rolu böyükdür. Dünya əhalisinin artması fonunda ərzaq məhsullarına böyüməkdə olan ehtiyacları hazırkı məhsuldarlıq səviyyəsi ilə qarşılamaq imkansızdır. Odur ki, xüsusən də zəif inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatının intensiv əsaslar üzərinə gətirilməsinə, məhsuldarlıq səviyyəsinin artırılmasına nail olmaq həlli vacib problem kimi gündəmdədir. Bu aktuallıq resursların, əsasən də yeni texnika və texnologiyaların kənd təsərrüfatına cəmləşdirilməsini zərurətə çevirir.

Yuxarıda verilən izahatlardan məlum olur ki, kəndlərə yönəlik inkişaf proqramlarının həll etməyə çalışdığı problemlər yalnız kənd təsərrüfatına deyil, bu cür proqramlar, həm də kənd yerlərində olan digər sosial və institusional problemləri həll etməlidir. Geniş mənada, kənd inkişaf proqramlarının hədəflədiyi problemləri iki yerə bölmək olar:

-Fiziki problemlər. Bu problemlər hər-hansı bir kənd sahəsinin fiziki mühiti ilə əlaqədar olur. Məsələn, suyun olmaması, yoxsul infrastruktur, səhiyyə müəssisələrinin çatışmazlığı, torpaq eroziyası və sairə bu tip problemlərdəndir. Diqqət etsək görərik ki, kənd inkişaf proqramının hədəfə aldığı problemlərin həll olunması bu və ya digər dərəcədə kənd təsərrüfatının inkişafına müsbət təsir

göstərir. Odur ki, kənd inkişaf proqramları problemlərin təbiətini və dərəcəsini öyrənə, konkret fəaliyyət istiqamətləri təklif edə bilər;

-Fiziki olmayan problemlər. Fermerlərin qarşılaşdıqları bütün problemlər fiziki olmur. Bir sıra hallarda bəzi problemlər fermerlərin yaşadığı bölgənin sosial və siyasi şərtləri ilə daha çox əlaqəlidir. Məsələn, torpaqdan istifadənin məhdudlaşdırılması, dövlət xidmətlərindən və ya daha böyükfermerdən (və ya fermerlərdən) asılılıq və sairə kimi məsələləri bu kateqoriyaya aid etmək olar. Bu və ya bu qəbildən olan problemlər gözlə görünməsə də, çox realdır və inkişaf yolunda hər zaman maneə rolu oynayır. Odur ki, kəndlərin inkişaf planları (proqramları) işlənib hazırlanarkən həm fermerlərin gündəlik qarşılaşdıqları, həm də qarşı tərəfdən üzləşdiyi problemlər öyrənilməli və nəzərə alınmalıdır. (Alıyev İ,2017 s.138)

Problemlərin fiziki və ya qeyri-fiziki olmasını müəyyənləşdirmək çox vacibdir ki, həll yollarını və vasitələrini müəyyən etmək mümkün olsun. Vaxta qənaət etmək üçün fermerlər arasında keçirilməli olan sorğu və müşahidələrdən də faydalanmaq olar. Fermerlər qarşılaşdıqları maneələri daha tez izah edə bilərlər. Problemin mahiyyəti və dərəcəsi dərk olunduqdan sonra müvafiq bir hərəkət planı hazırlamaq olar.

Fermerlərin üzləşdiyi problemlərin hamısı fiziki deyil və bu problemlərin asan həll olunacağını düşünmək də sadəlövhlük olardı. Kənd təsərrüfatındakı problemlərin əksəriyyəti kənd yerlərinin sosial-siyasi strukturu ilə izah olunur. Fermerlər və onların ailələri regiondakı digər fermerlərlə kompleks bir əlaqə şəbəkəsinə qoşulurlar. Qurulmuş bu şəbəkənin müəyyən üstünlüklərini istisna eləmək mümkün olmasa da, tez-tez əlavə problemlər yaratmasını da inkar eləmək mümkün deyil. İnkişaf etməkdə olan ölkələrdə, məsələn, fermerlərin pul borcunun yaranması və bu borcdan asılılıq fermerlərə qarşı təhdid yaradan problemdir. Nəticə etibarı ilə bu və bu cür digər problemlərin həll olunmaması təsərrüfatların resurs təminatını zəiflətməklə yanaşı, belə ressursların əldə olunması istiqamətində fermer çalışmalarının tempinin aşağı düşməsinə, dövlət və bank xidmətlərindən istifadə səviyyəsinin zəifləməsinə gətirib çıxarır. Bu da ümumi inkişafın tempinə

mənfi təsir göstərir. Odur ki, bu ciddi məsələ kənd inkişafı proqramlarının hədəfindən kənarda qalmamalıdır.

Kənd təsərrüfatı istehsalçılarının üzləşdiyi problemlərin kompleks məzmun kəsb etməsini vurğulamaqla yanaşı nəzərə almalıyıq ki, misal üçün, əkinçinin qarşılaşdığı çətinliklərin hamısı fiziki və ya maddi olmaya da bilər. Odur ki, kənd inkişaf proqramlarının seçəcəyi strategiyaların növləri də nəzərə alınmalıdır. Onu da bilmək lazımdır ki, əksər hallarda kənd yerlərinin inkişafı ilə bağlı, demək olar ki, heç bir strategiya yoxdur və "müxtəlif sahələrdə müxtəlif problemlər var" təfəkkürü" hakimdir. Geniş şəkildə tətbiq olunan üç kənd inkişaf strategiyası var:

1) Texnoloji strategiya. Bu strategiya kənd təsərrüfatının müxtəlif aspektlərinin texnoloji transformasiyasını nəzərdə tutur. Transformasiyaya nail olmaq üçün məlumat bazası və bacarıqlar əsas hesab olunur. Məsələn, daha yaxşı əkinçilik təcrübəsi və ya daha yaxşı su təchizatı nümunələri tətbiq edilir və bu praktikanın əhatə dairəsi genişləndirilir;

2) Reformist strategiya. Bu strategiya fermerin kənd təsərrüfatının inkişafında daha böyük rol oynamasına əsaslanır. Bu zaman fermer ona dəstək ola biləcək vasitələrlə təmin, təchiz edilir. Təsərrüfatın inkişafına kömək edən çeşidli proqramlarda və ya kəndin inkişafı proqramlarında rol almaqla fermerə dəstək ifadə olunur. Bu strategiyanın əhəmiyyəti birinci strategiyanın təsirindən də asılıdır;

3) Struktur. Bu strategiya çöl ərazilərində mövcud olan iqtisadi, sosial və siyasi əlaqələri transformasiya etməyi qarşıya məqsəd kimi qoyur. Bu zaman əlverişsiz mövqelərin yaxşılaşdırılması, qırılmış əlaqələrin müasir tələblər səviyyəsində bərpası və ya yeniləri ilə əvəzlənməsi nəzərdə tutulur. Bu strategiya daha çox aqrar islahat proqramları vasitəsilə həyata keçirilir.( https://azertag.az)

### 1.3. Kənd təsərrüfatının inkişafında innovasiyalı sahibkarlığın mövcud vəziyyəti

Ölkəmizdə sahibkarlığın inkişafına dövlət qayğısı günü-gündən artmaqdadır. Aqrar sektorda sahibkarlıq sektorunairi məbləğlərdə güzəştli kreditxətlərinin açılması bununla əlaqədardır. Ölkəmizdə Ümumi Daxili Məhsul (ÜDM) istehsalında özəl sahənin payı artmaqdadır. Son illərdə bu pay 80%-ə yüksəlib. Respublikada sahibkarlığın bütün növləri, xüsusən də kiçik və orta sahibkarlıqdiqqət mərkəzindədir. Ölkəmizdə  kiçik, orta və böyük istehsal güclərinə malik yeni emal və digər sənaye müəssisələri yaradılmış və bu proses bu gün də davam etməkdədir. Emal sənaye sahələrində istehsal güclərinin artırılması aqrar sektorun inkişafına verilən stimul kimi dəyərləndirilməlidir. Bununla belə, bu sahədə görülən tədbirlərin davam etdirilməsi və texnika və texnologiya ilə təminatın hazırkı  səviyyəsinin yüksəldilməsi həlli vacib məsəslə kimi çox aktualdır.

Kiçik ailə təsərrüfatlarının üstünlük təşkil etdiyi ənənəvi kənd təsərrüfatı sahələri burada istifadə olunan texnologiyaların aşağı səviyyədə olması ilə diqqəti cəlb edir. “Daha yaxşı bir şeylər” etmək haqqında fikirlərə üstünlük verən belə təsərrüfatların “daha yeni bir şeylər etmək” təsəvvürlərinə köklənməsi müasir dövrün tələbləri baxımından diqqətəlayiqdir. Oturuşmuş bu vəziyyət son on ildə iqtisadi liberallaşma, müasir dünyaya inteqrasiya və sairə amillərin təsiri ilə xeyli dəyişib. Bazar rəqabəti, istehlakçıların dəyişən zövqləri, ekoloji tənzimləmə zərurəti, məhsulun keyfiyyəti məsələsi, ərzaq təhlükəsizliyi kimi çağırışlar kənd təsərrüfatında sahibkarlığın inkişaf etməsinə, bir sıra yeniliklərin meydana gəlməsinə yol açdı.

Hazırda  kənd təsərrüfatı sahibkarlığı yeni bir sahə deyil, çünki bu istiqamətdə xeyli addımlar atılıb və təcrübələr qazanılıb, hətta yeni-yeni anlayışlar lüğətimizə daxil olub. İndi gündəlik dilimizdə "sahibkar" termini ilə yanaşı “öz-özünə işləyən”, “treyder” kimi anlayışlardan da istifadə olunur.  Sahibkarlıq anlayışları sahibkarlıq davranışı, qərar qəbul etmə bacarığı, sosial kapital (məsələn, şəbəkələr) kimi anlayışlarla assosasiya olunur.

Son on il ərzində sahibkarlığın əsas fərqli xüsusiyyəti biznesin tanınması, qiymətləndirilməsi və iş imkanlarının olması ilə xarakterizə olunur (Shane və Venkataraman). Burada təşəbbüskarlıq imkanları ilə normal imkanlar arasındakı fərqi dəyərləndirmək lazımdır. Ikincidən fərqli olaraq təşəbbüskarlıq imkanları mövcud məhsulların istehsalını və səmərəlilik göstəricisini, ən azı yeni vasitələrlə əhatə edir. Deyək ki, daha böyük süd kvotasının alınması və ya əlavə istixanaların alınaraq istifadəyə verilməsi real sahibkarlıq imkanları hesab edilmir.Real sahibkarlıq imkanlarına yiyələnmək üçün  əlavə təşəbbüslər edilməlidir. Müəyyən mübahisələrə yol açsa da,  bu təsir və yanaşma üsulu kənd təsərrüfatı sahibkarlığı üçün də cəlbedici və keçərlidir.  Kənd təsərrüfatı sahibkarlığının hazırkı inkişaf səviyyəsi yeni müəssisələrin yaradılması (məsələn, kənd təsərrüfatı müəssisələrinin əksəriyyəti artıq onilliklər ərzində mövcuddur) sahəsində tədqiqatları məhdudlaşdırmır.

Qərarlı olmaq və inkişaf strategiyası sahibkarlığın ürəyidir. Bəzi fermerlərin sahibkarlıq imkanlarından istifadə etməsi digərlərinin fəaliyyətsiz olması səbəbi ilə əlaqədar deyil. Bunun xüsusi bir sıra şəxsi keyfiyyətlər,  təcrübə çatışmazlığı ilə bağlılığı da ciddi məsələ deyil. Çox şeyin səbəbi təşəbbüskarlıqdır. Məhz təşəbbüskarlıq geniş və yorulmaz fəaliyyətin əsasını təşkil edir ki, burada da araşdırma, işgüzar mühit və fürsət kimi amillərin mövcud olması çox vacibdir. Müzakirələrdə yaranan klassik məsələlərdən biri də  kənd təsərrüfatı sahibkarlığının qeyri-dövlət şirkətlərindəki sahibkarlıqdan fərqli olub-olmaması məsələsidir.Bu məsələdə "bəli" və ya "”yox" cavabının verilməsi  tədqiqat sorğusundan və aparılan tədqiqat paradiqmasının növündən asılıdır. Sahibkarlığın bəzi elementlərinin nisbətən universal və kontekst kimi görünməsini diqqətə almaq vacibdir. Kənd təsərrüfatı sahibkarlığını öyrənmək üçün aşağıdakı xüsusiyyətlər nəzərə alınmalıdır:

- ümumi kənd təsərrüfatı sektoru üzrə. Tarixən əkinçilik iş şəraitinin sahibkarlıq davranışına ehtiyacı olmayıb.  Son 50 ildə bir çox qərb ölkəsində kənd təsərrüfatı məhsuldarlığın və səmərəliliyin artırılması sahəsində ixtisaslaşmış bir domen olmasına baxmayaraq bu sistem diversifikasiyanı və yenilikçi sahibkarlığı

stimullaşdıra bilmədi. Belə ki, qida və lif istehsal edən sənətkar olmaq istəyən fermerlər xüsusi təlimlər keçmədən bu arzularını gerçəkləşdirə bilməzdilər;

-Birbaşa təsərrüfat mühiti üzrə. Güclü fermer təsərrüfatları regionlarda yerləşir.Ailə fermaları digər müəssisələrlə birlikdə kənd yerlərinə yaxın sahələrdə (bazarı təmin edən), cəlbedici ərazilərdə fəaliyyət göstərirlər. Coğrafi ərazinin əlverişli olması sahibkarlıq imkanlarının reallaşdırılması baxımından mühüm amildir. Yeni işgüzar fəaliyyətlərin inkişaf etdirilməsi imkanları regionlarda daha böyükdür;

-Ailə firmaları üzrə. Kənd təsərrüfatında kiçik ailə təsərrüfatları hakimdir. Bu xüsusiyyət və ya ailə təsərrüfatlarının yiyələndiyi ümumi, xüsusən də işgüzar mədəniyyət səviyyəsi kənd təsərrüfatı sahibkarlığına təsir göstərir. Digər sahələrin sahibkarlarından fərqli olaraq, misal üçün, əkinçiliklə məşğul olan belə ailə təsərrüfatları böyümə və maksimum mənfəət kimi ideyalarla az idarə olunur;

-Gender amili. Kənd təsərrüfatı sahibkarlığında fermer qadınlar mühüm rol oynayır. Fermer qadınların çəkisi yeni təsərrüfat fəaliyyətinə başlayan və inkişaf etməkdə olantəsərrüfatların sıralarında daha yüksəkdir. Təsərrüfat qadınlarının ilkin təşəbbüskarlıq davranışları "uyğunlaşma” və “çox işləmə" əlamətləri ilə xarakterizə olunur. Fermer qadınlar, adətən, öz fəaliyyətlərini mövcud təsərrüfatın iş qayda və prinsiplərinə uyğunlaşdıraraq sahibkar təsərrüfatlarındakı vəzifələrini ailə vəzifələri ilə birləşdirməyi bacarırlar. Belə çevik və işgüzar bacarıqları olan qadınların sahibkarlıq sahəsində daha yaxşı nəticələr göstərə biləcəyi şübhə doğurmur. Yeni strategiya seçmək, habelə mövcud strategiyalara dəyişikliklər etmək sahəsində bu qadınların potensial imkanları düzgün qiymətləndirilməlidir. Bu cür dəyərlərin daşıyıcısı olan qadınlar gələcəklə bağlı riskləri gözə almağı da bacarırlar.

Yuxarıda göstərilən xüsusiyyətlərdən məlum olur ki, kənd təsərrüfatı sahibkarlığı "ümumi" sahibkarlığın bir çox xüsusiyyətlərini paylaşsa da, fərqli, özünəməxsus bir sıra cəhətləri ilə seçilir. Odur ki, kənd təsərrüfatı sahibkarlığına yönəlik inkişaf konsepsiyaları hazırlanarkən bu cəhətlərin nəzərə alınması çox əhəmiyyətlidir.

Kənd təsərrüfatında sahibkarlığın tədqiq olunması üçün bir neçə vasitə var. Aşağıda kənd təsərrüfatında sahibkarlığı tədqiq etməyin dörd istiqaməti təqdim edilir:

-Sahibkarlıqla məşğul olan orijinal orientasiya quruluşu. Sahibkarlıq davranışının üç əsas elementini, yəni yenilikçilik, risk alma və pro-aktivliyini, ilk növbədə firma səviyyəsində birləşdirir

-Təşəbbüskar üslub və rollar. Sahibkarlıqda tipoloji tədqiqatının elmi əsasları mübahisəli olsa da tipologiyalar qruplaşmağa kömək edir və eyni zamanda sahibkarlığın müxtəlifliyini göstərir. Bundan əlavə tipologiyalar və ya konfiqurasiyaları kənd təsərrüfatı tədqiqatında, məsələn, kənd təsərrüfatı üslubları konsepsiyasında güclü əsaslara malikdirlər (Van der Ploeg 1994). Biznes sahibləri xüsusi vəziyyətə, kontekstə və buna bağlı olaraq müxtəlif rollarda iştirak edə bilərlər.

-Kənd təsərrüfatı sahibkarlığına dəstək. Sahibkarlığa həsr olunmuş kənd təsərrüfatı sahibkarlığının inkişaf etdirilməsi sahəsində tədqiqat üçün dördüncü bir diqqət mərkəzidir. Ənənəvi olaraq, kənd təsərrüfatı sektorunda problemlərin həlli və yenilikləri ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının modernləşdirilməsi siyasətinə əsasən dövlət tərəfindən tez-tez maliyyələşdirilən və təmin edilən məsləhət xidmətləri ilə dəstəklənmişdir. Fermerlərə artıq plüralist müşavirlər sistemi təqdim olunur. Fermerlərin heterojen dəstəyi tələblərinə əsasən, daha ümumi biznes, idarəetmə və sahibkarlıq bacarıqlarının artırılmasına yönəldilmiş xidmətlərin göstərilməsi istiqamətində sadəcə bir istehsal-texniki diqqətdən keçid daxildir. Fermerlərə artıq plüralist müşavirlər sistemi təqdim olunur. Fermerlərin heterojen dəstəyi tələblərinə əsasən, daha ümumi biznes, idarəetmə və sahibkarlıq bacarıqlarının artırılmasına yönəldilmiş xidmətlərin göstərilməsi istiqamətində sadəcə bir istehsal-texniki diqqətdən keçid daxildir. Məsləhətçilər bəzi hallarda Sahibkarlığın (idarəetmə, strategiya, maliyyə) dəstəklənməsi baxımından texniki məsləhət və tövsiyələrin bir-birini tamamlayan dəstəyi təmin edən yetərli məsləhət şəbəkələrinin formalaşması müstəqil olaraq baş verir. Lakin, tez-tez fermerlər bu

plüralist məsləhət sistemində yollarını tapmaqda çətinlik çəkirlər və broker kimi çıxış edən bir təşkilat tərəfindən dəstəklənir.

Ətraf Mühit və İnkişaf üzrə BMT Komissiyasının hesabatına görə (1987), hazırda kənd təsərrüfatının üç əsas növü qeyd edilir. Bunlar aşağıdakı kimi təsnifləşdirilir: 1) Sənaye kənd təsərrüfatı; 2) Yaşıl İnqilab əkinçiliyi; 3) Zəif resurslu kənd təsərrüfatı. (http://anl.az)

Sənaye kənd təsərrüfatlarında əkinçilik vahidləri yüksək səviyyədə kapitallaşma səviyyəsi ilə xarakterizə olunur. Bu kapitallaşma, əsasən subsidiyalara əsaslanır. Kənd təsərrüfatının bu tipinə inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələrin ixtisaslaşmış anklavlarında rast gəlinir. Yaşıl İnqilab əkinçiliyinə inkişaf etməkdə olan ölkələrin suvarma suları, habelə yağış suları ilə yaxşı təmin olunmuş ərazilərində rast gəlinir. Yaşıl inqilab əkinçiliyi böyük və kiçik təsərrüfatları əhatə etməklə əlavə gəlirliliyi təmin edən yüksək məhsuldar sortlardan istifadə edir. Zəif resurslu kənd təsərrüfatı növünə, əsasən yağışlı, tez-tez dəyişkən, həssas və ya problemli torpaqlarda, çətin sahələrdə təsadüf olunur.

# II Fəsil KƏND TƏSƏRRÜFATININ İNKİŞAFININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Azərbaycanda kənd təsərrüfatında davamlı inkişafın müasir vəziyyətinin qiymətləndirilməsi

Ölkəmizdə aqrar sektor üzrə aparılan islahatlar son illərdə öz bəhrəsini verməkdədir.Bu, özünü ilk növbədə ixracın artmasında daha çox biruzə verməkdədir.Ölkə prezidentinin 2015-ci ili kənd təsərrüfatı ili elan etməsi dövlətin bu sahəyə olan diqqətinin bariz nümunəsidir. İqtisadi Mürəkkəblik İndeksi (ECI) üzrə Azərbaycan dünyanın 77-ci ən böyük ixrac iqtisadiyyatı və 84-cü ən mürəkkəb iqtisadiyyatıdır. 2017-ci ildə Azərbaycan 14,3 milyard dollar məbləğində mal ixrac və 8,1 milyard dollar məbləğimdə mal idxal edib. Qeyd edilən ildə ticarət balansında 6,17 milyard dollarlıq müsbət saldo əmələ gəlib. 2017-ci ildə Azərbaycanda ÜDM-in həcmi 40,1 milyard dollar, adambaşına düşən ÜDM-in məbləği isə 4,2 min dollar təşkil edib. Ölkəmiz əsas ixrac əməliyyatlarını İtaliya, Türkiyə, Kanada, Çexiya və Almaniya ölkələri ilə həyata keçirib. Ən çox mal idxal etdiyimiz ölkə isə Rusiyadır. Bu ölkədən 2017-ci ildə 1,4 milyard dollarlıq mal idxal etmişik. İdxalın həcmi Türkiyədən 1,18 milyard dollar, Çindən 789 milyon dollar, Almaniyadan 453 milyon dollar və Ukraynadan 409 milyon dollar təşkil edib.

İqtisadiyyatı şaxələndirmək üçün dövlət kənd təsərrüfatını dörd prioritet sektordan biri müəyyən edib. Kənd təsərrüfatı sektoru Azərbaycanda əmək qabiliyyətli əhalinin ən çox hissəsinin çalışdığı sahədir. Əmək qabiliyyətli əhalinin 37 faizi bu sahədə çalışır. Bu yüksək paya baxmayaraq, kənd təsərrüfatının ÜDM-dəki payı cəmi 5-6% nisbətindədir. Belə bir uyğunsuzluq ölkənin imkanlarına adekvat deyildir. Halbuki, əlverişli iqlim və torpaq şəraiti burada hər cür kənd təsərrüfatı məhsullarını istehsal etməyə və məhsuldarlığı artırmağa imkan verir.

Hazırda ölkədə müxtəlif məhsullar istehsal edilir. Kartof, kök, çuğundur, kələm, pomidor, xiyar, üzüm, zeytun, limon, qarğıdalı, qarpız, moruq, çiyələk, qarağat, soğan və göyərti, taxıl fəsiləsindən isə buğda, qarğıdalı, arpa, çay yarpağı

və qoz-fındıq kimi məhsullar ekoloji təmiz olmaqla yanaşı yüksək keyfiyyətlidirlər. Hökumət əkinçilik sektoruna müxtəlif tədbirlər çərçivəsində əlavə dəstək vermək istiqamətində müəyyən planlar hazırlayıb həyata keçirməkdədir. Müqayisə etmək baxımından əhəmiyyətlidir ki, ABŞ hökumətikənd təsərrüfatı istehsalçılarını idxalın mənfi təsirlərindən qorumaq üçün bir sıra vergi istisnaları, texnika, pestisid və gübrə subsidiyalarından geniş istifadə edir. Xüsusilə maşınlar üçün tətbiq olunan subsidiyalar hesabına bu ölkə kombaynların, traktorların, kombayn və suvarma avadanlıqlarının satışını artıra bilib.

Dövlət Statistika Komitəsindən verilən məlmatlara əsasən aqrar sektorda 2018-ci ildə 7 mlrd manatlıq ümumi məhsul istehsal olunub. Müqayisəli qiymətlərlə bu göstərici əvvəlki ilin göstəricisindən 4,6% çoxdur. Kənd təsərrüfatı məhsullarının 54%-i heyvandarlıqda, 46%-i bitkiçilikdə istehsal olunub. 2017-ci ilin yanvar-dekabr ayları ilə müqayisədə heyvandarlıq məhsullarının istehsalı 2,7 faiz, bitkiçilik məhsullarının istehsalı isə 6,8 faiz artmışdır.

**Cədvəl 1. 2009-2017-ci illər üzrə kənd təsərrüfatı bitkilərinin əkin sahələri**

| İllər | cəmi (min ha) | o cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | Dənli və dənli paxlalı bitkilər | Texniki bitkilər | Kartof, bostan və tərəvəz bitkiləri | Yemlik bitkilər |
| **2009** | 1705,4 | 1125,5 | 40,9 | 177,6 | 361,4 |
| **2010** | 1583,9 | 968,0 | 52,6 | 178,8 | 384,5 |
| **2011** | 1608,2 | 967,3 | 66,9 | 179,7 | 394,3 |
| **2012** | 1647,1 | 1031,4 | 48,5 | 174,5 | 392,7 |
| **2013** | 1684,2 | 1047,1 | 42,2 | 171,5 | 396,4 |
| **2014** | 1613,8 | 1001,4 | 43,8 | 165,7 | 402,9 |
| **2015** | 1585,4 | 952,1 | 38,7 | 166,0 | 428,6 |
| **2016** | 1628,3 | 997,5 | 73,6 | 163,1 | 394,1 |
| **2017** | 1665,7 | 977,2 | 180,9 | 151,5 | 356,1 |

**Mənbə**:Dövlət Statistika Komitəsi, (17.05.2017-ci il tarixli məlumatından götürülüb) http://ww.stat.gov.az/

Respublika Prezidentinin 11.02.2004 tarixli 24 saylı Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı dair Dövlət Proqramında (2004-2008)" qeyri-neft sektorunun inkişaf etdirilməsi, regionların tarazlı inkişafına nail olunması və regionların kommunal xidmətlərlə və sosial infrastrukturla təminat səviyyəsinin yüksəldilməsi, məşğulluq səviyyəsinin artırılması və həyat səviyyəsinin yaxşılaşdırılması qarşıya məqsəd kimi qoyulub. İcra olunmuş bu proqramın nəticələri üzrə dinamikanı qoruyub saxlamaq, 2004-cü ildən başlanmış işlərin tempinin aşağı düşməsinə imkan verməmək məqsədi ilə ölkə Prezidentinin 14.04.2009-cu il tarix 80 nömrəli Fərmanı ilə növbəti dövlət proqramı imzalanmışdır.

Cədvəl 1-də ölkədə 2009-2017-ci illər üzrə kənd təsərrüfatı bitkilərinin əkin sahələri haqqında məlumatlar əks olunmuşdur.

Cədvəldən göründüyü kimi, 2009-2017-ci illərdə ən çox əkin sahəsi 2009-cu ilə təsadüf edir. Belə ki, həmin il Azərbaycan üzrə demək olar ki istifadədən kənar əkin sahəsi qalmayıb.Fermerlərə dövlət tərəfindən subsidiyaların ayrılması, gübrənin, yanacağın, toxumun xüsusi güzəştli şərtlər ilə verilməsi səbəblərindən dövriyyəyə cəlb olunan əkin sahələri maksimum olmuşdur. Dövlət Statistika Komitəsinin açıqladığı məlumatlarından göründüyü kimi 2017-ci ildə 1665,7min hektar torpaq sahəsi əkin altına verilib. 2009-cu ildən sonrakı dövrdə əkin sahəsi 39,7 min hektar və ya 2,3%-dən çox azalıb. 01 yanvar 2017-ci il tarixli torpaq balansı məlumatları ilə müqayisələr göstərir ki, 2017-ci ildə dövriyyədə olmuş əkin sahəsi əkinə yararlı ümumi torpaq sahəsinin 92,9%-i qədərdir. Başqa sözlə, əkinə yararlı torpaq sahələrinin 7,1 faizi və ya 128,2 hektarı dincə qoyulan herik sahələr kimi saxlanmışdır.

- "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illlərdə sosial-iqtisadi inkişafı dair Dövlət Proqramı" təsdiq edilmişdir.

Bu proqramların uğurlu nəticəsi olaraq Azərbaycanda makroiqtisadi göstəricilərdə artım izlənilmişdir. Sosial-iqtisadi inkişaf üzrə tədbirlərin icrası ilə əhalinin həyat səviyyəsinin yaxşılaşmasında nəticələr əldə olunmuşdur. Regionların sosial-iqtisadi inkişafı üzrə qəbul edilmiş bu iki proqramdan irəli

gələrək  ölkənin bütün iqtisadi rayonlarında rayon və şəhərlərin sosial iqtisadi inkişafının yaxılaşdırılması yönündə əlavə olaraq 240 sərəncama imza atılmışdır. Proqramların nəticəsi olaraq 2004-2014-cü illərdə aqrar sektorun  ÜDM-də payı 11%-dən 5,3%-ə düşsə də, kənd təsərrüfatında yaradılan əlavə dəyərin faktiki qiymətlərlə məbləği  937 manatdan 3,1 milyard manata yüksəlmişdir.  2015-ci ildə 2999,0 min ton taxıl istehsal olunmuşdur. Bu göstərici 2014-cü ilin göstəricisindən 25,8 faiz çoxdur. Əvvəlki ilə nəzərən 2015-ci ildə  2,5 % çox kartof, 4,2% çox giləmeyvə və meyvə, 7,2 % çox tərəvəz , 22,1 % çox yaşıl çay yarpağı, 6,3 % çox üzüm,9,9 % çox bostan məhsulları əldə olunmuşdur.

2009-2013-cü illərdə  dənli və dənli-paxlalı bitkilərin əkin sahəsi 78,4 min hektar və ya 7% artsa da, 2013-2017-ci illərdə bu göstərici 69,9 min hektar və ya 6,7% azalaraq 977,2 min hektara düşmüşdür. Texniki bitkilərin əkin sahəsi müqayisə aparılan dövrdə 140 min hektar və ya 4,4 dəfədən çox artaraq 180,9 min hektara yüksəlib. Bu artım əsasən 2017-ci ildə baş verib. Əvvəlki illə müqayisədə 2017-ci ildə texniki bitkilərin əkin sahəsi 2,5 dəfə və ya 107,3 min hektar genişlənib. Bu genişlənmənin 35%-i əkin dövriyyəsinə cəlb olunan əlavə torpaq sahələrinin hesabınadırsa, 65%-i yemlik bitkilərin, dənli və dənli-paxlalı, kartof, bostan və tərəvəz bitkilərinin əkin sahələrinin ixtisar olunması hesabınadır. Belə məlum olur ki, dövlətin son zamanlar pambıqçılığın inkişafına xüsusi diqqət göstərməsi öz nəticəsini verməkdədir. Qeyd edək ki, 2009-2017-ci illərdə kartof, bostan və tərəvəz bitkilərinin əkin sahəsi 26,1 min hektar və ya 15%-ə yaxın azalmışdır. Yemlik bitkilərin əkin sahəsi isə 2009-2015-ci illərdə 19%-ə yaxın artaraq 428,6 min hektara qədər yüksəlmişdirsə, 2015-2017-ci illərdə 17% və ya 72,5 min hektar azalaraq 356,1 min hektara düşmüşdür. Bu sonuncu göstərici, hətta 2009-cu ilin göstəricisindən də azdır. Dövlət Statistiaka Komitəsinin rəsmi məlumatları əsasında tərtib olunmuş aşağıdakı cədvəl kənd təsərrüfatında əkin sahələrinin strukturunu əks elətdirir. Cədvəl 2. məlumatlarından göründüyü kimi, 2017-ci ildə ümumi əkin sahəsinin 58,6%-dədənli və dənli paxlalı bitkilər yetişdirilir.

**Cədvəl 2. Kənd təsərrüfatında əkin sahələrinin strukturu (%-lə)**

| İllər | Cəmi | o cümlədən: | | | |
|---|---|---|---|---|---|
| | | Dənli və dənli-paxlalı bitkilər | Texniki bitkilər | Kartof, bostan və tərəvəz bitkiləri | Yemlik bitkilər |
| **2009** | 100,0 | 66,1 | 2,4 | 10,4 | 21,2 |
| **2010** | 100,0 | 61,1 | 3,3 | 11,3 | 24,3 |
| **2011** | 100,0 | 60,1 | 4,2 | 11,2 | 24,5 |
| **2012** | 100,0 | 62,6 | 3,0 | 10,6 | 23,8 |
| **2013** | 100,0 | 63,8 | 2,5 | 10,2 | 23,5 |
| **2014** | 100,0 | 62,1 | 2,7 | 10,2 | 25,0 |
| **2015** | 100,0 | 60,2 | 2,4 | 10,5 | 27,0 |
| **2016** | 100,0 | 61,3 | 4,5 | 10,0 | 24,2 |
| **2017** | 100,0 | 58,7 | 10,8 | 9,1 | 21,4 |

**Mənbə**: Dövlət Statistika Komitəsi, (17.05.2019-cu il tarixli məlumatlarından götürülüb) http://stat.gov.az/

Əkin sahələrinin 9,1%-i kartof, bostan və tərəvəz bitkilərinin, 10,8%-i texniki bitkilərin, 21,4%-i isə yem bitkilərinin payına düşüb. Dinamika göstərir ki, 2009-2017-ci illərdə dənli və dənli-paxlalı bitkilərin payı 66%-dən 58,7%-ə, kartof, tərəvəz və bostan bitkilərinin payı 10,4%-dən 9,1%-ə düşüb. Yemlik bitkilərin əkin sahəsi 2015-ci ilin sonunadək 27%-ə qədər artsa da, sonrakı iki ildə bu pay 21,4%-ə qədər enib. Lakin, bu dövrdə, xüsusən də 2017-ci ildə texniki bitkilərin əkin sahələri əhəmiyyətli dərəcədə artıb. Əkinin ümumi strukturunda texniki bitkilərin payı təhlil olunan dövrdə 2,4%-dən 10,8%-ə yüksəlib. 2017-ci ildə texniki bitkilərin əkin sahəsi əvvəlki illə müqayisədə 107,3 min hektar və ya 2,5 dəfə çoxalıb.

Aşağıdakı cədvəl (Cədvəl-3) təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatı məhsullarının quruluşunu göstərir. Kənd təsərrüfatının faktiki qiymətlərlə ümumi məhsulu 2009-2018-ci illər ərzində 1,8 dəfədən çox artaraq 3,8 milyard manatdan 7,0 milyard manata yüksəlmişdir. Cədvəl məlumatlarından məlum olur ki, təhlil olunan dövrdə kənd təsərrüfatı müəssisələrinin istehsal etdiyi məhsulun dəyəri 2,9 dəfə artaraq 661 milyon manata, fərdi sahibkarlar, ailə, kəndli və ev

təsərrüfatlarının istehsal etdikləri məhsulun dəyəri isə 1,8 dəfə artaraq 6,3 milyard manata yüksəlmişdir.

**Cədvəl 3. Təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatı məhsullarının quruluşu**

| Təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatının ümumi məhsulu (mln manat) | | | |
|---|---|---|---|
| **İllər** | **Cəmi** | **o cümlədən:** | |
| | | **Kənd təsərrüfatı müəssisələri üzrə** | **Fərdisahibkarlar, ailə, kəndli və ev təsərrüfatları üzrə** |
| **2009** | 3805,5 | 227,9 | 3577,6 |
| **2010** | 3877,7 | 192,6 | 3685,1 |
| **2011** | 4525,2 | 236,0 | 4289,2 |
| **2012** | 4844,0 | 319,4 | 4525,2 |
| **2013** | 5244,0 | 363,9 | 4880,7 |
| **2014** | 5225,8 | 404,5 | 4821,3 |
| **2015** | 5635,3 | 410,1 | 5225,2 |
| **2016** | 5632,4 | 449,2 | 5183,2 |
| **2017** | 6580,0 | 645,4 | 5934,6 |
| **2018** | 7010,0 | 660,9 | 6349,1 |

**Mənbə**: Dövlət Statistika Komitəsi,(17.05.2019-cu il tarixli məlumatlardan götürülüb) www.stat.gov.az

Müşahidə olunan bu tendensiya manatla ifadədə belədir. Lakin 21 fevral və 21 dekabr 2015-ci il tarixlərində Mərkəzi Bankın qərarı ilə Azərbaycanda iki böyük devalvasiya baş verməsi səbəbindən manatın alıcılıq qabiliyyəti təxminən iki dəfə ucuzlaşmışdır. Əgər manatın alıcılıq qabiliyyətini də nəzərə alsaq, 2014-2018-ci illərdə kənd təsərrüfatının ümumi məhsulunun dəyərinin dollarla ifadədə 6,7 milyard dollardan 4,1 milyard dollara düşməsi, yəni 39% və ya 2,6 milyard dollar azalması üzə çıxır (2014-cü ildə: 1 dollar =0,78 manat; 2018-ci ildə 1 dollar = 1,7 manat).

Eyni qayda ilə hesablamaqla kənd təsərrüfatı müəssisələrinin istehsal etdiyi məhsulların dəyərinin 130 milyon manat və ya 25% azalması, fərdi sahibkarlar, ailə, kəndli və ev təsərrüfatlarında istehsal olunan məhsulun dəyərinin isə son 4 ildə 6,2 milyard dollardan 3,7 milyard dollara düşərək 2,5 milyard dollar və ya

40% azalması məlum olur. 2014-cü ildən sonra əmələ gələn bu vəziyyət kənd təsərrüfatı istehsalçılarının əldə etdikləri gəlirlərin alıcılıq qabiliyyətinin əhəmiyyətli dərəcədə azalması deməkdir. İstehsal ehtiyaclarını idxal hesabına qarşılayan fermerlər üçün bu vəziyyətin nə dərəcədə problem yaratmasını təsəvvür eləmək elə də çətin deyil. Kənd təsərrüfatı məhsullarının istehsalında 2014-cü ilədək müşahidə olunan dinamikanın sonrakı illərdə arzu olunmayan istiqamətdə dəyişməsi aqrar sektora daha ciddi münasibət göstərilməsini zəruri edir.

Aqrar sektorda ümumi məhsulun strukturuna diqqət eləsək, görərik ki, məhsulun bu gün də 90%-dən çoxu fərdi sahibkar, ailə, kəndli və ev təsərrüfatlarında istehsal olunur (bax: cədvəl-2-4). Kənd təsərrüfatı müəssisələrinin ümumi məhsulda payı 2010 və 2011-ci illərdə aşağı düşsə də, sonrakı illərdə bu pay 9,8%-ə dək yüksəlib.

**Cədvəl 4. Kənd təsərrüfatının ümumi məhsulunun strukturu faktiki qiymətlərlə (%-lə)**

**təsərrüfat kateqoriyaları üzrə**

| İllər | Cəmi | o cümlədən: | |
|---|---|---|---|
| | | Kənd təsərrüfatı müəssisələri | Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları |
| **2009** | 100,0 | 6,0 | 94,0 |
| **2010** | 100,0 | 5,0 | 95,0 |
| **2011** | 100,0 | 5,2 | 94,8 |
| **2012** | 100,0 | 6,6 | 93,4 |
| **2013** | 100,0 | 6,9 | 93,1 |
| **2014** | 100,0 | 7,7 | 92,3 |
| **2015** | 100,0 | 7,3 | 92,7 |
| **2016** | 100,0 | 8,0 | 92,0 |
| **2017** | 100,0 | 9,8 | 90,2 |

**Mənbə**:Dövlət Statistika Komitəsi,(17.05.2019-cu il tarixli məlumatlardan götürülüb) http:// www.stat.gov.az/

Aqrar sektorun ənənəvi sahələrindən olan çay və çəltiyin,sitrus meyvələrinin istehsalında dönüş yaradılması, əhalinin həmin məhsullara olan tələbatının ödənilməsi, kənd təsərrüfatının ixrac potensialının artırılması, kənd ərazilərində yaşayan əhalinin sosial-iqtisadi rifahının yaxşılaşması üçün ölkə Prezidentinin 12

aprel 2017-ci il tarixdə imzaladığı 3227 nömrəli "Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafıyla bağlı əlavə tədbirlər haqqında" Sərəncamı əsas tutan İqtisadiyyat və Kənd Təsərrüfatı Nazirlikləri tərəfindən "Azərbaycan Respublikası çəltik istehsalında inkişafa dair 2018-2025-ci illər Dövlət Proqramı", "Azərbaycan Respublikası çayçılıqda inkişafa dair 2018-2027-ci illər Dövlət Proqramı", "Azərbaycan Respublikası sitrus meyvəçiliyində inkişafa dair 2018-2025-ci illər Dövlət Proqramı" layihələri işlənib hazırlanmışdır. Bu proqramlar özlərində əkin sahələrinin artırılmasını, toxumçuluq sahələrinin inkişafını, məhsuldarlığın yüksəldilməsini, kənd yerlərində informasiya-məsləhət xidmətlərinin artırılmasını, kadr potensialının yüksəldilməsini və bu kimi digər kompleks tədbirlər planlarınıəks etdirir. Bu planların tütünçülük, ipəkçilik, pambıqçılıq və fındıqçılığın inkişafına müsbət təsir etməsi şübhəsizdir.

Pambıqçılıq tarixən ölkədə xüsusi əhəmiyyət kəsb edən sahə olub. Pambıqçılığın ölkə iqtisadiyyatındakı rolunu artırmaq üçün ölkə Prezidentinin 13.07.2017-ci il tarixli 3082 saylı sərəncamı ilə "Azərbaycan Respublikası pambıqçılıqda inkişafa dair 2017-2022-ci illər Dövlət Proqramı" qəbul edilmişdir. Ölkəmizdə pambıqçılıq sektoru üzrə ixtisaslaşmış şirkətlərə "MKT İK" MMC, "Goran Pambıq" ASC, "Şamo" MMC, "Kənd Təsərrüfatı" MMC,"CTS Aqro" MMC kimi iri şirkətlər daxildir.

5-ci cədvəldən də göründüyü kimi, pambıq əkin sahəsi 2009-2017-ci illərdə 21070 hektardan 136413 min hektaradək artıb. Genişlənmə 115343hektar və ya 6,5 dəfədir. Bu dəyişməbu sahədə keçirilən dövlət siyasətinin nəticəsi kimi qeyd etmək olar. Pambıq əkin sahələrinin 2017-ci ildə 88%-i Aran iqtisadi rayonunun, 4%-i Gəncə-Qazax iqtisadi rayonunun, qalan 8%-i isə digər iqtisadi rayonların payına düşüb. Aran iqtisadi rayonu üzrə pambıq əkin sahələri 2009-2017-ci illərdə 101125 hektar və ya 6,3 dəfə artıb. Pambıq əkin sahələri Gəncə-Qazax iqtisadi rayonu üzrə 4412 hektar və ya 7,9 dəfə, Lənkəran iqtisadi rayonu üzrə isə 400 hektar və ya 5 dəfə çoxalıb.

**Cədvəl 5. Ölkə üzrə pambıq əkin sahəsi, ha**

| İqtisadi rayonlar üzrə pambıq əkin sahələri, ha | | | | | | |
|---|---|---|---|---|---|---|
| İllər | Cəmi | o cümlədən: | | | | |
| | | Gəncə-Qazax iqtisadi rayonu | Lənkəran iqtisadi rayonu | Aran iqtisadi rayonu | Kəlbəcər Laçın iqtisadi rayonu | Dağlıq- Şirvan iqtisadi rayonu |
| **2009** | 21070 | 641 | 100 | 19056 | 20 | 6 |
| **2010** | 30175 | 889 | 64 | 27750 | - | - |
| **2011** | 42829 | 1352 | 510 | 38144 | - | 52 |
| **2012** | 29217 | 1380 | - | 26120 | - | 86 |
| **2013** | 23460 | 960 | 7 | 20997 | - | 15 |
| **2014** | 22918 | 622 | 20 | 21176 | - | - |
| **2015** | 18684 | 566 | 6 | 17515 | - | - |
| **2016** | 51369 | 2354 | 426 | 45521 | - | 1104 |
| **2017** | 136413 | 5053 | 500 | 120181 | - | 2501 |

**Mənbə**: Dövlət statistika komitəsi, (17.05.2019-cu il tarixli məlumatlardan götürülüb) http:www.stat.gov.az/

Respublikada tütünçülüyün inkişafı etdirilməsi də dövlətin diqqət mərkəzində olan məsələlərdəndir.Bu sektoru inkişaf etdirməkdə əsas məqsəd ölkənin ixrac potensialını artırmaq və paralel olaraq əhalinin məşğulluq səviyyəsini yaxşılaşdırmaqdır. Tütünçülüyün inkişafına dəstək vermək üçün ölkə başçısı “Azərbaycan Respublikası tütünçülükdə inkişafa dair 2017-2021-ci illər Dövlət Proqramı”nın təsdiq olunması üçün 10.08.2017-ci il tarixli Sərəncam imzalamışdır. 2017-ci ildə ölkə üzrə cəmi 3212 hektar sahədə tütün yetişdirilmişdir (bax: Cədvəl-6). Halbuki, bu göstərici 2009-cu ildə 1200 hektar olmuşdur. Ötən müddətdə sahə genişlənməsi 2,7 dəfə və ya 2 min hektardan çox olmuşdur. Tütünçülük Respublikamızda əsasən Şəki-Zaqatala iqtisadi rayonunda inkişaf etdirilir. Xatırladaq ki, Azərbaycanın şimal-qərbində, Böyük Qafqaz dağlarının cənub yamacında yerləşən Şəki-Zaqatala iqtisadi rayonu tarixən də tütün yetişdirilməsi sahəsində ixtisaslaşmışdır. 2017-ci ildə tütün əkin sahələrinin 93%-i və ya 2980 hektarı bu iqtisadi rayonun payına düşmüşdür. Şəki-Zaqatala iqtisadi rayonunda tütün əkin sahələri 2009-2017-ci illərdə 2,5 dəfə və ya 1788 hektar artmışdır. Sahə genişlənməsi, əsasən 2016 və 2017-ci illərin payına düşüb. Şəki-Zaqatala iqtisadi rayonu üzrə tütün əkin sahələri əvvəlki illə müqayisədə 2016-cı ildə 67,6% və ya

921 hektar, 2017-ci ildə isə 30,5% və ya 697 hektar artıb. 2016-cı ildən başlayaraq Lənkəran iqtisadi rayonu üzrə də tütünçülüyün inkişaf etdirilməsinə başlanılmışdır. Tütünçülükdə inkişafın nəticəsi olaraq əkin sahələrində mala,şum,rekultivasiya işləri və aqrotexniki tədbirlərin keyfiyyətli olması ilə bağlı rayonlarda fermerlərə müxtəlif təlimlər keçirilmişdir.

Azərbaycanda qədim və ənənəvi kənd təsərrüfatı sahələrindən biri də baramaçılıqdır. Kənd təsərrüfatında məşğulluğun təmin olunmasında və gəlirlərin artırılmasında baramaçılıq da əhəmiyyətli sahələrdən biri kimi diqqəti cəlb edir. Bu səbəbdən baramaçılığın inkişaf etdirilməsi üçün xüssusi planlar işlənib hazırlanmışdır. Belə ki, dövlət başçısının göstərişi 2016-cı ildə başlayaraq ölkəmizdə ipəkçiliyin inkişafı ilə bağlı barama toxumçuluğunun inkişaf etdirilməsi, bunun üçün lazımi infrastrukturun yaradılması sahəsində bir sıra ilkin tədbirlər görülmüşdür.

**Cədvəl 6.Tütün əkin sahələri, hektarla**

| **İllər** | **Cəmi** | **o cümlədən:** | | |
|---|---|---|---|---|
| | | **Şəki-Zaqatala iqtisadi rayonu** | **Lənkəran iqtisadi rayonu** | **Aran iqtisadi rayonu** |
| **2009** | 1200 | 1192 | - | - |
| **2010** | 1351 | 1351 | - | - |
| **2011** | 1439 | 1439 | - | - |
| **2012** | 1532 | 1532 | - | - |
| **2013** | 1215 | 1215 | - | - |
| **2014** | 1109 | 1109 | - | - |
| **2015** | 1362 | 1362 | - | - |
| **2016** | 2362 | 2283 | 34 | 2 |
| **2017** | 3212 | 2980 | 102 | - |

**Mənbə**: Dövlət Statistika Komitəsi,(17.05.2019-cu il tarixli məlumatlardan götürülüb) http:// www.stat.gov.az/

İpəkçiliyin yem bazasının yaradılması ilə əlaqədar olaraq 2016-cı ildə Çindən ölkəmizə 1,5 milyon calaq tut tingləri gətirilmiş və əvəzi ödənmədən müvafiq rayon təsərrüfatlarına göndərilmişdir. Bundan başqa, Çindən yüksək keyfiyyətli 6000 qutu hibrid ipəkqurdu toxumları da gətirilmişdir. Həmin toxumlardan 95-100% səviyyəsində barama qurdları almaq mümkün olmuşdur. Yüksək məhsuldarlığı təmin etmək, habelə baramaqurdu yemləmək, ona qulluq

sahəsində itirilmiş əmək vərdişlərinin bərpa olunması və yaxşılaşdırılması məqsədi iləbarama yetişdirməklə məşğul olan kümçülərə xüsusi təlimatlar, tövsiyələr və yaddaş vərəqlərihazırlanaraq verilmişdir. Nəticədə "Şəki İpək" ASC-ni 2017-ci ildə 245 ton yaş barama ilə təmin etmək mümkün olmuşdur. Bu göstərici cari il üçün qarşıya qoyulmuş hədəflərdən, təxminən 1,6-1,8 dəfə və ya 2016-cı ilin istehsal göstəricisindən 3,5 dəfə çox olmuşdur.

Heyvandarlığın kənd təsərrüfatının əsas sahəsi kimi ölkə iqtisadiyyatında rolu böyükdür. Bu sahə əhalinin, habelə emal sənayesinin, xüsusən də qida sənayesinin təzə ət, süd və süd məhsullarına, yuna, yumurtaya, dəriyə olan tələbatının ödənilməsində yeri əvəzsizdir. Odur ki, heyvandarlıq məhsulları istehsalının artırılması, məhsuldarlığın yüksəldilməsi və bu məqsədlə yemləmə, qulluq, sağım sahələrində ən müasir texnologiayaların ölkəmizə gətirilməsi çox vacib məsələ kimi diqqət mərkəzində saxlanılmaqdadır. İqtisadi rayonlarda, xüsusən də İmişli,Tərtər, Samux,Ağdam,Ağcabədi, Masallı, Ağdaş, Kürdəmir, Bərdə rayonlarında istifadəyə verilmiş heyvandarlıq komplekslərində lizing vasitəsilə xarici ölkələrdən gətirilmiş damazlıq heyvanlar bəslənilir. Bu istiqamətdə həyata keçirilən tədbirlər sayəsində Ağcabədi, İmişli,Bərdə rayonlarında bir sıra pilot layihələr həyata keçirilmiş, və bu hesaba müasir ailə və fermer təsərüffatlarının formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Adı çəkilən rayon ərazilərində yaşayan və fəaliyyət göstərən fermerlər güzəştli lizing şərtləri ilə təmin edilərəkonlara ətlik-südlük istiqamətli heyvanlar verilmişdir. Layihələrin uğurunu təmin etmək məqsədi ilə fermer, ailə təsərrüfatları gübrələr və silosluq qarğıdalı toxumları ilə də təchiz edilmişdir.

Aşağıdakı cədvəl (bax: cədvəl-7) bütün təsərrüfat kateqoriyaları üzrə Respublikamızda istehsal olunan əsas heyvandarlıq məhsullarının dinamikasını göstərir. Dövclət Statistika Komitəsinin açıqladığı bu məlumatların müqayisəsi göstərir ki, son 12 ildə heyvandarlıq məhsullarının istehsalı əsasən müsbət trend nümayiş etdirmişdir. Qeyd edilən dövrdə kəsilmiş çəkidə ət istehsalı 60%, süd istehsalı 61,7%, yumurta istehsalı 96%, yun istehsalı 22%, bal istehsalı isə 5 dəfə artıb. Bu son 12 ildə kəsilmiş çəkidə ət istehsalı hər il orta hesabla 13%, süd

istehsalı hər il orta hesabla 13,5%, yumurta istehsalı hər il orta hesabla 8%, yun istehsalı isə hər il orta hesabla 1,8%, bal istehsalı isə 33% artmışdır.

Barama istehsalı üzrə tendensiya fərqli olmuşdur. 2005-ci ildə 78 ton barama tədarük edən kümçülər 2007-ci ilə qədər bu göstəricini 3,5% artıraraq 80,8 tona qədər artırmağı bacarsalar da, sonrakı illərdə bu tempi nəinki qoruyub saxlaya bilməmişlər, hətta tədarük həcmi 2015-ci ilin sonunadək 342 dəfə azalaraq 236 kiloqrama qədər düşmüşdür. Bu strateji məhsulun istehsalı ölkəmizdə demək olar ki, dayanmışdır. Lakin, görülən əlavə tədbirlər nəticəsində barama tədarükünün həcmi 2016-cı ildə 70,8 tona, 2017-ci ildə isə 245,2 tona yüksəlmişdir. Bu sonuncu göstərici son 13 ili ən yüksək göstəricisidir.

**Cədvəl 7. Əsas heyvandarlıq məhsullarının istehsalı, bütün təsərrüfat kateqoriyaları üzrə, min t**

| İllər | Ət (kəsilmiş çəkidə) | Süd | Yumurta(mln ədəd) | Yun (fiziki çəkidə) | Barama | Bal |
|---|---|---|---|---|---|---|
| **2005** | 198,0 | 1251,8 | 874,6 | 13,1 | 78,0* | 0,6 |
| **2006** | 204,7 | 1299,3 | 760,9 | 13,6 | 62,8* | 1,1 |
| **2007** | 218,7 | 1341,0 | 953,6 | 14,2 | 80,8* | 1,2 |
| **2008** | 228,0 | 1381,3 | 1101,2 | 14,8 | 24,0* | 1,4 |
| **2009** | 231,5 | 1432,8 | 1209,4 | 15,3 | 9,0* | 1,3 |
| **2010** | 244,9 | 1535,8 | 1178,6 | 15,6 | 6,0* | 1,9 |
| **2011** | 254,9 | 1597,5 | 1011,0 | 16,0 | 4,0* | 2,3 |
| **2012** | 276,0 | 1695,6 | 1226,7 | 16,2 | 3,0* | 2,4 |
| **2013** | 286,9 | 1796,7 | 1401,5 | 16,5 | 1,4* | 2,5 |
| **2014** | 291,2 | 1855,8 | 1562,7 | 16,8 | 0,974* | 2,4 |
| **2015** | 298,6 | 1924,5 | 1552,9 | 17,0 | 0,236* | 2,6 |
| **2016** | 302,2 | 2009,9 | 1609,8 | 16,7 | 70,8* | 2,7 |
| **2017** | 316,8 | 2024,1 | 1714,0 | 16,0 | 245,2* | 3,0 |

**Mənbə**:Dövlət Statistika Komitəsi, (17.05.2019-cu il tarixli məlumatlardan götürülüb) http://ww.stat.gov.az//

Heyvandarlıq təsərrüfatlarının reytinqi, həm də burada istehsal olunan məhsulların, misal üçün ət, süd və sair kimi məhsulların emal keyfiyyəti ilə də müəyyən olunur. Heyvandarlıqla bağlı məhsulların emalı ilə bağlı ölkəmizdə son illər ərzində böyük işlər görülüb. Heyvandarlıq məhsullarını yüksək səviyyədə emal edən və hazır məhsulları istehlakçılara çatdırmaq sahəsində xidmət göstərən

“Milk Pro”, “Pal süd”, “Nurgun sud”,”Sehliyali”, “Halal dad’’, “Caspian Fish” kimi emal müəssisəslərinin yaradılmasını və fəaliyyətə başlamasını bu sahədə görülən işlərin nəticəsi kimi qeyd etmək olar. Hazırda bu müəssisələr əhalini “İSO 9000” keyfiyyət standartına uyğun gələn məhsullarla təmin edirlər. Odur ki, heyvandarlıq təsərrüfatları öz işlərini elə qurmalıdırlar ki, emal sənayesinin artmaqda olan tələbatının ödənilməsində problemlər yaşanmasın.

Respublikamızda son vaxtlarda qida təhlükəsizliyinin təmin edilməsi ilə bağlı olaraq bir sıra proqramlar həyata keçirilməkdədir. Bu sırada süd itkisinin qarşısının alınması, südün keyfiyyətinin pisləşməsinin qarşısının alınması üçünregionların heyvandarlıq təsərrüfatlarına yaxın ərazilərdə bir çox süd qəbulu məntəqələri yaradılmışdır. (Abbasov A,2007 s.189)

Kənd təsərrüfatı özünəməxsus xüsusiyyətləri ilə iqtisadiyyatın digər sahələrindən fərqlənir. Təbii iqlim şəraitindən asılılıq bu sahənin səciyyəvi xüsusiyyətidir. Odur ki, kənd təsərrüfatının dayanıqlığını və ərzaq təhlükəsizliyinin davamlılığını təmin etmək, habelə xarici bazarların yerli istehsalla təchizatında fasilələr yaranmasına imkan verməmək üçün davamlı baza yaradılmalıdır. Bunun üçün yeni aqrar siyasətin əsaslarının işlənib hazırlanmasına ehtiyac var. Dünyanın qlobal istehlak bazarlarında müşahidə olunan tendensiyaların tələbləri yeni aqrar siyasətdə nəzərə alınmalıdır. Dövlətin aqrar siyasət qlobal bazarlarda baş verən dəyişmələrə uyğunlaşdırılmalıdır. Bu zərurətdən çıxış edərək dövlətin torpaq mühafizə tədbirləri, yerli kənd təsərrüfatı məhsullarının inkişafına dəstək siyasəti davam etdirilməlidir. Əmtəələrin istehsalı, nəqli, emalı və marketinqi istiqamətində əhəmiyyətli tənzimləmə siyasəti həyata keçirilməlidir. Kənd təsərrüfatı təhsili verən universitetlər, ictimai kolleclər dövlət tərəfindən maliyyələşdirilməli, bu yolla aqrar araşdırma aparan və fermerlərə məsləhət xidmətləri göstərən fəaliyyətə stimul verilməlidir.

Yerli səviyyədə bələdiyyələr məktəbləri, vətəndaş təşkilatlarını cəlb etməklə aqrar təhsilin təşviqinə kömək etməlidir. Bunun üçün bələdiyyələrin hazırkı zəif statuslarının gücləndirilməsi çox vacibdir. Beynəlxalq təcrübə göstərir ki, bələdiyyələr, həmçinin istehsal olunan kənd təsərrüfatı əməliyyatlarının həcminin

tənzimlənməsində də iştirak edir, yerli bazarlara, icma bağlarına və ərzaq yardımı proqramlarına dair qanunları təsdiqləməklə bir sıra məqsədlərə nail olurlar. Dövlət siyasəti yalnız dövclət büdcəsinə deyil, həm də istehlakçılara, ətraf mühitəvə rəqabət maraqlarına yönələn xərc və gəlirləri  balanslaşdırmalıdır. İnstitusional keyfiyyət göstəricisiuzun müddətdir ki, ölkələrin əsas iqtisadi göstəricilərindən biri kimi nəzərdən keçirilir.

İqtisadi tənzimləmə nəzəriyyəsi XIX əsrdə yaranmış və bu haqda çoxlu ədəbiyyatlar yazılmışdır. Tənzimləmə qaydaları bir sıra sosial məqsədlərə nail olmaq üçün vəzifəli şəxslərin hərəkətlərini,iş təhlükəsizliyini və ya sağlamlıq nöqteyi-nəzərdən etməli və etməyəcəyi davranışları özündə birləşdirir. Geniş mənada tənzimləmə qaydaları gözlənilməz hadisələrdən sığortalamaq, milli iqtisadiyyatları toqquşan maraqların zərərli təsirlərindən qorumaq və milli bazarları xarici bazarların uğursuzluqlarından çəkindirmək məqsədlərindən irəli gəlir. Zərərli faktorların mövcudluğunda iqtisadi tənzimləmə qaydaları sosial rifahı artıran çox vacib mexanizm kimi əvəzedilməz rola malikdir.

Adətən siyasi tənzimləmələrlə xarakterizə olunan qaydalar tipik olaraq kompleks və sosial məqsədlərə xidmət etsə də, bir sıra sosial qruplarla rəqabət də aparmalı olur. Resursları məhsuldar fəaliyyətə yönəldən tənzimləmələr müəyyən pul xərcləmələrini nəzərdə tutur. Ona görə də iqtisadiyyata təsir göstərməyi hədəfləyən qaydaların təsir  ötürdüyü kanalların dəqiq yollarını, şəbəkəsini anlaya bilmək, xüsusilə vacibdir.  Bu haqda mövcud ədəbiyyatlarda bir sıra izahlar vardır. Həddindən artıq tənzimləmənin çox bahalı olmasını da nəzərdən qaçırmaq olmaz.

İnkişaf etmiş kredit bazarları, iflas qanunları biznes və investisiya müqavilələrini  asanlaşdırmaqla borcların nisbətən yüksək səviyyəyə yüksəlməsinə zəmin yaratsa da, effektiv məhkəmə sistemi və investorları qoruyan mexanizmlər həmin borcların geri qaytarılmasına, borc portfelinin azaldılmasına təminat yaratmaqla borc öhdəliklərini bərpa etmək üçün borc verənlərin hüquqlarını gücləndirir.Bu istiqamətdə yüksək proqnozlaşdırma qabiliyyətləri ilə tanınmış şirkətlərin xidmətlərindən yararlanmaqla daha  məhsuldar qərarlar qəbul etmək və gözlənilən riskləri xeyli dərəcədə aşağı salmaq mümkündür.

Qaydalar firmaların əməliyyat xərclərinə təsir edir. Belə vəziyyət məhsuldarlığa mənfi təsir göstərir. Eləcə də, çox ciddi maliyyə qaydaları maliyyə xidmətlərinə çıxış imkanlarını məhdudlaşdırır və bu səbəbdən də ən çox zərər çəkən kiçik firmalar olur. Amma alimlərin apardıqları araşdırmalar göstərir ki, tənzimləmə sahəsində oturuşmuş qaydalar, xüsusən də idxal və ixrac əməliyyatlarındakı itkiləri xeyli azaltmağa imkan verir.

İstehsal strukturunda müşahidə olunan struktur transformasiyasını öyrənən iqtisadçı alimlər belə qənaətə gəliblər ki, istehsal böyüdükcə, istehsalçıların ticarət, maliyyə və dövlət xidmətlərinə daha çox ehtiyacı yaranır. Aşağı templə olsa da, kənd təsərrüfatında da transformasiya baş verməkdədir. Dünya ölkələri sırasında elə bir ölkə tapmaq çətindir ki, kənd təsərrüfatı sektorunda struktur dəyişikliyinə nail olmadan adambaşına düşən gəlir səviyyəsinin artımına nail ola bilsin. Reallıqda kənd təsərrüfatı sektoru qeyri-kənd təsərrüfatı sahələrinin böyümə əlaqələri və təsirləri vasitəsi ilə geniş struktur dəyişikliyinə məruz qaalır.

Fiziki və təşkilati infrastrukturun təminat sisteminin yaradılması zərurəti kənd təsərrüfatının transformasiyasını şərtləndirən növbəti bir mexanizmdir. Burada suvarma və nəqliyyat infrastrukturunun rolu daha tez diqqəti cəlb edir. Başqa bir yandan isə öz ölkələrinin gələcəyi üçün müvafiq institusional və tənzimləyici çərçivəni müəyyənləşdirən hökumətlər regional və qlobal bazarlara inteqrasiya imkanlarını genişləndirmək üçün fermerlərin rəqabət qabiliyyətliliyini artırmağa kömək etməli olurlar.

Ölkədə etibarlı ərzaq təminatının olması hər dövlətin iqtisadi sabitliyi, sosial dayanıqlılığı üçün əsas şərt hesab olunur. Bu səbəbdən də Respublikada əhalinin ərzaqla təminat sisteminin möhkəmləndirilməsi üşün dövlət tərəfindən bir sıra tədbirlər həyata keçirilməkdədir. Bu tədbirlər arasında kənd təsərrüfatının inkişafına yönələn dövlət proqramları çox əhəmiyyətlidir. Aqrar sahə əhəmiyyətinə görə neft, tikinti sahələrindən sonraüçüncü yerdə qərarlaşıb. Son illər kənd təsərrüfatına dövlət tərəfindən yatırılan investisiyalar artmaqdadır. Bu investisiyalar hesabına ölkəyə daha müasir texnika və texnologiyalar gətirilir. Subsidiyalar hesabına yeni kənd təsərrüfatı xidmət sahələri yaradılır. Güzəştli

şərtlərlə təşkil olunan gübrə, yanacaq satışları, əlverişli lizinq şərtləri ilə texnika, mal-qara satışı aqrar sektorda çalışan sahibkarlara, fermerlərə böyük dəstəkdir. 2015-ci ilin kənd təsərrüfatı ili elan olunması ərzaq təminatında mühüm rol oynayan, məsələn taxılçılıqda hər hektar sahədən orta hesabla 30,5 sentner məhsuldarlıq əldə etməklə nəticələnmişdir. Bu məhsuldarlıq göstəricisi taxılçılıqda həmin il ümumi istehsal səviyyəsini 5,7% yaxşılaşdırmağa imkan vermişdir. Bütün bu müsbət dəyişikliklərə baxmayaraq, qloballaşan dünyada informasiya texnologiyalarının sürətli inkişafı kənd təsərrüfatına münasibətdə yeni çağırışları, yeni hədəfləri aktuallaşdırır. Bu kontekstdən baxdıqda torpaq-insan münasibətlərinin yeni tələblər səviyyəsinə uyğunlaşdırılması həlli vacib problem kimi qarşıda durur.

Başqa sahələrdə istehsal edilən mallardan və xidmətlərdən istifadə səviyyəsinin artması aqrar iqtisadiyyatı sənaye və xidmət sektorları ilə daha sıx əlaqələrə inteqrasiya edir. Sənayeləşmə, yeni texnika və texnologiyalar bir tərəfdən sərbəst əmək ehtiyatlarının formalaşmasına imkanlar yaradırsa, digər tərəfdən kənd təsərrüfatının daha səmərəli əsaslar üzərində qurulmasını tələb edir. (Nəbiyev V., 2014) Müşahidə olunan bu meyl kollektiv təsərrüfat formalarına keçidi zəruri edə bilər. Bunun üçün başqa zəmin də yaranmaqdadır. Əgər erkən dövrlərdə, hətta ondan sonrakı uzun bir dövrdə torpaq mülkiyyəti ilə bağlı məsələlər yaşamaq, duruş gətirmək, hakimiyyətə, sərvətə sahib olmaq qədər əhəmiyyətli sayılırdısa, indiki zamanda, bu məsələ xeyli dərəcədə aktuallığını itirmişdir. Müasir dövrdə yaşamaq və sərvəti artırmaq üçün alternativlər kifayət qədər çoxaldığına görə torpağın yenidən bölüşdürülməsi kimi məsələlərə o dərəcədə də maraq yoxdur. Gəlirləri artırmaq, qazanmaq istəkləri önə çıxdığına görə hazırkı şəraitdə torpaq mülkiyyəti ilə bağlı məsələlər nisbətən arxa plana keçmişdir. Amma bazar ilə əlaqəli olması səbəblərindən meydana çıxan problemlər və artmaqda olan risklər kənd təsərrüfatının intensivləşdirilməsini hava-su qədər vacib edir. Kiçik ölçülü təsərrüfatlarla və kiçik aktivlərlə bu böyük vəzifənin öhdəsindən gəlmək isə çox çətindir.

## 2.2. Ölkədə ixrac potensialının mövcud vəziyyətinin qiymətləndirilməsi

Xarici ticarət kənd təsərrüfatının inkişaf səviyyəsini xarakterizə edən ən vacib istiqamətlərdən biridir. Son zamanlar qeyri-neft sahələrindən ixrac olunan malların strukturunda kənd təsərrüfatı məhsullarının payı artmaqdadır. Ölkəmiz dünya tərəfdaşları içərisində yalnız xam neft, təbii qaz və neft məhsullarının ixracatçısı kimi deyil, həm də kənd təsərrüfatı məhsullarının ixracatçısı kimi tanınır.

Gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmamış əməliyyatları da nəzərə alsaq, xarici ölkələrlə 2018-ci ilin 10 ayında 26,5 milyard dollar həcmində ticarət dövriyyəsi həyata keçirilmişdir. Bu sırada ixrac əməliyyatları 17,3 milyard dollar, idxal əməliyyatları isə 9,3 milyard dollar təşkil etmişdir. Bu ticarətdən 8,0 milyard dollar həcminə xarici valyuta qazancı əldə edilmişdir. Kənd təsərrüffatının inkişafı istiqamətində atılan addımlardan sonra buğda idxalı 0,4 faiz,bitki yağlarının idxalı 0,7 faiz, xam şəkər və şəkər idxalı 40 faiz, kərə yağı, süd və pastaların idxalı 19,6 faiz, kartofun idxalı 17 faiz, mal ətinin idxalı 10,2 faiz,təzə tərəvəzin idxalı 45,1 faiz azalmışdır. İxracın strukturunda isə xam neft və neft məhsullarından başqa pambıq lifinin, ipliyin,meyvə və tərəvəzin,şəkər məhsullarının çəkisi çoxalmışdır. Daha dəqiq desək, meyvə ixracı 22,6 faiz,kartof ixracı 15,5 faiz, bitki yağlarının ixracı 10,2 faiz, təbii üzüm şərabının ixracı 2 dəfə, pambıq lifinin ixracı isə 2.2 dəfə artmışdır. Ümumiyyətlə, 10 aylıq göstəricilərin müqayisəsi göstərir ki, 2018-ci ildə 2017-ci il ilə nəzərən qeyri-neft məhsulları üzrə ixrac faktiki qiymətlərlə 10,9 faiz, sabit qiymətlərlə 1,7 faiz artaraq 1,3 milyard dollar səviyyəsinə yüksəlmişdir.

Azərbaycanın iqtisadiyyatı müxtəlif tarixi dövrlərdə müxtəlif yollarla inkişaf etmişdir. Tarixən ölkəmiz kənd təsərrüfatı ölkəsi kimi tanınsa da, XIX əsrin sonlarından başlayaraq zəngin neft və qaz ehtiyatları ilə dünyanın diqqətini cəlb etmişdir. Elə həmin dövrdən başlayaraq ölkəmizdə neft və onunla əlaqədar olan kimya sənayesinin təməli qoyulmuşdur. Beləliklə, XIX əsrin ikinci yarısından etibarən ölkəmiz “aqrar ölkə” statusu ilə yanaşı “neft ölkəsi” statusu da daşımağa

başlayıb. Sovet Sosialist Respublikalar İttifaqı (SSRİ) dağılandan sonra Respublikamız ona aid mülkiyyət üzərində sahiblik hüququnu tam bərpa edə bildi. Nəticədə Azərbaycan öz neftini dünya bazarlarına çıxarmaq üçün dünyanın çox məşhur şirkətləri ilə "Əsrin müqaviləsi" adı ilə tarixə düşən müqavilə bağladı.

Bu müqavilə Azərbaycanın inkişafına əlavə stimul verdi. 2005-2014-ci illər ərzində ölkəmizə milyardlarla neft pulları axın elədi. Dövlət Neft Fondunda və Mərkəzi Bankda toplanan xarici valyuta ehtiyyatları artaraq 50 milyard dollara çatdı. Lakin 2014-cü ilin sonlarından başlayaraq neftin dünya bazar qiymətinin aşağı düşməsi səbəbindən neft gəlirləri azaldı, investisiya qıtlığı yaşandı. Belə bir vəziyyət ölkəmizin resurs asılılığını açıq şəkildə meydana çıxardı. Neft gəlirlərinin artması fonunda sənayenin iqtisadiyyatda rolu və yeri əhəmiyyətli dərəcədə artmışdır. Əgər 2003-cü ildə sənayenin ÜDM-də payı 37,2% olmuşdursa, bu pay 2013-ci ildə 9,1 faiz bəndi artaraq 46,3% -ə yüksəlmişdir. Bu tendensiya, heç şübhəsiz ki, digər sahələrlə yanaşı kənd təsərrüfatının da ÜDM-də payının azalması ilə müşayiət olunmuşdur. Lakin bu azalmaya "aqrar sektorun nisbətən yavaş böyüyən sahə" olmasının da təsiri vardır. Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatında artım tempi iqtisadiyyatın digər sahələrindəki artım tempindən aşağı olur.

Neft sektorundan asılılığın azaldılmasında aqrar sektorun inkişafının sürətləndirilməsi ən təsirli yollardan biri hesab olunur. Bu yöndə atılan addımlar artıq öz bəhrəsini verməkdədir. 2018-2019-cu illərdə aqrar sahədə qeydə alınan inkişaf templəri Dünya Bankının açıqladığı məlumatlara əsasən, dünya üzrə orta göstəricidən, həmçinin bölgə ölkələrinin göstəricilərindən yüksək olub. Bu nəticələrin əldə olunmasında aqrar sahə məhsullarının ixracında müşahidə olunan yüksək dinamikanın böyük rolu vardır. Son 15 il ərzində kənd təsərrüfatı məhsullarının ixracatında 6,3 dəfə, o cümlədən meyvə və tərəvəz ixracatında 10,4 dəfə artım baş vermişdir. 2018-ci ilin 8 ayı ərzində tərəvəz ixracında 8,3 faiz, meyvə ixracında 32,6 faiz, xam pambıq ixracında isə 2,2 dəfə artım müşahidə olunmuşdur.

Həyata keçirilən dövlət proqramlarının nəticəsində formalaşmış əlverişli bazar şəraiti biznes fəaliyyətinin əhatə dairəsinin genişlənməsinə gətirib çıxarmışdır. Bu da iqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında çalışanların sayının artmasına və investisiya axınına müsbət təsir göstərmişdir. Yerli istehsal potensialının artması və ölkədə rəqabət qabiliyyətinin yaxşılaşması səbəblərindən qida sənayesinin özünü təmin etmə səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir. Dövlət müstəqilliyinin bərpa olunduğu ilk illərdə ət və süd məhsulları ilə özünütəminetmə səviyyəsi 30-35 faiz təşkil edirdisə, hazırda bu göstərici 90 faizə qalxıb. Hər növ tərəvəz və meyvə ilə özünütəminetmə səviyyəsi 100 faizdən çoxdur. Yerli istehsal hesabına bu göstəricinin yaxşılaşması idarəetmənin daha çevik tənzimlənməsi, müvafiq sektorlara dövlət dəstəyinin artırılması, mövcud problemlərin həllinə proqram yanaşmasının tətbiq olunması hesabına mümkün olmuşdur. Ölkəmizdə kənd təsərrüfatının ixrac potensialının artırılmasını şərtləndirən əsas amilləri 8-ci cədvəldə göstərildiyi kimi qruplaşdırmaq mümkündür. Cədvəldən diqqəti cəlb edən odur ki, seçilmiş amillərin hər biri tənzimləmə vasitəsi kimi hazırda dövlətin iqtisadi siyasətində istifadə olunur. Ümumiyyətlə, hər bir ölkənin ixrac siyasəti ümumi ticarət konsepsiya və strategiyasına əsaslanır. Əgər ixrac potensialının tənzimlənməsindən söhbət gedirsə, burda iqtisadiyyatın açıq və şəffaf olmasının mühüm əhəmiyyətini gözardı etmək olmaz. Belə ki,ölkənin xarici ticarət dövriyyəsi ÜDM-in həcminin 25%-i həddindədirsə və ya bu səviyyədən yuxarıdırsa, bu ölkənin iqtisadiyyatı "açıq iqtisadiyyat" hesab edilir. Belə hesab olunur ki, açıq iqtisadiyyatlı ölkələr Beynəlxalq Əmək Bölgüsündə yaxından iştirak edir və belə ölkələrin ixrac səviyyəsi artmağa meyllidir. İxrac səviyyəsinin aşağı olması isə yoxsulluğun artması, ümumi sosial-iqtisadi vəziyyətin pisləşməsi, habelə bir sıra sahələrdə böhran kimi problemlərə şərait yaradır.

**Cədvəl 8. Aqrar sektorun ixrac potensialını şərtləndirən əsas amillər**

| Aqrar sektorun ixrac potensialını şərtləndirən əsas amillər | |
|---|---|
| **Mikroiqtisadi amillər:** | Daxili bazarda artım |
| | İstehlak mallarının növ və çeşidlərində artım |
| | Sahibkarlıq sektorunun inkişaf etməsi |
| | Rəqabətə davamlı məhsul istehsalı |
| | Regionlarınsosial-iqtisadivəziyyətininyaxşılaşması |
| **Beynəlxalq inteqrasiya amilləri:** | İxracın daha da stimullaşması |
| | İxracın diversifikasiyalaşması |
| | Xarici ticarət konsepsiyasının yaxşılaşdırılması |
| **Makroiqtisadi amillər** | İqtisadi artımın təmin olunması |
| | Sektorun investisiya cəlbediciliyinin artırılması |
| | Rəqabət qabiliyyətli yerli məhsulların istehsalı |
| | Milli iqtisadiyyatın rəqabətqabiliyyətinin stimullaşması |

**Mənbə:** İbrahimov İ.H məlumatlarına əsasən müəllif tərəfindən hazırlanıb

Kənd təsərrüfatı qeyri-neft sektorunun vacib elementlərindən biri olduğuna görə bu sahənin ixrac potensialının artırılması makroiqtisadi və mikroiqtisadi amillərin qaşılıqlı əlaqələndirilməsini tələb edir. Belə bir zərurət ixrac potensialının səmərəli idarə edilməsinin vacibliyini üzə çıxarır.

İxrac yönlü fəaliyyətin genişlənməsi daxili ticarətdə sabitlik yaradan vacib şərt kimi də diqqəti cəlb edir. İqtisadi artım, gəlir və sərvətin paylanması ixracatın artımıyla yaxından əlaqəlidir. İxracat idxalata nisbətən daha sürətlə artarsa, bu, xarici valyuta ehtiyyatlarının artması hesabına ölkənin iqtisadi mövqeyinin möhkəmlənməsinə səbəb olur. İxracatda qeyri-sabitlik isə iqtisadi inkişaf prosesinə mənfi təsir göstərməklə mövqeləri də zəiflədir. İxracatın idxalatdan üstünlüyü, həm də ölkənin beynəlxalq bazarlarda satınalma qabiliyyətini ölçməyə imkan verir.

İxracat gəlirlərində baş verən dalğalanmalar iqtisadiyyatda qeyri-müəyyənliklər yaradır. Bu cür qeyri-müəyyənliklər investisiya səviyyəsinə və səmərəliliyinə, iqtisadi davranışa və iqtisadi böyüməyə mənfi təsir göstərir. İxracatın qeyri-sabitliyinə iqtisadi artım göstəricisi müsbət, həmçinin mənfi istiqamətlərdə təsir edə bilər. İxracatdakı qeyri-müəyyənliklər risklərdən

çəkinməyə vadar etdiyinə görə insanlar sərmayələri öz ölkələrinə yatırmağa, iqtisadiyyatı tədricən inkişaf etdirməyə meyl edir (hazırkı şəraitdə bu hal bir o qədər də müşahidə olunmur). İxrac dalğalanmaları bu və ya digər dərəcədə inkişaf etmiş ölkələrin sabitliyinə və böyüməsinə mane olur. Bir sıra səbəblərə görə ölkəyə investisiya axınının qarşısının alınması üçün yüksək dərəcədə ixrac qeyri-sabitliyi gözlənilə bilər. Belə bir hal borclanma xərclərinin artmasına gətirib çıxara bilər, çünki ixrac dalğalanmaları ölkənin ödəmə balansında müəyyən çətinliklərin yaranmasına səbəb olur. Belə bir hal milli valyutaların dəyər itirməsi ilə nəticələnə də bilər. Odur ki, ixracda qeyri-sabitlik həm də inflyasiyanı stimullaşdırır. Son illərdə yaşanan maliyyə böhranları və iqtisadi tənəzzül milli iqtisadiyyatın ixrac potensialının artırılması məsələsini qloballaşdırır.Təbii ki,bu halda milli iqtisadiyyatın real vəszyyəti düzgün qiymətləndirilməli, beynəlxalq inkişaf səviyyəsinə uyğun ixrac potensialı müəyyənləşdirilməlidir. Bu zaman milli iqtisadiyyatda təbii resurlardan istifadənin vacibliyi nəzərə alınmalı və xarici ticarətdə dövlət tənzimlənməsinin rolu təkmilləşdirilməlidir. Bu baxımdan kənd təsərrüfatının inkşaf istiqamətləri düzgün müəyyən olunmalı, onun ixrac potensialı yenilənməli və artırılmalıdır. Kənd təsərrüfatı sahəsinə dövlət dəstəyinin iqtisadi sektorlar üzrə adekvatlılığı da qiymətləndirilməlidir.İdxal-ixracın ölkə iqtisadiyyatında mühüm yeri olduğu məlumdur. Hər bir dövlətin məqsədi ixracı stimullaşdırmaq və idxaldan asılılığı azaltmaqdır. Ölkəmizdə ixracın böyük payla neft sektoru üzrə ixtisaslaşması iqtisadiyyat üçün təhlükəli haldır. Bu səbəbdən iqtisadi diversifikasiyaya nail olmaq və qeyri-neft sektorunun ixrac payının artırılmasını təmin etmək dövlətin qarşısında duran ən vacib məsələlərdən biri olmalıdır. Dövlət Gömrük Komitəsindən alınan rəsmi məlumatlara görə 2018-ci il ildə ixrac 19,459 mlrd dollar, idxal 11,465 milyard dollar olmuşdur. Bu ticarətdən xarici ticarət saldosu 8 mlrd dollar təşkil etmişdir. 8 milyard dollar valyuta qazancı özlüyündə çox müsbət haldır. Lakin ixracın mal strukturuna nəzər saldıqda ixracyönlü fəaliyyətdə ciddi problem olması üzə çıxır.

**Cədvəl 9. İxracda əsas mallar**

| № | Malın adı | Miqdar | Statistik dəyər (mln ABŞ dolları) | Ümumi ixraca nisbətən, %-lə |
|---|---|---|---|---|
| | **İxrac - cəmi** | **-** | **19 458,63** | **100,00** |
| 1 | Xam neft və bitumlu minerallardan alınan xam neft məhsulları, min ton | 29 498,34 | 15 719,48 | 80,78 |
| 2 | Neft məhsulları (2710 mal kodu üzrə), min ton | 1 015,12 | 520,60 | 2,68 |
| 3 | Təbii qaz, mln kub metr | 7 900,01 | 1 499,39 | 7,71 |
| 4 | Elektrik enerjisi, mln kVt/saat | 1 397,32 | 65,63 | 0,34 |
| 5 | Meyvə-tərəvəz, min ton | 621,03 | 559,63 | 2,88 |
| 6 | Çay, min ton | 1,37 | 9,37 | 0,05 |
| 7 | Bitki və heyvan mənşəli piylər və yağlar, min ton | 17,33 | 16,86 | 0,09 |
| 8 | Şəkər, min ton | 44,09 | 24,97 | 0,13 |
| 9 | Alkoqollu və alkoqolsuz içkilər və sirkə, mln ABŞ dolları | - | 16,25 | 0,08 |
| 10 | Kimya sənayesi məhsulları, min ton | 262,63 | 78,11 | 0,40 |
| 11 | Plastmassa və onlardan hazırlanan məmulatlar, min ton | 159,69 | 118,59 | 0,61 |
| 12 | Pambıq lifi, min ton | 54,31 | 80,46 | 0,41 |
| 13 | Pambıq iplik, min ton | 9,49 | 23,67 | 0,12 |
| 14 | Qara metallar və onlardan hazırlanan məmulatlar, min ton | 127,65 | 86,25 | 0,44 |
| 15 | Alüminium və ondan hazırlanan məmulatlar, min ton | 49,46 | 112,23 | 0,58 |
| 16 | Digərləri | - | 527,13 | 2,70 |

**Mənbə**:İqtisadi statistik tədqiqatlar,(05.09.2018-ci il tarixli məlumatlara əsasən müəllif tərəfindən hazırlanıb)
http://customs.gov.az//

İxracın 15,720 mlrd dolları xam neft və bitumlu minerallardan alınan xam neft məhsulları, 0,521 mlrd dolları neft məhsulları, 1,499 mlrd dolları isə təbii qaz olmuşdur. Bu hesabla, ümumi ixracın 91,3 faizi xam neft, təbii qaz və neft məhsullarından ibarət olmuşdur.

2018-ci ildə xarici ölkələrə cəmi 1,689 mlrd dollar məbləğində qeyri-neft malları sata bilmişik. Qeyri-neft sektorundan ixrac olunan malların ümumi ixracda çəkisi cəmi-cümlətanı 8,7% təşkil etmişdir. Qeyd edək ki, qeri-neft mallarının ixrac payının az olması uzun müddətdir ki, davam edir.

Aşağıdakı cədvəldə (bax: cədvəl-10) kənd təsərrüfatı məhsullarının ixracdakı payı üzrə dinamikanı izləmək olar. Cədvəl məlumatlarından görmək olur ki, 2017-ci ildə ixrac olunan kənd təsərrüfatı malları içərisində əsas yeri 3,8% payla bitki mənşəli məhsullar tutur. Diri heyvan və heyvan mənşəli məhsulların ixracda çəkisi 0,1%-dir.

**Cədvəl 10. 2018-ci ildə mal qrupları üzrə ixracın strukturu, yekuna görə %-lə**

| İllər | Cəmi | Diri heyvanlar və heyvan mənşəlı məhsullar | Bitki mənşəlı məhsullar | Heyvan və ya bitki mənşəli piylər və yağlar | Hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün | Toxuculuq materialları və məmulatları |
|---|---|---|---|---|---|---|
| **2009** | 100 | 0,0 | 1,5 | 0,9 | 1,2 | 0,3 |
| **2010** | 100 | 0,0 | 0,9 | 0,9 | 1,0 | 0,2 |
| **2011** | 100 | 0,0 | 1,0 | 0,7 | 1,0 | 0,2 |
| **2012** | 100 | 0,0 | 1,3 | 0,9 | 1,3 | 0,2 |
| **2013** | 100 | 0,0 | 1,3 | 1,0 | 1,4 | 0,2 |
| **2014** | 100 | 0,0 | 1,5 | 0,9 | 1,4 | 0,2 |
| **2015** | 100 | 0,0 | 2,6 | 1,2 | 2,2 | 0,3 |
| **2016** | 100 | 0,0 | 2,9 | 0,1 | 0,9 | 0,3 |
| **2017** | 100 | 0,1 | 3,8 | 0,1 | 0,8 | 0,6 |

**Mənbə:** Dövlət Statistika Komitəsi,(17.05.2019-cu il tarixli məlumatlarından götürülüb) http://www.stat.gov.az/

Dinamika göstərir ki, diri heyvan və heyvan mənşəli məhsulların ixrac səviyyəsi əvvəlki illərdə daha aşağı olub. Bitki mənşəli məhsulların ixrac səviyyəsi isə 2009-2017-ci illərdə əsasən artıb. Bu mal qrupu üzrə əsas artım tempi 2014-cü ildən sonraya təsadüf eləyir. Hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütünkimi malların ixrac payı 2010-2015-ci illərdə 1,0%-dən 2,2%-ə qədər artsa da, 2016 və 2017-ci illərdə 0,8%-ə qədər enmişdir.Heyvan və ya bitki mənşəli piylər və yağların ixracdakı çəkisi isə son 9 ildə 0,9%-dən 0,1%-ə qədər düşüb. Müşahidə olunan bu tendensiya kənd təsərrüfatı mallarının ixrac potensialının artırılması istiqamətində həyata keçirilən tədbirlərin yetərli olmaması qənaəti yaradır.

## 2.3. Kənd təsərrüfatında məşğulluq səviyyəsinin təhlili və qiymətləndirilməsi

Ölkənin məşğul əhalisinin ən çoxu kənd təsərrüfatının payına düşür. Əgər məşğul əhalinin sayı kənd təsərrüfatında 1995-ci ildə 1,1 milyon nəfər olmuşdursa, 2017-ci ildə bu göstərici 1,7 milyon nəfərə yüksəlmişdir. Məşğul olanların sayı üzrə artım 600 min nəfərə yaxın və ya 55%-dən çoxdur. Bu dövrdə aqrar sektorda çalışanların ümumi məşğul əhali sırasında çəkisi 30,8%-dən 36,4%-ə qalxmışdır. Lakin gələcəkdə yeni fəaliyyət sahələrinin yaranması və inkişaf etməsi ilə əlaqədar olaraq aqrar sektorda məşğulluq payının azalacağı gözlənilir. Hətta bu tendensiyanın artıq başlanmasını da demək mümkündür. Çünki 2005-2017-ci illərdə kənd təsərrüfatında məşğul olanların ümumi məşğul əhali arasında çəkisi 38,7%-dən 36,4%-ə düşüb. Lakin bu tendensiya kənd təsərrüfatının ölkə iqtisadiyyatındakı yerinin və rolunun azalması anlamına gəlmir. Bu səbəbdən də kənd təsərrüfatı mallarının emalı, ticarəti və təchizatı sisteminin sağlamlaşdırılması, aqrar sektor istehsalçılarına keyfiyyətli xidmət göstərilməsi kimi məsələlər daim nəzarətdə saxlanılmalıdır.

Aqrar sektoru inkişaf etdirməyin əsas iki forması var:

1) intensiv inkişaf; 2) ekstensiv inkişaf.

İntensiv inkişaf forması daha çox İnkişaf Etmiş Ölkələrə (İEÖ) xasdır. İnkişafın bu yolu daha çox mexanikləşməyə, torpaqların meliorasiyasına, torpaqların suvarılmasına yönəlmişdir. Başqa sözlə desək, kənd təsərrüfatına cəlb olunan texnika və texnologiyadan istifadə səviyyəsinin artırılması, aqrotexniki əməliyyatların avtomatlaşdırılması intensiv inkişafın əsas şərtdir. İntensiv inkişaf işçi qüvvəsindən istifadə səviyyəsinin azaldılmasına gətirib çıxarır.

Ekstensiv yol isə kənd təsərrüfatı ərazilərinin,yəni otlaq və əkin sahələrinin genişləndirilməsi,işçi qüvvəsinin artırılmasıyoluyla inkişafı nəzərdə tutur. Bu inkişaf forması əsasən İnkişaf Etməkdə Olan Ölkələrə (İEOÖ) xasdır. (Quliyev E,2015)

Qeyd edək ki, Azərbaycanda aqrar sektor daha çox ekstensiv inkişaf yolu keçib. Hazırda ölkənin təbii şəraiti, iqlim qurşaqları, torpaq ehtiyatları imkan verir

ki, burada intensiv formada innovasiyaların tətbiq edilməsi ilə daha ciddi məhsuldarlıq əldə edilsin və sektorun səmərəliliyi artırılsın.

Qeyd edək ki, 2000-ci ilə kimi kənd təsərrüfatı sektoru bütün dünyada əsas məşğulluq sahəsi hesab olunurdu. Lakin sonrakı dövrdə xidmət sektorunun sürətli inkişafı ilə əlaqədar olaraq işçi qüvvəsinin bu sahəyə axını çoxaldı. Bu səbəbdən də məşğul əhalinin sayı göstəricisi üzrə birincilik aqrar sektordan xidmət sektoruna keçdi. Hazırda kənd təsərrüfatı sektoru burada çalışan 1,3 milyard insan ilə xidmət sektorundan sonra dünyanın ikinci ən böyük məşğulluq mənbəyi hesab olunur. Dünya üzrə qlobal məşğulluğun 28%-i kənd təsərrüfatının payına düşür.

Ölkələrin inkişaf səviyyəsi yüksəldikcə, kənd təsərrüfatında çalışan əhalinin payı azalmağa meyllidir. Məşğul əhalinin daha çox hissəsinin kənd təsərrüfatında çalışdığı ölkələr zəif inkişaf etmiş ölkələrdir. Statistika göstərir ki, zəif inkişaf etmiş ölkələrdə əhalinin 2/3-dən çoxu əkinçilikdə çalışır. Amma bu fikri inkişaf etmiş ölkələr haqqında demək olmaz. Müqayisə üçün maraqlı statistikadır ki, dünya əhalisinin 5% -dən azı zəngin ölkələrin payına düşür. Ümumiyyətlə, yüksək məhsuldarlıq əməyin azalmasına gətirib çıxarır. Aşağıda təqdim olunan Qrafik 1. 1800-2015-ci illərdə ayrı-ayrı ölkələr üzrə kənd təsərrüfatında çalışanların sayının ümumi inkişaf səviyyəsindən asılı olaraq necə dəyişməsini bariz şəkildə özündə əks etdirir.

Bu asılılıq qrafiki Asiya, Avropa və Şimali Avropa ölkələrini xarakterizə edir. Əgər Yaponiyanın kənd təsərrüfatında ötən əsrin 70-ci illərində 18-19 milyon insan çalışırdısa, 2015-ci ilə qədər həmin göstərici 5-6 dəfə azalaraq 2-3 milyon nəfər olub. Başqa bir nümumədən isə məlum olur ki, ötən əsrin 20-30-cu illərində Fransanın aqrar sahələrində 8-9 milyion insan çalışıb. Amma sonrakı 80-90 ildə kənd təsərrüfatında məşğul olanların sayı 1 milyon nəfərə düşüb. Ümumi tendensiya göstərir ki, Avropa və Asiyanın inkişaf etmiş ölkələrində 1950-ci ildən sonra kənd təsərrüfatında məşğulluğun səviyyəsi mütəmadi şəkildə azalmağa başlayıb. Buna səbəb elm və innovativ sahələrin inkişafı, gənclərin daha çox elm yönümlü sahələrə istiqamətlənməsidir.

**Qrafik 1. 1800-2015-ci illərdə ayrı-ayrı ölkələr üzrə kənd təsərrüfatında çalışanların sayının ümumi inkişaf səviyyəsindən asılı olaraq dəyişməsi**




**Mənbə**:www.ourworldindata.org (17.08.2016-cı il tarixli məlumatlardan götürülüb)

Qrafik 1. Xəritəsi kənd təsərrüfatında yaradılan əlavə dəyərin adambaşına (bir işçiyə) düşən həcminin dünya üzrə necə paylanmasını əyani şəkildə izləməyə imkan verir.

Xəritədən göründüyü kimi, əlavə dəyərin adambaşına düşən həcmi Avropa, Şimali Amerika və Yeni Zelandiyada üstünlük təşkil edir (xəritədə tünd rənglə qeyd olunmuş ərazilər). 2017-ci ildə bir sıra ölkələrdə adambaşına gəlirlər 70 min dollar səviyyəsində olmuşdur. Afrika və Cənubi Asiyanın bir sıra ölkələrində isə adambaşına gəlirlər 1000 ABŞ dollarından da az olmuşdur. Madaqaskar kimi yoxsul bir ölkədə iş qüvvəsinin ¾-ü kənd təsərrüfatı ilə məşğuldur. Almaniya və ya Böyük Britaniya kimi zəngin ölkələrdə isə hər 100 nəfərdən yalnız biri kənd təsərrüfatında məşğul olur. Dünyanın İnkişaf Etmiş Ölkələrinin sırasına nəzər salsaq, məlum olur ki, zəngin ölkələrin gəlirlərində kənd təsərrüfatı sektorunun rolu kiçikdir, bu ölkələrin gəlirlərində kənd təsərrüfatının payı 10% -dən azdır. Azərbaycanda əmək ehtiyatlarından daha səmərəli istifadə etmək ölkə iqtisadiyyatının qarşısında duran əsas məsələlərdəndir. Ehtiyatlardan səmərəli istifadə ölkədə əhalisinin regionlar və təsərrüfat sahələri arasında optimal nisbətdə

paylanamasına müsbət təsir göstərir. Bu baxımdan, yeni istehsal-xidmət sahələrinin yaranması, emala əsaslanan əməktutumlu fəaliyyət növlərinin təşviq edilməsi  vacib hesab edilir.

**Şəkil 1. Kənd təsərrüfatında yaradılan əlavə dəyərin adambaşına (bir işçiyə)  düşən həcmi**




**Mənbə**: İqtisadi statistik tədqiqatlar, (05.02.2018-ci il tarixli məlumatlardan götürülüb) https://ourworldindata.org/

Əmək ehtiyyatlarından səmərəli istifadənin təmin edilməsi, nəticə etibarı ilə xarici bazarlardan aslılığın zəifləməsinə və ərzaq təhlükəsizliyinin təmin olunmasına şərait yaradır. Əmək ehtiyyatları ilə əlaqədar problemləri həll edərkən zaman amilindən asılı olaraq urbanizasiyanın böyüməsi,  yeni texnologiyalardan istifadə imkanlarının artması nəzərdən qaçırılmamalı, əhalinin sosial-iqtisadi,mədəni həyat səviyyəsi iə bağlı məsələlər diqqətdə saxlanılmalıdır.

Kənd təsərrüfatında işçi qüvvəsi kimi qadınların rolu böyükdür. Bununla belə, bu gün də elə fəaliyyət sahələri var ki, qadınların fəaliyyətinə bu gün də məhdudiyyətlər tətbiq olunmaqdadır. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) gender və torpaq hüquqlarının təmin olunması sahəsində kənd təsərrüfatında və torpaq mülkiyyətində qadınların roluna xüsusi diqqət yetirir. Aşağıdakıtəqdim olunan Şəkil 2.Xəritəsi qadın torpaq sahiblərinin ümumi torpaq sahibləri sırasında yeri və rolunun dünya ölkələri üzrə necə paylanmasını göstərir. Bu xəritə özündə qadın torpaq sahibləri  haqqında tam məlumatları əhatə eləməsə də, dünya üzrə ümumi mənzərəni  göstərmək baxımından çox əhəmiyyətlidir (bu

cür məlumatlar bir çox ölkələrdə davamlı və ya mütəmadi olaraq toplanmır, bu siyahıya alma ili bütün ölkələr üzrə ardıcıl deyil. Avropanın və Şimali Amerika ölkələrinə aid məlumatlar 2010-11-ci il məlumat bazasına əsaslanırsa, digər ölkələr üzrə 1993-2011-ci illərin məlumat bazasına əsaslanır). BMT-nin FAO təşkilatının apardığı hesablamalar göstərir ki, ölkələrin əksəriyyətində qadın torpaq mülkiyyəti ümumi mülkiyyətin 30 faizindən azını təşkil edir. Xəritəyə diqqət etsək, qadın sahibkarların Avropada çoxluq təşkil etməsini görürük. Botsvana, Malavi, Peru və Çilidə bu göstərici, hətta  30 faizdən çoxdur. Qadın sahibkarların ən az təmsil olunduğu ərazi kimi Afrikada  Qərbi Saxaranı və Cənubi Asiyan ölkələrini nümunə çəkmək olar.

**Şəkil 2. Qadın torpaq sahiblərinin ümumi torpaq sahibləri sırasında yeri və rolu**




**Mənbə**: İqtisadi statistik tədqiqatlar, (26.05.2017-ci il tarixli məlumatlardan götürülüb) https://ourworldindata.org/

Yüksək gəlirli ölkələr sırasında da torpaq mülkiyyətçi qadınları az olan ölkələrə təsadüf olunur: Birləşmiş Ştatlar, Böyük Britaniya, Norveç və Finlandiya kimi ölkələrdə bu pay 15 faizdən azdır.

Azərbaycan qadın sahibkarlığının zəif inkişaf etdiyi ölkələr sırasındadır. Xüsusən də kənd təsərrüfatında işləyən fermerlərin tərkibində qadınların payı çox azdır.Ölkəmizdə gender bərabərliyinin təmin olunması istiqamətində müəyyən

addımlar atılsa da, aqrar sektorda bu vəziyyətin tam əksi müşahidə edilmişdir. Qadınlar kənd təsərrüfatında əksər hallarda muzdlu formada işə götürülür,rəhbər işçilər isə daha çox kişilərdir. Belə bir şəraitdə qadınların çox işləməsinə baxmayaraq onların zəhməti də layiqincə qiymətləndirilmir. Fermerlər arasında rast gəlinən qadın fermerlərin daha çox rastlaşdıqları problemlər, xüsusən yeni texnologiyalar,innovasiyalar sahəsində biliklərinin yetərli olmaması,maddi-maliyyə çətinlikləri ilə əlaqədardır.

Hazırda Kənd Təsərrüfatı Nazirliyinin BMT-nin FAO təşkilatı ilə birlikdə işləyib hazırladığı "AMAL"(Aqrar Məşğulluğun Artırılması) adlı layihə həyata keçirilməkdədir. Bu layihənin əsas hədəfi ölkə gənclərində kənd təsərrüfatına marağın artırılmasına nail olmaq, yeni ideyalara çağırış etmək, kənd bölgələrində gənclərin məşğulluq səviyyəsinin artırılmasını təmin etməkdir. Kənd Təsərrüfatı Nazirliyi "AMAL" layihəsi ilə gəncləri bir araya toplayaraq mətlumatlandırma kampaniyaları təşkil edir. Bu kampaniyalar çərçivəsində İsmayıllı, Qəbələ,Şamaxırayonlarında görüşlər də keçirilmişdir. Belə görüşlərə onlayn müraciət edənlərdən başqa kənd təsərrüfatı sahəsində ali, orta və ya kollec təhsili olan gəncələr də dəvət olunurlar. Belə görüşlərdə aqrar sahədə biznesə başlamağın yolları, imkanları, üstünlükləri və sairə kimi biliklər aşılanır ki, bunun da, nəinki qadın sahibkarların, eləcə də ümumi aqrar sahibkarların sırasının genişlənməsinə kömək edəcəyi şübhəsizdir.

# III Fəsil AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATINDA İNKİŞAFA MANEƏ TÖRƏDƏCƏK AMİLLƏR VƏ HƏLLİ YOLLARI

## 3.1. Kənd yerlərində məşğulluğun artırılması və bu sahədə elm, təhsil xidmətlərinin inkişafı

Kənd təsərrüfatı qeyri-neft sektorunun inkişaf etdirilməsində prioritet verilən sahələrdən biridir. Ölkəmizdə məhsulların keyfiyyətinin yaxşılaşdırılmasını təşviq edən bir sıra tədbirləri həyata keçirilməkdədir. Hazırkı dövrdə aqrar sektorun inkişafına nail olunması üçün tədbirlərin aşağıdakı istiqamətlərdə aparılması məqsədə uyğundur:

-Torpaq və su ehtiyatlarından səmərəli istifadənin təmin olnması;

- Aqrar sahədə suvarma, meliorasiya və irriqasiya sistemlərinin bərpa olunması;
- Aqrar sektorun logistikasının gücləndirilməsi;
- Kənd təsərrüfatı və emal sahələrinin koordinasiyalı şəkildə inkişafının dəstəklənməsi, emal sənayesinin xammal təchizatının yaxşılaşdırılmasında aqrar sektorun rolunun artırılması;
- Rəqabət qabiliyyətli məhsul istehsalının artımını stimullaşdırmaq;
- Kənd təsərrüfatı sektorun maliyyə vəziyyətinin yaxşılaşdırılması;
- kənd təsərrüfatı sahəsinin hüquqi bazasının təkmilləşdirilməsi;
- Kənd təsərrüfatının elmi-metodik və kadr hazırlığı sisteminin gücləndirilməsi və sairə.

Respublika kənd təsərrüfatının əsas inkişaf strategiyasını aşağıdakı kimi xarakterizə etmək olar:

-Kənd təsərrüfatı krediti və kənd təsərrüfatı məhsullarının marketinqi üçün müvafiq tədbirlər planı;

-Kənd təsərrüfatına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi;

-Fərdlərin kənd təsərrüfatının müxtəlif sahələrində iştirakının artması;

- Kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi, kənd təsərrüfatının mexanikləşdirilməsi;

- Zərərvericilərin idarə edilməsi;

- Hökumət, QHT və özəl sektor arasında daha böyük koordinasiyaya nail olunması;

- Kənd təsərrüfatında ətraf mühitin mühafizəsi və qadınların kənd təsərrüfatında iştirakına nail olunması.

İqtisadi qloballaşma real sektorda, o cümlədən aqrobiznes sahəsində birbaşa və dolayı təsirlər yaratmaqla bazarların yenilənməsinə və ünsiyyət imkanlarının genişlənməsinə səbəb olur. Bu hesaba kənd təsərrüfatı məhsullarına, xüsusilə də qida məhsullarına tələb və təklif yalnız milli və ya yerli səviyyələrdə deyil, həm də qlobal səviyyələrdə mərkəzləşdirilir. Bu proses iri təsərrüfatların daha da böyüməsini stimullaşdırmaqla fərdi təsərrüfatların fəaliyyət dairəsinin məhdudlaşması ilə müşayit olunur.

Kənd təsərrüfatının indiki rolu və mövqeyini ümumi iqtisadiyyatda və cəmiyyətdə baş verən uzunmüddətli tendensiyaların nəticəsi kimi də dəyərləndirmək olar. İqtisadiyyatda nisbətən müstəqil sahələrin, məsələn, kənd təsərrüfatının inkişaf edərək meydana gəlməsinin əsasını çox yaxın fəaliyyət sahələri arasında sıx inteqrasiya, yaxud da ixtisaslaşma təşkil edir. Bu cür nisbi və muxtar təsnifata baxmayaraq, aqrar sektor hazırda milli iqtisadiyyatın tərkib hissəsi olmaqla yanaşı, milli və qlobal iqtisadiyyatın digər sahələri ilə bir sıra mühüm qarşılıqlı əlaqələrə malikdir. Kənd təsərrüfatı siyasətini hazırlamaq dedikdə, bu siyasətin məqsədini, obyekt və subyektini müəyyənləşdirmək, təşkilati, idarəedici və tənzimləyici alətlərin siyahısını təyin etməkdən ibarət bir fəaliyyət sistemi başa düşülür. Bu siyasət dövlətin qlobal iqtisadi siyasətinin bir hissəsi kimi nəzərdə tutulmalıdır.

Kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən fermerlərin məhsullarını bazara çıxararkən tez-tez rastlaşdıqları problemlər vardır. Bu problemləri ümumi şəkildə aşağıdakı kimi qruplaşdırmaq olar:

-Emal müəssisələri ilə birgə əlaqələr qurulması sahəsində yaranan problemlər;

-İstehsal etdikləri məhsulları ölkənin ən böyük ticarət mərkəzi hesab olunan Bakı şəhərinə gətirilməsi ilə əlaqədar yaranan problemlər;

-Regional satış bazarlarının çatışmazlığı problemi;

-Toxumların keyfiyyəti və satışı ilə əlaqədar yaranan problemlər;

-Xarici bazarlara, əsasən də qonşu ölkələrin bazarlarında məhsulun ixracı sahəsində yaranan problemlər;

-Qiymətlə əlaqədar yaranan problemlər. Məhsullar əsasən vasitəçilərin əli ilə bazarlara çıxarılır ki, bu da fermerləri qiymətdə güzət etməyə vadar eləyir. Əks halda qiymətlər bahalaşar ki, bu da satışın zəifləməsi ilə nəticələnə bilər;

-Məhsul anbarları ilə bağlı problemlər. Hazırda anbarlar çox azdır. Belə anbarlarda tələb olunan istifadə haqları çox baha olur. Odur ki, anbarların sayı çoxaldılmalıdır.

Bir sıra iqtisadçıların fikrincə, ölkəmizdə neft sektorunun zəifləməsi növbəti gəlirli sahə kimi kənd təsərrüfatının rolunun artması ilə müşahidə olunacaq. Lakin hal-hazırda hələ də kənd təsərrüfatı məhsullarının bazarlara çıxışı, ixracı və satışı istiqamətində çətinliklər qalmaqda davam edir. Bu problemlər gəlirləri azaltmaqla fermerelərin, kəndli tədsərrüfatlarının istehsal-maliyyə fəaliyyətinə mənfi təsir göstərir. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən daimi yarmarkalar təşkil olunsa da, bu cür fəaliyyət hesabına böyük itkiləri kompensasiya etmək mümkün olmur. Çünki bu yarmarkalarda satılan məhsullar ümumi kənd təsərrüfatı malları bazarının çox cüzi hissəsini təşkil edir. Başqa bir narahatçılıq yaradan məsələ isə geni modifikasiya olunmuş malların bazar dövriyyəsinə daxil olmasıdır. Daxili bazarlarda yerli məhsullar baha satılsa da, bu ticarətdən fermerlərin qazancı çox az olur. Satış bazarlarına rahat çıxışı olmayan istehsalçılar məcburiyyət qarşısında qalaraq öz mallarını aşağı qiymətlərlə vasitəçilərə satmalı olur. Ortalıqda qazanan tərəf həmin vasitəçilər-alverçilər olur. Belə vəziyyətlərdə kənd təsərrüfatı istehsalçılarının qarşılaşdığı itkilər, İnkişaf Etmiş Ölkələrin təcrübəsinə görə subsidiyalar, güzəştlər şəklində dövlət köməyi sayəsində kompensasiya edilir. Bu istiqamətdə dövlət tərəfindən təminatlı alış qiymətləri sistemi də tətbiq olunur. Lakin fikrimizcə, regional bazarların yaradılması və bu yöndə istehsalçıların

bazarlara çıxış yollarının sadələşdirilməsi fermerlərə verilmiş əlavə dəstək ola bilər.

Kənd təsərrüfatında qarşıda duran digər vacib problemlərdən biri də monopoliyanın yüksək səviyyədə olmasıdır. Bunun üçün dövlət müvafiq tədbirlər görsə də, yetərli deyildir. Monopoliyanın səviyyəsinin aşağı salınması üçün dövlət tərəfindən bazara iqtisadi müdaxilə edilməsinin faydası vardır. Kənd təsərrüfatı istehsalçılarına tətbiq olunan vergi güzəşt sisteminin davam etdirilməsi məqsədəuyğundur. Həmçinin yüngül və yeyinti avadanlıqlarının idxalında güzəştlərin tətbiq olunması yerinə düşərdi. Çünki belə addım kənd təsərrüfatı istehsalının təşviq olunmasına əlavə tövhə verə bilər.

Aqrar sektorun böyüməsi yolunda müşahidə olunan çətinliklərdən növbətisi ixrac sahibkarlığı sahəsindədir. Böyük itkilərə məruz qalmasın deyə, bu və ya digər səbəblərdən daxili bazarlarda mallarını sata bilməyən sahibkarlar xarici bazarlara çıxmaq məcburiyyətindədirlər. Kənd təsərrüfatı məhsullarının ixrac yolunun bağlanması, yaxud da bu istiqamətdə maneələr yaradılması gəlirləri onsuz da aşağı olan istehsalçıların maliyyə vəziyyətini daha da pisləşdirər. Məhsulunu realizə edə bilməyən aqrar sahibkarın növbəti təsərrüfat ilində istehsala marağının zəifləməyəcəyinə heç kim zəmanət verə bilməz. Odur ki, ixrac fəaliyyətinin məhdudlaşmasına zəmin yaradan hər cür addımlardan çəkinmək tövsiyyə olunur.

Kənd təsərrüfatını gəlirli sahəyə çevirmək istiqamətlərindən biri də əkinin strukturuna yönələn və onu tənzimləyən düzgün siyasətin aparılması ilə əlaqədardır. Bu sahədə böyük çatışmazlıq vardır. Əkinin strukturu tənzimlənmədiyinə görə hansı məhsulu, yaxud da hansı məhsuldan nə qədərini istehsal edəcəyinə dair aqrar istehsalçıların təsəvvürləri kortəbii şəkildə formalaşır. Belə vəziyyətdə yelkənsiz qayıq təsüratı bağışlayan aqrar sahibkarların təsərrüfat ilinin sonunda böyük risklərlə üzləşəcəyi istisna olunmur. Odur ki, iqtisadi rıçaqlardan istifadə etməklə bu sahədəki boşluqların doldurulması məqsədəuyğundur. Ölkə başçısının sərəncamına əsasən "Ərzaq Məhsulları Tədarük və Təchizatı" ASC yaradılsa da, bu strukturun yuxarıda qeyd edilən

məqsədlərin gerçəkləşməsi istiqamətində ciddi fəaliyyəti, hələki müşahidə olunmur.

### 3.2. Azərbaycanda regionlar üzrə əhalinin sosial-iqtisadi inkişaf siyasəti və rifah səviyyəsinin artırılması

Əhalinin faraş kənd təsərrüfatı, keyfiyyətli qida məhsulları ilə təmin olunması, onun maddi-rifah halının yaxşılaşdırılması hər bir dövlətin əsas vəzifələrindən biridir. Odur ki, kənd təsərrüfatı ölkənin sosial-iqtisadi inkişaf strategiyaysının əsas istiqamətlərindən biri kimi nəzərdən keçirilməlidir. Çünki bu sahəyə təsir etməklə daha çox insanın sosial vəziyyətinin yaxşılaşmasına nail olmaq mümkündür. Əksər regionların iqtisadiyyatında kənd təsərrüfatı əsas fəaliyyət sahəsidir. Deməli, regionlara yönəlik inkişaf proqramlarının həyata keçirilməsi bir sahə olaraq aqrar sektorun inkişafını da hədəfləyir. Bu mənada regionların inkişafı dair dövlət proqramlarının qəbul edilməsi heç də təsadüfi deyil. Həmçinin ötən müddət ərzində əhalinin gəlirlərinin artırılması istiqamətində əməli tədbirlər görülmüş, minimum əmək haqqının ölkə üzrə yaşayış minimumuna çatdırılması siyasəti davam etdirilmiş, əmək siyasəti və əməyin ödənilməsi sahəsində həyata keçirilən islahatlar nəticəsində işləyənlərin orta aylıq əmək haqqının ilbəil artması əhalinin həyat səviyyəsinin yüksəldilməsini təmin etmişdir. 2004-2018-ci illər ərzində orta aylıq əmək haqqı 7 dəfə, orta aylıq pensiyalar 9,4 dəfə artmışdır. Əhali gəlirləri artdığına görə ölkədə yoxsulluq səviyyəsi 5,1 faizə düşmüşdür (bax: qrafik 2).

**Qrafik 2. Orta aylıq əmək haqqı və yoxsulluq səviyyəsinin dinamikası**




**Mənbə**: Dövlət Statistik Komitəsi,(17.05.2019-cu il tarixli məlumatlarından götürülüb) http://stat.gov.az/

Həmin müddət ərzində həyata keçirilən xüsusi məqsədyönlü tədbirlərin nəticəsin olaraq ölkə üzrə 1,5 milyon daimi olan, 2 milyondan artıq yeni iş yerlər yaradılmış, bu iş yerlərinin də 72 faizdən çoxu regionların payına düşmüşdür. Bu səbəbdən də qeyd edilən dövrdə işsizlik səviyyəsi 5%-ə enmişdir (bax: diaqram-1). Bununla belə, regionların sosial-iqtisadi inkişafı dair Dövlət Proqramlarının icrası çərçivəsində investisiyaların regionlara yönəlməsi əhalinin məşğulluq səviyyəsinə müsbət təsir göstərsə də, bu istiqamətdə bir sıra problemlər hələ də həll olunmamış vəziyyətdə qalmaqdadır.

**Diaqram 1. 2014-2018-ci illər üzrə açılmış iş yerləri**




**Mənbə**:Dövlət Statistika Komitəsi,(17.05.2019-cu il tarixli məlumatlarından götürülüb) https://stat.gov.az

2018-ci ildə orta aylıq əmək haqqı ölkə üzrə 544,1 manata, Bakı şəhəri üzrə 788,1 manata yüksəlsə də, iqtisadi rayonlar üzrə bu göstərici aşağı səviyyədə qalmaqdadır. Respublikanın ən böyük iqtisadi rayonu olan Aran iqtisadi rayonunda orta aylıq əmək haqqı 304,1 manat səviyyəsində qərarlaşıb ki, bu da ölkə üzrə orta göstəricidən 240 manat və ya 44%, Bakı şəhəri üzrə orta göstəricidən isə 484 manat və ya 61,4% azdır (bax: cədvəl-11).

Şəki-Zaqatala iqtisadi rayonunda orta aylıq əmək haqqı səviyyəsinin ölkə üzrə orta göstəricidən kənarlaşması daha yüksəkdir (-46,96%). Lənkəran, Dağlıq-Şirvan iqtisadi rayonları da, bu baxımdan dərhal diqqət cəlb edir. Gəncə-Qazax, Quba-Xaçmaz iqtisadi rayonları ölkə üzrə orta göstəricidən, uyğun olaraq -39,4% və -39,1% kənarlaşıb.

**Cədvəl 11. Orta aylıq əmək haqqının iqtisadi rayonlar üzrə paylanması**

| Orta aylıq əmək haqqının iqtisadi rayonlar üzrə paylanması | | | | | | |
|---|---|---|---|---|---|---|
| İqtisadi rayonlar | | 2018-ci ildə orta aylıq nominal əmək haqqı (manat) | Bakı şəhəri üzrə orta aylıq əmək haqqı ilə müqayisədə | | Respublika üzrə orta aylıq əmək haqqı ilə müqayisədə | |
| | | | Manatla ("-") - azdır, ("+") -çoxdur | Faizlə ("-") - azdır, ("+") - çoxdur | Manatla ("-") - azdır, ("+") -çoxdur | Faizlə ("-") - azdır, ("+") -çoxdur |
| | Respublika üzrə | 544,10 | x | x | x | x |
| | Bakı şəhəri | 788,10 | x | x | x | x |
| 1 | Abşeron iqtisadi rayonu | 404,10 | -384,00 | -48,72 | -140,00 | -25,73 |
| 2 | Gəncə-Qazax iqtisadi rayonu | 329,70 | -458,40 | -58,17 | -214,40 | -39,40 |
| 3 | Şəki-Zaqatala iqtisadi rayonu | 288,60 | -499,50 | -63,38 | -255,50 | -46,96 |
| 4 | Lənkəran iqtisadi rayonu | 302,20 | -485,90 | -61,65 | -241,90 | -44,46 |
| 5 | Quba-Xaçmaz iqtisadi rayonu | 331,20 | -456,90 | -57,97 | -212,90 | -39,13 |
| 6 | Aran iqtisadi rayonu | 304,10 | -484,00 | -61,41 | -240,00 | -44,11 |
| 7 | Yuxarı Qarabağ iqtisadi rayonu | 294,90 | -493,20 | -62,58 | -249,20 | -45,80 |
| 8 | Kəlbəcər-Laçın iqtisadi rayonu | 331,40 | -456,70 | -57,95 | -212,70 | -39,09 |
| 9 | Dağlıq Şirvan iqtisadi rayonu | 307,00 | -481,10 | -61,05 | -237,10 | -43,58 |
| 10 | Naxçıvan Muxtar Respublikası | 433,00 | -355,10 | -45,06 | -111,10 | -20,42 |

**Mənbə**: DSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanıb

Orta aylıq pensiya məbləğinin ölkə üzrə paylanmasını özündə əks etdirən xəritə regionlarda əhalinin sosial vəziyyəti üzrə problemləri açıq şəkildə göstərir (bax: xəritə-3).

Bakı, Sumqayıt şəhərləri və Siyəzən rayonu istisna olmaqla 2017-ci ildə iqtisadi rayonlarda orta aylıq pensiya məbləği 190 manatdan az olub. Halbuki, pensiyaların orta aylıq məbləği qeyd edilən dövrdə ölkə üzrə 205,5 manat təçkil edib. Deməli, iqtisadi rayonlar bu göstəriciyə görə ölkə üzrə orta göstəricidən aşağı səviyyədədir. Sabirabad, Biləsuvar, Cəlilabad, Masallı, Lerik, Yardımlı, Lənkəran, Xaçmaz, Ağdaş, Bərdə, Gədəbəy, Tovuz, Balakən rayonları üzrə orta aylıq pensiya məbləği daha azdır (170 manata qədər).

**Xəritə 3. 2017-ci il üzrə şəhər və rayonlar üzrə təyin olunmuş pensiyaların orta aylıq məbləği**




**Mənbə**:Dövlət Statistika Komitəsi,(17.05.2019-cu il tarixli məlumatlardan götürülüb) http:// www/stat.gov.az

Aparılan təhlil göstərir ki, ölkənin pərakəndə ticarət dövriyyəsinin 2018-ci ildə 56%-dən çoxu Bakı şəhərində cəmləşib (bax: diaqram-2). On iqtisadi rayonun pərakəndə ticarət bazarında payı 44% olub. Hər iqtisadi rayona ümumi ticarətdən orta hesabla 4,4% pay düşür. Lakin Şəki-Zaqatala (3,4%), Quba-Xaçmaz (3,4%), Abşeron (3,9%), Dağlıq-Şirvan (1,9%) iqtisadi rayonlarının ümumi ticarətdəki payı bu orta göstəricidən də aşağı səviyyədədir.

Beləliklə, regionlar üzrə bir sıra göstəricilərin təhlili göstərir ki, sosial-iqtisadi inkişaf səviyyəsi ölkə özrə qeyri-bərabər paylanıb. Bir çox göstəricilərin araşdırılmasından belə nəticə hasil olur ki, Bakı şəhəri üzrə regionların inkişaf səviyyələri arasında qeyri-bərabərlik dərinləşməkdədir. Regionların sosial-iqtisadi inkişafı dair 2004-2018-ci illərdə həyata keçirilmiş dövlət proqramları regionlarda təbii və iqtisadi resurslardan səmərəli istifadə üzrə kompleks tədbirlərin həyata keçirilməsini, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsini və aqrar sektorun inkişafını nəzərdə tutsa da, Regionlar ilə Bakı şəhəri arasında, hətta regionların öz arasında tarazlı inkişafı təmin etmək baxımından problemlər bu gün də qalmaqdadır.

**Diaqram 2. Pərakəndə ticarət dövriyyəsinin iqtisadi rayonlar üzrə strukturu**




**Mənbə:** Dövlət Statistika Komitəsi,(17.05.2019-cu il tarixli məlumatlardan götürülüb) http: www/stat.gov.az

Bu istiqamətdə əhəmiyyətli dəyişikliklərə nail olmaq üçün daha ünvanlı və daha təsirli islahatlara zərurət var. İqtisadiyyatın şaxələndirilməsini sürətləndirən inkişaf proqramlarının hazırlanması və həyata keçirilməsi faydalı olardı. Bu gün Regionların həyatında oynadığı rola görə kənd təsərrüfatı iqtisadiyyatın dörd prioritet sahəsindən birinə çevirib. Bu sahə Azərbaycanın ən çox işçi qüvvəsinin çalışdığı sahədir. Əhalinin işçi qüvvəsinin 37%-ə qədəri bu sektorda çalışır. Buna baxmayaraq bu mühüm sahənin ümumi iqtisadiyyatda payı təxminən 6%-dir. Texnologiyalar və internet əsrində yaşadığımızı nəzərə almalıyıq. Belə ki, texnologiyalar və sürətli internet, həm də kənd təsərrüfatının inkişafı üçün böyük imkanlar açır. Böyüməkdə olan şəhərlər, dəyişməkdə olan qida rasionu, qida emalı, qida ticarəti, qida istehlakı kimi məsələlərlə bağlı gündəmə yeni çağırışlar gəlməkdədir. Ölkələr inkişaf etdikcə və gəlirlər artdıqca, ərzaq xərclərinin ümumi istehlak xərclərində payı azalan istiqamətə dəyişir. Digər mal və xidmətlərin istehsalına kömək etmək üçün fermerlər fermadan kənar işlərlə məşğul olmağa can atırlar. Halbuki, istehsal prosesinə innovasiyaları gətirmək yolu ilə də yüksək gəlirlər qazanmaq mümkündür.

Bu təhlil məşğulluğun təmin olunması sahəsində kənd təsərrüfatında bu gün də böyük potensial imkanların olmasını, gəlirlərin artmasında kooperasiya əlaqələrinin əhəmiyyətini göstərir. Ona görə də gənclərin bu yöndə biznes fəaliyyətə istiqamətləndirilməsi əhəmiyyətlidir. Məqsəd regionları və deməli, kənd təsərrüfatı sektorunu, onun yuxarı və aşağı istiqamətli fəaliyyət sahələrini innovasiya yolu ilə rəqabət qabiliyyətli sahəyə çevirmək, dövlət investisiyaları hesabına kənd təsərrüfatı malları istehsalını və bu sahəyə xidmət göstərən sektoru gənc və yaşlı fermerlərə kifayət qədər cəlbedici şəkildə təqdim etmək və rəqabət mühiti yaratmaq olmalıdır. Bu, yoxsulluğun aradan qaldırılması və paylaşılan rifahı artırmaq üçün çox vacib istiqamətdir.

### 3.3. Aqrar sahədə İKT-nin inkişafı və mövcud vəziyyətə cavab verən "Elektron kənd təsərüffatı sistemi"nin qurulması, sahibkarlara güzəştli kreditlərin tətbiqi

Bəşəriyyətdə qloballaşma getdikcə, xüsusən də yeni texnologiyalar, yeni düşüncələr həyatımıza daxil olduqca, İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) formalaşdıqca, iqtisadiyyatda tələb amilləri dəyişir. Keçən əsrdə neftə, qızıla tələb yüksək idisə, hal-hazırda dünyada tələblər informasiya kommunikasiya texnologiyalarına yönəlməkdədir. Bu gün neft sektoruna tələb kifayət qədər yüksək olsa da, ölkələr neft asılılığında qalmamağa çalışırlar. Çünki təbii resurlarlardan asılı qalan ölkələrin iqtisadiyyatının davamlı inkişafı müasir dövrdə mümkün deyil və alternativ kimi ölkələrə, xüsusən də respublikamıza elm tutumlu məhsul istehsal edilməsi məsləhət görülür. Bu səbəbdən İKT-nin rolu vacibdir və onun artırılması üçün əsas ünsürlərdən sayılan korporativ informasiyanın təşkil edilməsi və onlardan istifadə səviyyəsinin yüksəldilməsi çox əhəmiyyətlidir.

Hal hazırda dünya ölkələrində İKT idarəetmədə, bank və maliyyə sahələrində geniş istifadə edilir. Sənaye sektoru məhsullarının istehsalında informasiya texnologiyalarından (İT) geniş istifadə olunur. Lakin kənd təsərrüfatı sahəsində İT-nin inkişafı hələ də qənaətbəxş səviyyədə deyil. Demək olar ki, son

illərdə bir sıra aqrar sahə məhsullarında - tərəvəz bitklərinin süni texnologiya ilə yetişdirilməsi, saxlanılması və qablaşdırılması yeni texnologiyalar vasitəsi ilə əldə olunmuşdur.

İlk dəfə İKT-nin tətbiqi gəlirli və artımlı sahə kimi görünsə də, müasir şəraitdə İKT-nin inkişafına yeni investisiyaların cəlb olunmasında bir sıra problemlər meydana çıxır. Bununla belə, müasir dövrdə dünya İKT sektoruna hər il orta hesabla 1 trln dollar vəsait yönəldir. Qlobal səviyyədə ölkələrin İKT-yə nə qədər vəsait ayırmasının çox böyük önəmi vardır. Bu vəziyyət coğrafi mövqeyindən asılı olmayaraq bütün ölkələr üçün keçərlidir. Bu sahəyə investisiya qoyuluşlarının effektivliyi üzrə iqtisadiyyatda müxtəlif yanaşmalar vardır. Onlardan biri ölkə və ya hər hansı müəssisə üzrə hazırki vəziyyətin nəzərə alınmasıdır və bu göstəricilər vasitəsi ilə onun qiymətləndirilməsi meyarıdır. Bu meyarda İKT tətbiqi və maliyyə əmsallarının qiymətləndirilməsi baş tutur. Lakin bu yol da İKT tətbiqinin tam qiymətlənməsinə imkan yaratmır. 2-ci qrup meyarda ekspert üsulları istifadə edilir. Bu yolla kənd təsərrüfatında İKT texnologiyalarının tətbiqi zamanı təxminən nə qədər gəlir əldə olunması müəyyən edilə bilər. İKT-nin kənd təsərrüfatına təsirinin bir istiqamətdə deyil, hər bir mərhələ üzrə qiymətləndirilməsi vacibdir. Bu xüsusən də ilbəil inkişaf edən İKT sektoru üzrə düzgün istifadəyə səbəb olur. Dünya ölkələri üzrə İKT-nin tətbiqini götürsək, ABŞ-da bu sahədə hərbi sektora geniş yer verilmişdir. Son illərdə Yaponiya, Cənubi Koreya, Sinqapur, Çin, Hindistan və bir sıra ərəb ölkələrinin payı çoxalmışdır.

Bütün sahələrdə, xüsusən də kənd təsərrüfatında İKT-nin geniş tətbiqinə, onun müasir tələblərə cavab verməsi məsələsinə diqqət daha da artırılmalıdır. İnkişaf Etmiş Ölkələrin təcrübəsindən istifadə etməklə elektron kənd təsərrüfatı, elektron idarəetmə formaları yaradılmalıdır. İKT-nin tətbiqi yeni iqtisadiyyat yaradılmasına, onun qloballaşmasına, təsiredici faktorların vəziyyətinin dəyişiminə, onun inkişaf amillərinin daha da müasir olmasına və geniş müstəvi əhatəsinə gətirib çıxarmışdır. Hal-hazırda iqtisadiyyat İKT təsiri nəticəsində öz tərəfdaşlarından ən vacib xüsusiyyətləri alaraq, yeni informasiya bazasında

inkişafa başlamışdır. Onun tətbiqi inkişaf zamanı material faktorlarında rol dəyişimi yaradır. Əvvəlki cəmiyyətdə əsas mövqe material faktorlarının istehsalı, bölüşdürülməsindən ibarət idisə, hal-hazırkı cəmiyyətdə əsas yerdə informasiya toplanması, ötürülməsi durur. Müasir vəziyyətdə İKT-nin sahələr üzrə tətbiq edilməsi hər bir sahibkarın əsas vəzifələrindəndir. Lakin bu da vəsait problemini ortaya çıxarır.

Yeni dövrdə hər bir müəssisə öz fəaliyyət qabiliyyətini saxlamaq üçün effektiv informasiya sistemlərinə sahib olmalıdır. İKT-nin tətbiq edilməsi ilə yaranmış effektiv informasiya sistemləri təsərrüfat daxilində istehsal və idarəetmənin təşkili ilə xarici informasiyada resuralara yol açmaqdadır.

Hazırkı dövrdə təsərrüfatlarda məhsul və maliyyə vəziyyəti barəsində məlumatları əldə etmədən mövcud olan təsərrüfat məsələlərinin həlli mümkün deyildir. Ölkəmizdə də bu yöndə çox vacib işlər görülmüşdür və hal hazırda da görülməkdədir. Respublikada "elektron hökumət" forması sürətlə inkişaf edir. Buna baxmayaraq, bütün dövlət orqanları daxilində elektron xidmətləri üzrə say və növlər getdikcə artırmalıdırlar. Respublika Prezidenti tərəfdən imzalanmış sərəncam vasitəsilə Elektron Hökumət istiqamətli Dövlət Agentliyi təşkil edilmişdir. Burada işlər mərkəzləşdirilmiş formada icra ediləcəkdir. Nəticədə səmərəliliyi artacaqdır.

Azərbaycanda innovasiya istiqamətli iqtisadiyyatın yaranması üçün İKT-nin rolunu artırılması yönündə çox istiqamətli tədbirlər keçirilir. Bu səbəbdən Respublika Prezidenti Rabitə və İnformasiyalar Texnologiyaları Nazirliyinin nəzdində Texnologiyaların İnkişafı Dövlət Fondunun yaranması üçün sərəncam imzalamışdır. Nəticədə, həmin fond ölkəmizdə İKT məhsulu istehsalınnda inkişafı daha da stimullaşdıracaq, sahibkarlara daha uzunmüddətli və güzəştli kreditlər verəcəkdir. Həmçinin bu fond vasitəsi ilə İKT -də dövlət yönümlü siyasət icra ediləcək, sahibkarlıq sektoru dəstəklənəcək, innovasiya layihələri stimullaşacaq, müasir formalı infrastrukturun inkişafına təkan olacaq, sahibkarlara maliyyə dəstəkləri veriləcək, xüsusən kənd təsərrüfatına yerli və xarici investisiyaların

cəlbi artırılacaqdır. Nəticədə, İKT sahəsində istehsal və idxal daha da genişlənəkdir.

Kənd təsərrüfatında informasiya-kommunikasiya texnologiyaları daha çox elektron kənd təsərrüfatı kimi tanınır, Bu texnologiyalar təkmilləşdirilmiş informasiya və kommunikasiya prosesləri vasitəsilə kənd təsərrüfatının inkişafına yönəlib. Daha konkret olaraq, elektron kənd təsərrüfatı informasiya və kommunikasiya texnologiyalarından (İKT) istifadə etməklə əkinçilik sahəsində innovativ yolların konseptualaşdırılmasını, dizaynı, inkişafı, qiymətləndirməni və tətbiqi nəzərdə tutur. İKT sahəsinə cihazlar, şəbəkələr, mobil telefonlar, xidmətlər və proqramlar daxildir. Standartların, normaların, metodologiyaların və vasitələrin qorunması, fərdi və institusional imkanların inkişafı və siyasətin dəstəklənməsi e-kənd təsərrüfatının əsas komponentləridir.

Azərbaycan Respublikası Prezidentinin 16.04.14 tarixli 152 nömrəli "Kənd təsərrüfatında idarəetmədə təkmilləşmə və institusional islahatlarla bağlı tədbirlər haqqında" fərmanına əsasən kənd təsərrüfatı sahəsində şəffaflıq, hesabatlılıq və operativliyin yaxşılaşdırılması üçün yaradılan Elektron kənd təsərrüfatı informasiya sisteminin yaradılma prosesi bitmək üzrədir. Hətta Nazirlik strukturlarında və onun tabeliyində olan qurumlarda da bunun tətbiqinə başlanılmışdır. Qloballaşma və ərzaq bazarlarının inteqrasiyasının davamlı artması kənd təsərrüfatı sektorunda rəqabətin və effektivliyin artmasına gətirib çıxaracaq və daha çox kiçik tərəfləri tədarük zəncirlərinə daxil etmək üçün unikal imkanlar yaradacaq. Eyni zamanda, inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatının əkinçilik bölməsi qiymət çökmələrinə, iqlim dəyişikliyinə və infrastrukturun davamlı çatışmazlığına məruz qalan bir sıra müasir və ciddi problemlərlə üzləşir. Fermerlərə qərar qəbul etməkdə İKT böyük rol oynayır. İKT vasitəsilə fermerlər əkinçilik, hava şəraiti, məhsulların yeni növləri və istehsalın və keyfiyyətə nəzarətin artırılması üçün yeni yollarla bağlı son məlumatlar əldə edə bilərlər. İnformasiya və kommunikasiya texnologiyaları fermerlərə dəqiq və düzgün məlumatları vaxtında verə bilər. Hətta IKT vasitəsilə qəbul olunan qərarlara

verilən dəstək sayəsində əkinçilər istehsal proqramlarını planlaşdıra, daaha yaxşı əkinçilik təcrübələri mənimsəyə, daha sərfəli qiymətlərlə mallarını sata bilərlər.

Respublikada beynəlxalq ekspertlərin iştirakı ilə 7 sub-modul ilə müvafiq proqram hazırlanmışdır. 4,87 mln hektar kənd təsərrüfatı torpaqları, o cümlədən 1,59 mln hektar əkin sahələri, 105 min hektar çoxillik bağlar, 1,61 mln hektar digər kənd təsərrüfatı sahələri haqqında qrafik məlumatlar Avropa standartlarına uyğun şəkildə coğrafi informasiya sisteminə daxil edilmişdir. İstehsalçıların subsidiyalara dair müraciətləri cari ildən etibarən "E-Kənd təsərrüfatı" sistemi vasitəsilə həyata keçiriləcəkdir. Əlavə olaraq, "Aqrolizinq" ASC elektron qeydiyyat sisteminə keçirilməsi və fəaliyyətin uyğunlaşdırılması çərçivəsində əməliyyatlar uğurla başa çatdırılmışdır. Tətbiqlər "Aqrolizinq" ASC –nin rəsmi internet saytları vasitəsilə yaradılan xidmətlər informasiya vasitəsilə onlayn qəbul edilir. Kənd təsərrüfatının mühasibat uçotunu, qeydiyyatını nəzərdə tutan elektron informasiya sistemi vasitəsilə maşınlar, traktor və mexaniki vasitələr qeydiyyata alınır.

İKT-nin təsirləri müxtəlifdir və onlar bazarın rəqabətliliyinə müxtəlif yollarla təsir göstərirlər. Bununla belə, texnologiya insanlarla və qurumlara qarışmışdır. İKT-nin müsbət təsirləri kataloqlaşdırılıb müzakirə olunur, baxmayaraq ki, bir çox kəndli fermerlər hələ də İKT-nin istifadəsinə və imkanlarına malik deyildirlər. Kənd təsərrüfatı böyük iqtisadi rola malik olan sektorlardan biridir. İKT bir çox cəhətdən kənd təsərrüfatında inqilab edə biləcəyini proqnozlaşdırır. Bu gün isə İKT layihələri hələ də kənd təsərrüfatı məlumatlarının yayılmasında və digər sahələrdə böyük irəliləyiş əldə etməmişdir. Kənd təsərrüfatı layihələri üçün İKT dəqiq qiymətləndirilməlidir.

Birləşmiş Millətlər Təşkilatının (BMT) məlumatlarına görə "E-Kənd təsərrüfatı" informasiya texnologiyaları kənd təsərrüfatının inkişafında mühüm mərhələ hesab olunur. Standartlaşdırmanın, standartların və normaların dəstəklənməsi, texniki dəstək, potensialın artırılması, təhsilin inkişafı elektron kənd təsərrüfatı üçün əsas komponentlərdir. Dünyada geniş tanınan elektron kənd təsərrüfatı tətbiqləri ilə bağlı çox sayda fəaliyyət növləri mövcuddur. İnternet və

əlaqəli texnologiyalardan istifadə edərək kənd təsərrüfatı məlumatlarının, bilik xidmətlərinin (yəni bazar qiymətləri, uzadılması xidmətləri və s.) təqdim edilməsi "E-Kənd təsərrüfatı" təsvir sisteminin vasitəsi ilə müəyyən edilir. Kənd təsərrüfatında "E-Kənd təsərrüfatı"nın daha qabaqcıl tətbiqlərinə aşağıdakılar aid edilir:

-peyk sistemləri;

-Qlobal Mövqe Sistemləri (GPS), Coğrafi informasiya sistemləri və ya GPS (bu sistemlər kənd təsərrüfatında, xüsusilə həssas əkinçilikdə geniş istifadə olunur).

Torpaq İKT sistemində rəqəmsal olaraq əks etdirilir və topoqrafiya, kontur kimi müvafiq geodeziya məlumatları torpağın daha asan təhlil edilməsi üçün digər statistik məlumatlarla birləşdirilir. GPS sistemi bitki haqqında tarixi məlumatlar və nümunələrdən istifadə edərək əkin haqqında məlumatlar təqdim edir. Hazırda atomatik sağım sistemləri, insan əməyinə ehtiyac olmadan süd sığınını həyata keçirən süd sistemləri kompüter və elektron sistemlər kimi geniş şəkildə istifadə olunmaqdadır. Sağım prosesinin tam avtomatlaşdırılması kənd təsərrüfatı robotu, kompleks sürü idarə proqramı və ixtisaslaşmış kompüterlər tərəfindən idarə olunur. Fermerlər, kompüter tərəfindən toplanan məlumatları istifadə edərək sürü idarəçiliyini həyata keşirir. Müxtəlif heyvan yemlərinin süd verimine olan təsirini təhlil edərək, fermerlər optimal süd verimini əldə etmək üçün uyğun yem rasionları düzəldə bilirlər. Məlumatlar fərdi səviyyədə mövcud olduğundan, hər bir inək izlənilə və araşdırıla bilir. Hətta, fermerlər müxtəlif xəstəlik və ya xəsarətə səbəb ola bilən qeyri-adi dəyişikliklərdən də xəbərdar ola bilərlər.

Müasir kontekstdə İnformasiya və Kommunikasiya Texnologiyası sadəcə məlumatların saxlanmasına, emalına, yayılmasına və məlumatlandırılmasına kömək edən texnologiyaların toplusu kimi təsbit edilə bilər. Geniş zolaqlı əlaqənin böyüməsinə, yerləşdirilməsinə "İnternet Şəbəkələri" (IOT), geniş analitik, əlverişli cihaz və yenilikçi proqramlara isə rəqəmsal cəmiyyət deyilir.

G20 ölkələri Kənd Təsərrüfatı Nazirlərinin 2017-ci il Bəyannaməsi kənd təsərrüfatında təkmilləşdirilmiş ərzaq zəncirinin səmərəliliyi, məhsuldarlığı və

davamlılığı üçün İKT-nin potensialı və əhəmiyyətini artırır. Hal-hazırda xalqın gündəlik həyatında informasiya və kommunikasiya texnologiyalarının tətbiqi və istifadəsi əlçatan səviyyədədir. Keçmişə baxdığımız zaman kənd icmalarının yalnız televiziya və radio kimi elektron texnologiyalardan istifadə edə bilmələri anlaşılır. Amma bu gün, hətta ucqar kənd yerlərində yaşayan insanların internet və mobil bazlı texnologiyalara çıxış imkanları vardır. (https://az.wikipedia.org)

Azərbaycanda əsas gəlir mənbələrindən biri olan kənd təsərrüfatı sektorunun inkişafı məqsədilə çoxsaylı strategiyalar hazırlanıb icra edilsə də, kənd təsərrüfatı istehsalında istifadə olunan ənənəvi üsullar uzun müddətdir ki, fermerlər tərəfindən tətbiq olunur. Bu gün yeni texnologiyaların yaranması və geniş yayılması və kənd təsərrüfatı sektorunda istifadə səviyyəsinin artması yaxın gələcəkdə aqrar sektorun simasının tamamilə dəyişəcəyinə zəmin yaradır. Kənd təsərrüfatı ilə İKT-nin inkişaf etməkdə olan tendensiyaları səmərəli informasiya və kommunikasiya prosesləri vasitəsilə aqrar məhsulların istehsalının artırılmasına kömək edəcək. Əhalinin əsas gəlir mənbələrindən biri kənd təsərrüfatı olduğundan, yoxsulluğun azaldılması, həm də bu sahədə məhsuldarlığın artırılmasından keçir. Aqrar sektorda kənd icmaları üstünlük təşkil etdiyinə görə insanlar burada istehsalı artırmağın hələ də ənənəvi yollarından istifadı edirlər. Bu sahədə diqqət çəkən nəticələrə imza atmaqdan ötrü ən yaxşı strategiyalardan biri informasiya və kommunikasiya texnologiyalarının yerləşdirilməsini öyrənmək və tətbiq etməkdir. Bunun üçün problemin təbiətini öyrənmək lazımdır. Bu tədqiqatın məqsədi kənd təsərrüfatının məhsuldarlığını artırmaq və kənd təsərrüfat proseslərinin inkişafı üçün yeni texnologiyaların tətbiqi və yoxsulluğun azaldılmasıdır. Deloitte tərəfindən bildirilmişdir ki, İKT-nin kənd təsərrüfatına necə kömək edə biləcəyini müəyyənləşdirərkən, kənd təsərrüfatının həyat dövrünü üç mərhələli bir proses kimi qiymətləndirmək faydalıdır:

-İlkin mərhələ. Bu mərhələdə istehsal olunan məhsul seçilir, torpaq seçilir, aqrotexniki təqvim dəqiqləşdirilir, kreditə çıxış yolları konkretləşdirilir;

-Bitki yetişdirilməsi mərhələsi. Bu mərhələdə torpaq şuma hazırlanır, səpin həyata keçirilir, suvarma aparılır, gübrələmə və zərərvericilərə qarşı mübarizə aparılır və s.;

-Üçüncü mərhələdə marketinq, nəqliyyat, qablaşdırma, emal və sair kimi məsələlər həll olunur. (İbrahimov İ.H, 2015 s.86)

Kənd təsərrüfatı sisteminin prioritetlərinə və çağırışlarına cavab vermək üçün "E-Kənd təsərrüfatı" sisteminin necə istifadə ediləcəyini öyrənmək və bilmək lazımdır. Bu sistem gələcək əkinçiliyin vəziyyətinin necə olacağını nəzərdə tutan sualları cavablandırmağa imkan verir. "E-Kənd təsərrüfatı" sistemi aşağıdakı məsələlərə cavab verəcək:

- kənd təsərrüfatı məqsədlərinə nail olmaq və mövcud problemləri aradan qaldırmaq;
- kənd təsərrüfatında iştirak edən maraqlı tərəflərin həyatına və fəaliyyətinə müsbət dəyişikliklər gətirmək;
- kənd təsərrüfatı sektorunda investisiya potensialının yaxşılaşdırılması və kənd təsərrüfatı icmalarına fərdi və institusional riskləri azaltmaq.

Torpaqdan istifadə kənd təsərrüfatında mühüm məsələlərdəndir. Bu səbəbdəndir ki, "E-Kənd təsərrüfatı"nın torpaqdan istifadəyə tətbiqi zəruri hala çevrilmişdir. Coğrafi İnformasiya Sistemləri (CİS) və Uzaqdan Müşahidə (UM) metodları müxtəlif İKT alətləri arasında torpaq planlaşdırma və idarəetməsi üçün iki əsas vasitə hesab olunur. CİS müxtəlif mənbələrdən götürülən bir çox məlumatları bir yerə toplamağa imkanı verir. Bu imkan müəyyən bir əraziyə aid, lakin müxtəlif dəyərlərə və üstünlüklərə malik olan istifadəçilərin torpaq mübahisələri zamanı konsensusa nail olmaq baxımından çox faydalı ola bilər. Eynilə RS texnikaları, xüsusilə vahid bir təşkilatın geniş ərazinin monitorinqinə cavabdeh olduğu zaman torpaq ehtiyatlarının (məsələn, bitki örtüyü, su obyektləri və s.) monitorinqi üçün dəyərli bir vasitə hesab olunur. Torpağın hazırlanması və əkilməsinə dair informasiya sistemi istifadəçiyə əkinçilik üçün xüsusi torpaqların necə hazırlanacağı, uyğun əkin üsulları barədə xüsusi məsləhətlər verir.

2018-ci il 15-17 noyabr tarixlərində E-Kənd Təsərrüfatı Problemləri Forumu keçirilmişdir. Bu Forum Qida və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və Beynəlxalq Telekommunikasiya İttifaqı (İTİ) tərəfindən təşkil edilmişdir. Yığıncaq Çinin Çin Kənd Təsərrüfatı Nazirliyi və Çin Əkinçilik Mühəndisliyi Akademiyası (CAAE) ilə birgə keçirilmişdi. Forum 40 ölkədən 250-dən çox iştirakçını, əkinçilik və İKT sektorunun kənd təsərrüfatı həlləri üçün İKT-nin inkişafı və yerləşdirilməsi ilə məşğul olan 50-dən çox spikeri əhatə etmişdir. Tərəfdaşları bir araya gətirməklə yanaşı, Forum həmçinin E-Kənd Təsərrüfatının uğurlu həlləri ilə bağlı məlumatları bölüşmək və onların həyata keçirilməsini genişləndirmək yollarını müəyyənləşdirməyə çalışmışdır. E-kənd təsərrüfatı strategiyası və onun digər hökumət planları ilə uyğunlaşdırılması e-kənd təsərrüfatı layihələrinin və xidmətlərinin təcrid olunmasının qarşısını almaq üçün nəzərdə tutulmuşdur. (http://www.agro.gov.az)

Elektron kənd təsərrüfatı İnformasiya Cəmiyyəti Ümumdünya Sammitinin Bəyannaməsində və fəaliyyət planında müəyyən edilmiş hərəkət xətlərindən biridir. 18 noyabr 2005-ci ildə nəşr olunan "İnformasiya Cəmiyyəti üçün Tunis Gündəmi" BMT-nin Cenevrə Fəaliyyət Planının həyata keçirilməsində iştirak edən rolların önəmli rol oynadığını vurğulamışdır. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı e-kənd Təsərrüfatı üzrə İKT Tətbiqləri çərçivəsində fəaliyyət istiqaməti ilə əlaqədar fəaliyyətlərin təşkili üçün məsuliyyət daşıyır. Bir çox İKT kənd təsərrüfatında məhsuldarlığın və gəlirlərin artmasını, risklərin azaldılmasını təmin etməklə kənd təsərrüfatı mütəxəssislərinə kənd təsərrüfatının inkişafına kömək etmək üçün müxtəlif səviyyəli müvəffəqiyyətlər qazandırmış və uğurla sınaqdan çıxmışdır.

Kənd təsərrüfatı sektorunda qarşılaşdığımız əsas problem əhali artımı və istehsal üçün lazım olan təbii ehtiyatların məhdud olmasıdır. Buna təsir göstərən əsas amillər suyun çatışmazlığı, torpağın məhsuldarlıq səviyyəsinin azaldılması, iqlim dəyişmələrinin təsirləri və keçmişdə becərilən məhsuldar torpaqların azalmasıdır. Bununla belə, artan tələbat və yüksək keyfiyyətli məhsullara olan tələbat kənd icmalarının yaşayış səviyyəsinin yaxşılaşdırılmasına imkan yaradır.

Buna görə də kənd təsərrüfatı sektoru həm kənd, həm də şəhər yoxsulluğuna qarşı mübarizəyə gətirib çıxaracaq və bununla da davamlı inkişafa təkan verəcək məhsuldarlığın artırılması məqsədi ilə inkişaf etdirilməlidir.

Kənd təsərrüfatı ilə məşğul olan insanlar keyfiyyət standartları və tənzimləmələri ilə yüksək keyfiyyətli məhsullar istehsal etməyə məcburdurlar. Buna nail olmaq üçün ən yaxşı strategiyalardan biri İnformasiya və Kommunikasiya Texnologiyalarında sürətli inkişaf edən texnologiyaların tətbiqi və istifadəsidir. Bu tətbiqin kənd təsərrüfatında iştirak edən maraqlı tərəflərin həyatında yoxsulluğun azaldılmasına və inkişafına gətirib çıxardığını sübut etmək üçün kifayət qədər sübutlar mövcuddur. Bəlkə də əkinçilik proseslərinin müxtəlif səviyyələrində İKT-nin müvafiq istifadəsi səmərəliliyin yaxşılaşmasına və məhsuldarlığın artmasına səbəb olacaqdır.

Aqrobiznes Assosiasiyası (GABA), 2016-cı ilin iyul ayında Smart Azərbaycan Kənd Təsərrüfatı (SAF) layihəsinin həyata keçirilməsinə başlamışdır. ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) tərəfindən maliyyələşdirilən SAF hədəf zonaları Qərb İqtisadi Bölgəsinin (Gəncə-Qazax) inzibati əraziləridir. SAF-in ümumi məqsədi dəyər zəncirinin və müasir texnologiyaların tətbiqi və yeniliklərin təkmilləşdirilməsi vasitəsilə Respublika iqtisadi rayonlarında davamlı kənd təsərrüfatının inkişafına nail olmaqdır. Bu, neft sektorundan asılılığı aradan qaldıracaq və əhalinin 37 faizə qədərinin işlədiyi kənd təsərrüfatı sektorunun genişlənməsini təmin edəcəkdir. SAF layihəsinin məqsəd və vəzifələrini müəyyən etmək üçün GABA hədəf bölgənin vəziyyəti və yerləşmə təhlilini keçirmişdir. USAID-in məqsədləri və Azərbaycan hökumətinin proqramlarında göstərilən məqsədlər də nəzərə alınmışdır:

-2014-2018-ci illər üzrə Regional Sosial-iqtisadi İnkişaf üzrə Dövlət Proqramı kənd təsərrüfatı emalı bölmələrinə, eləcə də yeni texnologiyalara investisiyalar vasitəsilə regional disparitetlərin azaldılmasını müdafiə edir, daha da ixracata yönəldir;

-Layihə davamlı iqtisadi inkişafın təmin edilməsi və əhalinin ən kasıb təbəqələrinin gəlir əldə edən imkanlarını artırmaq üçün "Azərbaycan 2020-ci il:

Gələcəyə baxış İnkişaf Konsepsiyasının qeyri-neft sektorunun inkişafı və ərzaq təhlükəsizliyi komponentinə tam uyğunlaşdırılıb;

-Kooperativlər haqqında qəbul edilmiş qanun kənd təsərrüfatına kooperativ elementləri təqdim edəcəkdir. Qanun kənd təsərrüfatı sektorunu stimullaşdırmaq və onların hüquqi, təşkilati və iqtisadi statusu müəyyənləşdirmək üçün kooperativ və birliyin yaradılmasını (istehsal, marketinq və kredit üçün) tənzimləyir.

2016-2020-ci illər Strateji Yol Xəritəsində əlverişli kənd təsərrüfatı mühitinin yaranacağı gözlənilən doqquz strateji məqsəd var. Bu strateji məqsədlər davamlı qida təhlükəsizliyini gücləndirir, kənd təsərrüfatı dəyər zənciri istehsalının potensialını artırır, kənd təsərrüfatı sektorunun bazar inkişafını təmin edir, resursların və maliyyələşmənin asan əldə olunmasını təmin edir, kənd təsərrüfatında təhsilin keyfiyyətini artırır, konsaltinq və informasiya xidmətlərinin inkişaf etdirilməsini təmin edir. Bu istehsalçılara bazara asan daxil olmaq imkanları verəcək, təbii ehtiyatlardan səmərəli istifadənin mexanizmlərinin yaradılması, kənd təsərrüfatı sektorunda biznes mühitinin yaxşılaşdırılması və kəndlinin rifahı ilə təmin olunmasına şərait yaradacaqdır. (https://static.president.az)

Burada, 2017-2019-cu illərdə hədəf iqtisadi bölgədə qurulan 12 model təsərrüfatların hər biri torpaq, bitki və su təhlili üçün innovativ portativ laboratoriya kompüter və internetlə təmin olunacaqdır. Bundan əlavə, fermerlər GABA-nın mövcud SMS və qaynar xətt xidmət sisteminə qoşulacaqlar.

Azərbaycanda kənd təərrüfatının qarşısında duran həyata keçirilməli məsələlərdən biri də, bu sahədə sahibkarlara güzəştli kredit imkanlarının yaradılmasıdır. Kənd təsərrüfatı əməliyyatları, kreditlər, notlar, valyuta və bankomatlar kimi maliyyələşmə alət və vasitələri fermerlərin əkinçilik, məhsul və marketinq dövrü ilə müəyyənləşdirilən spesifik maliyyə ehtiyaclarına uyğunlaşdırılmalıdır. Hazırda qısamüddətli kreditlər əməliyyat xərclərinin, orta müddətli kredit kənd təsərrüfatı maşınlarının əldə olunması, uzunmüddətli kreditlər isə real əmlakın maliyyələşdirilməsi məqsədləri üçün istifadə olunur. Amma kənd təsərrüfatı kreditləri kənd təsərrüfatı və kənd təsərrüfatı ilə əlaqəli kommersiya fəaliyyətlərini əhatə edən daha geniş Agrobiznesin tərkib hissəsi kimi

nəzərdən keçirilməlidir. Bu biznes, kənd təsərrüfatı məhsulu istehsalından tutmuş onun satış bazarlarına qədər olan geniş prosesləri əhatə edir (istehsal, emal və satış). Kənd təsərrüfatı məhsul ixracını genişləndirməyi hədəfləyən ölkələrdə iqtisadiyyatın mühüm tərkib hissəsidir. Əkinçiliyə yönələn kreditlər fermerləri maliyyə vəsaitləri ilə təmin etməklə onların təsərrüfatın toxum, avadanlıq və torpaqla əlaqəli problemləri həll etməsinə böyük kömək göstərir.

Beləliklə, Azərbaycanda dövlətin kənd təsərrüfatında başlıca məqsəd və vəzifələrindən biri ərzaq təhlükəsizliyi probleminin təmin olunması, məhsulun ixrac qabiliyyətli və rəqabətə davamlı olmasıdır. Buna nail olmaq üçün ölkədə aqrar sahə üzrə bütün sahələrdə elm və innovasiya yönümlü layihələr həyata keçirilməli, kadr səviyyəsinin artırılması üçün xüsusi təlimlər işlənib hazırlanmalı, yüksək keyfiyyətə cavab verən məhsul götürülməsini, gəlirlərin artırılmasını təşviq edən xüsusi addımlar atılmalıdır. Məqsədyönlü tədbirlərin həyata keçirilməsi yolu ilə ölkədə qida təhlükəsizliyi istiqamətində ekoloji cəhətdən daha yaxşı məhsul istehsal etmək mümkündür.

Dövlət tərəfindən görülməli tədbirlərdən biri də daha aşağı məhsuldarlıqlı heyvanların daha yüksək məhsuldarlığa malik heyvanlarla əvəzlənməsidir. Kiçik heyvandarlıq təsərrüfat formalarının yaranmasına, bu təsərrüfatların müasir tələblərə cavab verməsinə şərait yaradılmalıdır. Fermerlərə dövlət dəstəyinin göstərilməsi üçün atılacaq digər bir addım isə onlara girov qoymadan maliyyə xətlərinin açılmasıdır. Bu addımı atmaqda məqsəd fermerlərin heyvandarlıqda intensiv sistemə keçidinə imkan yaratmaq, əl əməyinin mekanikləşdirilməsinə nail olmaq və yeni sağım aparatlarının əldə olunmasına köməklik göstərməkdir.

Kənd təsərrüfatına əsas dəstəklərdən biri də kiçik sahibkarlara, fermerlərə sığorta imkanlarının yaradılması olmalıdır. Bu istiqamətdə fermerlərə lazımi təlimlər keçirilməli, bu istiqamətdə uğur qazanmış ölkələrin təcrübələrindən istifadə olunmalıdır.

Yuxarıda irəli sürülən təkliflərin reallaşacağı halda kənd təsərrüfatı məhsuldarlığını qarşıdakı illərdə təxminən 20-30 faiz artırmaq mümkün ola bilər ki, bu da qida məhsullarının qida dəyərinin 45-50 faiz azalmasına gətirib çıxara

bilər. Qida təhlükəsizliyinin təmin edilməsi məsələsi dünyada önəmli yer tutur. Demoqrafik artım ekoloji faktorla birlikdə əhalini yüksək keyfiyyətli qida məhsulları ilə təmin etməyi tələb edir və müəyyən dərəcədə burada çətinliklər yaranır. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) son proqnozlarına görə dünyada yaşanan əhali artımı növbəti 30 il ərzində ərzaq ehtiyatlarını 70-75 faiz artırmağı tələb edir. İqlim dəyişikliyi və qlobal istiləşmə, quraqlıq kimi qlobal çağırışlar da mövcuddur. Ətraf mühitin mühafizəsi, suyun və torpaqların optimal istifadəsi, həmçinin gübrələrin və pestisidlərin istifadəsindən zərərlərin azaldılması kimi çox mühüm problemlər də həll olunmalıdır.

Bu kontekstdə ölkənin aqrar sektorunun qarşısında duran əsas vəzifə məhsuldarlığın artırılmasına nail olmaq və ətraf mühitin qorunması üçün mövcud resurslardan optimal istifadə edilməsini təmin etməkdir. Bunun üçün fermerlərə dəstək olmaq, kənd təsərrüfatında yaxşı idarəetmə qurmaq, sənayedə innovasiya və müasir texnologiyaların tətbiqini təmin etmək çox zəruridir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Kənd təsərrüfatının inkişaf etdirilməsi yoxsulluq səviyyəsinin aşağı salınması, paylaşılan rifahın artırılması və sayı 2050-ci ilə qədər təxminən 9,7 milyard nəfərə çatacaq insanı qidalandırmaq üçün ən güclü vasitələrdən biridir. Artan ərzaq ehtiyaclarının təminatı növbəti 30 ildə istehsalda 70% artım tələb edir. Hazırkı şərtlərdən çıxış etsək, ərzaq təhlükəsizliyinin böyük risk altına düşməsi məlum olur. Buraya iqlim dəyişkənliyi amilini də əlavə etsək, məhsuldarlıq problemi aktualllaşır. Kənd təsərrüfatı, meşə təsərrüfatı təyinatlı torpaqlardan istifadənin təyinatının dəyişdirilməsi istiqamətindəki fəaliyyət, həm də qlobal problemə çevrilməkdə olan istixana effektinin artmasını stimulyasiya edir. Su istehlakının 70%-nin suvarmada istifadə olunması davamlı çirklənmə və tullantıların səviyyəsini artırır. Zəif dietlərlə əlaqəli risklər dünyada ölümün aparıcı səbəbinə çevrilməkdədir. Milyonlarla insanın keyfiyyətsiz və ya yanlış ərzaq növlərini yemək məcburiyyətində qalması xəstəliklərə və sağlamlıqla əlaqəli ciddi problemlərə gətirib çıxarır. BMT-nin 2018-ci il hesabatından məlum olur ki, 2016-cı ildə sayı 804 milyon nəfər olmuş ac və az qidalanan insanların mütləq sayı 2017-ci ildə 821 milyona yüksəlib.

Problemlərin sırası və səviyyəsinin bu dərəcədə böyüməsi ciddi narahatçılıq yaratmaqla, həm də aqrar sektor qarşısında mühüm məqsədlər və vəzifələr irəli sürür. Bu məqsəd və vəzifələr sırasında Azərbaycanın da yeri var. Bu yer ölkəmizin kənd təsərrüfatının intensiv əsaslar üzərində inkişaf etdirilməsini və bu yolda mövcud problemlərin həll olunmasını şərtləndirir. Bu baxımdan ölkəmizdə əhalinin davamlı şəkildə keyfiyyətli ərzaq məhsulları ilə təminatının gerçəkləşdirilməsi məsələsi təkcə iqtisadi məsələ deyil, həm də strateji məsələdir. Bu strateji məsələnin həlli ölkənin kənd təsərrüfatı sisteminin bütövlüklə çağdaş dövrün tələblərinə uyğun yeniləşdirilməsini tələb edir. Belə olan halda aqrar elmin, aqrar-sənaye sahəsində elmi-tədqiqat işlərinin keyfiyyətinin yüksəldilməsi, elmi-təcrübi yeniliklərin istehsalata tətbiqi, bir sözlə, innovasiya yönümlü inkişafın

təmin edilməsi vacibliyi ön plana çıxır. Bu səbəbdən aşağıdakı təklif və tövsiyyələri məqsədəuyğun sayırıq:

1) Aqrar sahədə həyata keçirilən elmi tədqiqatlarda planlaşdırılma və maliyyələşdirilmə sistemləri inkişaf etdirilməlidir. Bunun üçün konkret hədəflərə istiqamətlənən elmi nəticələr əldə etmək üçün tədqiqat institutları müasir laboratoriya, cihaz və avadanlıq, səmərəli kənd texnika həmçinin başqa maddi və texniki vasitələrlə təmin olunmalı, elmi işçilər üçün yüksək iş şəraiti yaradılmalıdır. Müqayisə üçün bildirək ki, ABŞ-da yalnız elmi-tədqiqat işləri aparan 100 universitetin maliyyələşdirilməsinə ayrılan illik vəsaitlər bir çox ölkələrin ümumiyyətlə, təhsilə ayırdıqları ümumi xərclərdən çoxdur: Con Hopkins Universitetinə ildə orta hesabla 569 milyon, Vaşinqton Universitetinə 299 milyon, Stənford Universitetinə 266 milyon dollar vəsait ayrılır. Elmə bu dərəcədə yüksək qiymət elm sahəsində praktiki olaraq uğurlu nəticələrə yol açan elmi-tədqiqat işlərinin aparılmasına imkan verir. Azərbaycanda isə aqrar sahədə elmi-tədqiqat işlərinin maliyyələşdirilmə səviyyəsi və mexanizmi dövrün tələblərinə cavab vermir;

2) Ali eləcə də orta ixtisas kənd təsərrüfatında çalışan mütəxəssislərinin peşəkarlıq və hazırlıq səviyyəsinin yüksəldilməsinə ehtiyac var. Çünki əhali üzrə ərzaq məhsullarının etibarlı olaraq təminat sahəsində kadrlar həlledici rol oynayır. Bu ixtisaslara yiyələnmiş kadrların kənd ərazilərində daha cəlbedici görsənməsi üçün onların sosial-məişət problemlərinin həll edilməsi vacibdir;

3) Aqrar sahə üzrə ali təhsil mərkəzi olan Azərbaycan Dövlət Aqrar Universitetinin maddi-texniki bazasının gücləndirilməsi tövsiyyə olunur.

4) Son zamanlar elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin həcmi daha da azalmış, araşdırmaların həcmi və keyfiyyəti aşağı düşmüşdür. Elmi təşkilatların çoxunda yüksək səviyyəli eksperimentlərin aparılması praktik olaraq qeyri-mümkündür. Bu hal aqrar innovasiyaların istehsalata tətbiqi mexanizmlərinin dövrün tələblərinə cavab verməməsindən irəli gəlir. Ona görə də aqrar sahədə fəaliyyət göstərən elmi-tədqiqat təşkilatlarının iri biznes strukturları ilə işgüzar

səviyyədə əlaqələrinin yaradılması istiqamətində tədbirlərin həyata keçirilməsini və bu istiqamətdə dövlət sifarişlərinin artırılması vacib sayırıq.

İnnovasiya fəaliyyətinin nəticəsi kadrların təhsilindən, texniki-texnoloji hazırlıq səviyyəsindən asılıdır. İnnovasiyanın qavranılmasını və onun iqtisadiyyata tətbiq edilməsindən gözlənilən səmərənin əvvəlcədən qiymətləndirilməsini bu amil təmin edir. Bütövlükdə aqrar sahənin səmərəliliyi mütəxəssislərin hazırlıq səviyyəsindən və işgüzar keyfiyyətlərindən asılıdır. Odur ki, yuxarıda təqdim olunan təklifləri aqrar sahənin önündə dayanan vəzifələrin icra edilməsi baxımından əhəmiyyətli hesab edirik.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarında istehsal və emala dair Strateji Yol Xəritəsi(2016)

2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

3. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi

4. Azərbaycan Respublikasında kənd təsərrüfatı sahəsi məhsulları istehsalı və emalına dair Strateji Yol Xəritəsi

5. Azərbaycan Respublikası regionlarında 2014-2018-ci illər üzrə sosial-iqtisadi inkişafı Dövlət Proqramı

6. Azərbaycanın 2020-ci il: Gələcəyə Baxış İnkişaf Konsepsiyası

7. Azərbaycan Respublikası Məşğulluq Strategiyasının həyata keçməsi üzrə 2011-2015-ci illər Dövlət Proqramı

8. Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafı 2017-2022-ci illər Dövlət Proqramı

9. Azərbaycan İqtisadi İslahatlar İcmalı-2016/2017, http://iqtisadiislahat.org

10. Aqrar sektor yeni inkişaf mərhələsində, https://azertag.az/xeber

11. Aqrar sektorun müasir durumu və inkişaf perspektivlərinə baxış, http://www.moderator.az/news/

12. Aqrar sahənin intensiv inkişaf səviyyəsinin və ərzaq məhsulları istehsalının mövcud vəziyyətinin statistik qiymətləndirilməsi, http://www.etsim.az/

13. Alıyev İ.H. “Aqrar sahənin inkişafının təkmilləşdirilməsi və regionlarda islahatların keyfiyyətcə səmərəli apanlması”,Bakı - 2004, səh-110.

14. Alıyev İ.H. “Azərbaycan Respublikasında aqrar sektorda iqtisadi idarəetmə mexanizminin inkişaf etdirilməsi”, Bakı, 2003, səh-315.

15. Bəyalı Ataşov. “Aqrar sahədə struktur və səmərəlilik problemləri” Kooperasiya nəşriyyatı, Bakı 2017, səh-536.

16. Bədəlov M.Ə. “Dünya iqtisadiyyatı” Bakı 2006, səh-200.

17. Elşən Bağırzadə. "Bazar iqtisadiyyatı şəraitinə aqrar siyasətin həyata keçirilməsi mexanizmləri və Azərbaycandakı mövcud vəziyyət", Magistr dissertasiyası, Bakı 2005.
18. Eldar Quliyev. "Aqrar İqtisadiyyat". Ali məktəblilər üçün dərslik, Bakı 2015 , Kooperasiya" nəşriyyatı, səh -319.
19. Əhmədzadə Emin Nemət oğlu. "Kənd təsərrüfatında istehsalın tənzimlənməsinin mövcud sisteminin təhlili", Azərbaycan Vergi Xəbərləri, Bakı 2011, səh 85-94
20. Əliyev İ. N. "Heydər Əliyev və Azərbaycan kənd təsərrüfatı", II kitab. Bakı: «Ziya-Nurlan» NPM, 2001, səh-122.
21. Həşimov R. H. "Ölkədə aqrar sahədə islahatların reallaşdırımasının dövlət təminatı", Bakı 2015, səh-118.
22. Həsənov R. T. "Respublikada sosial-iqtisadi inkişafı bazar modelində konseptual əsaslar", Bakı 1998, səh-343.
23. Xalsa Nəsibova, "Aqrar Sahədə İstehsalın İnkişafının İqtisadi Mexanizminin Təkmilləşdirilməsi", Avtoreferat, Gəncə 2013, səh-22
24. Xəlilov H.A. "Aqrar sahə iqtisadiyyatında sistem transformasiyları və modernləşmə", Bakı 2005, səh-228.
25. İsmət Abasov. "Azərbaycan və dünya ölkələrinin kənd təsərrüfatı", Şərq-Qərb nəşriyyat evi, Bakı 2013, səh-712.
26. İbrahimov İ.H., "Aqrar iqtisadiyyatda aktual problemlər", Bakı 2002.
27. "İqtisadiyyat və həyat" jurnalı, №8, Bakı 2006.
28. İbrahimov İ.H. "Aqrar sahənin iqtisadiyyatı" (Monoqrafiya), Bakı 2016, səh-655
29. Nəsibova X. "Aqrar sektorda istehsalın inkişafında iqtisadi mexanizmin təkmilləşdirilməsi". Gəncə 2013(Avtoreferat)
30. Niftullayev V. "Kənd təsərrüfatının iqtisadiyyatı", Bakı: Elm, 2006, səh-360.
31.Rövşən Quliyev. "Aqrar bazarların tənzimlənməsi üzrə dünya təcrübəsi" Məşvərət jurnalı, Bakı 2016.

32. Rəşad Həsənov, Gülnar İsmayılova, Rəfiqə Əliyeva. "Kənd Təsərrüfatı ilində Respublikada aqroparklar formalaşdırılma mexanizmləri həmçinin fermerlərin proses zamanı iştirakçılıq qabiliyyətinin gücləndirilməsi", Bakı 2015, səh-81.
33. Respublikada kənd təsərrüfatının kooperasiya inkişafına dair 2017-2022-ci illər Dövlət proqramı
34. Vüsal Qasımlı. "İqtisadi modernizasiya", Bakı 2014, səh-308
35. Vüqar Əhmədov, Gülzar Tahirova. "İqtisadi artımın empirik modelləri", Mərkəzi Bank, səh-10.
36. V.E. Süleymanov, "Azərbaycanın Kənd Təsərrüfatı Məhsullarının İxracının Rəqabətə Davamlılığını Müəyyən Edən Amillər", Maliyyə və uçot, 2012.-N°4, səh 39-44.
37. Verdiyev Ə. Ç., Qarayev İ. Ş. Aqrar bazarın formalaşmasının iqtisadi problemləri, Bakı: Şirvannəşr, 2007.
38. Verdiyev Ə. Ç., İbrahimov İ.H. Bazar iqtisadiyyatı və qiymət, Bakı: Azərbaycan Dövlət Nəşriyyat Poliqrafiya Birliyi, 1992, səh-186.

**Xarici dildə**

39. "Innovation in agriculture: a key process for sustainable development", Institutional position paper, San Jose, May 2014
40. Jensen, M.B, Johnson, B., Lorenz, N., Lundvall B, Codification and Modes of Innovation, 2004
41. Matthieu De Clercq, Anshu Vats, Alvaro Biel, "Agriculture 4.0: The future of farming technology", 2018, p-30.
42. Overview of CAP Reform 2014-2020, December 2013, N°5, p-10.

**İnternet resurslar**

43. https://ourworldindata.org/
44. https://www.stat.gov.az/
45. https://www.worldbank.org/
46. https://static.president.az/
47.https://customs.gov.az/

## Cədvəllərin siyahısı

**Cədvəl 1**. 2009-2017-ci illər üzrə kənd təsərrüfatı bitkilərinin əkin sahələri.........41
**Cədvəl 2.** 2009-2017-ci illər üzrə kənd təsərrüfatı bitkilərinin əkin sahələri.........42
**Cədvəl 3**. Təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatının ümumi.....................45
**Cədvəl 4**. Kənd təsərrüfatının ümumi məhsulunun strukturu ................................46
**Cədvəl 5**. İqtisadi rayonlar üzrə pambıq əkin sahələri ............... ..........................47
**Cədvəl 6**. Tütün əkin sahələri ..........................................................................49
**Cədvəl 7**. Əsas heyvandarlıq məhsullarının istehsalı.............................................51
**Cədvəl 8**. Aqrar sektorun ixrac potensialını şərtləndirən əsas amillər....................59
**Cədvəl 9**. Aqrar sektorun ixrac potensialını şərtləndirən əsas amillər....................61
**Cədvəl 10**. 2018-ci ildə mal qrupları üzrə ixracın strukturu..................................62
**Cədvəl 11**. 2014-2018-ci illər üzrə açılmış iş yerləri............................................74

## Şəkillərin siyahısı

**Şəkil 1**. Kənd təsərrüfatının dəyər zənciri ...........................................................21
**Şəkil 2**. Kənd təsərrüfatında yaradılan əlavə dəyərin adambaşına (bir işçiyə) düşən həcmi........................................................................................................65
**Şəkil 3**. Qadın torpaq sahiblərinin ümumi torpaq sahibləri sırasında yeri və rolunun dünya ölkələri üzrə paylanması......................................................................66

## Qrafiklərin siyahısı

**Qrafik 1**. 1800-2015-ci illərdə ayrı-ayrı ölkələr üzrə kənd təsərrüfatında çalışanların sayı..........................................................................................63
**Qrafik 2**. Orta aylıq əmək haqqı və yoxsulluq səviyyəsinin dinamikası................73

## Diaqramların siyahısı

**Diaqram 1**. 2017-ci il üzrə şəhər və rayonlar üzrə təyin olunmuş pensiyaların orta aylıq məbləği .....................................................................................74
**Diaqram 2**. Pərakəndə ticarət dövriyyəsinin iqtisadi rayonlar üzrə strukturu........76